Qurani Kərimə və pak Sünnəyə əsasən

# ASANLAŞDIRILMIŞ
# ƏQİDƏ

Müəllif

Dr. Əhməd ibn Abdurrəhman əl-Qadi




**Mərhəmətli və Rəhmli Allahın adı ilə!**

# MÜQƏDDİMƏ

Həqiqətən, həmd Allaha məxsusdur! Biz Ona həmd edirik, Onu köməyə çağırırıq, Ondan bağışlanma diləyirik, nəfsimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona sığınırıq. Allah kimə hidayət verərsə, onu azdıran tapılmaz, kimi azdırarsa, onu doğru yola yönəldən tapılmaz.

Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, Onun şəriki yoxdur. Pak və müqəddəs Allah belə buyurur: **“Savadsızlara özlərindən peyğəmbər göndərən Odur. *Peyğəmbər* onlara *Allahın* ayələrini oxuyar, onları *pis əməllərdən* təmizləyər, onlara kitabı və hikməti öyrədər. Halbuki onlar əvvəllər açıq-aydın azğınlıq içində idilər.”** (əl-Cumuə, 2).

Həmçinin şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir. Allah Öz qullarına elçi göndərməklə onlara lütf göstərmişdir. Bu xüsusda uca Allah buyurur: **“Allah möminlərə, onların öz içərisindən, özlərinə *Allahın* ayələrini oxuyan, onları *günahlardan* təmizləyən, onlara Kitabı və hikməti öyrədən bir Elçi göndərməklə lütf göstərdi. Halbuki, bundan öncə onlar açıq-aydın azğınlıq içərisində idilər.”** (Ali-İmran, 164).

Sonrasına gəlincə...

Uca Allah insanları zülmətlərdən nura, aşkar zəlalətdən tam doğru yola çıxartmaq üçün Öz elçisi Muhəmmədi ﷺ doğru yol göstəricisi və haqq din ilə göndərmişdir. O din ki, onun sayəsində kökslər genişlənir və qəlblər rahatlıq tapır. *Doğru yol göstəricisi* deyildikdə, faydalı elm, *haqq din* deyildikdə də saleh əməl qəsd edilir. Məhz bu iki əzəmətli əsas üzərində gözəl həyat qurulur.

Uca Allah Öz mübarək Kitabında insanların əqidəsinə, ibadətlərinə, məişət işlərinə və əxlaqlarına dair ehtiyac duyduqları məsələlər barədə kifayət qədər ayələr zikr etmişdir. Pak Sünnə də bu müxtəsər mənalı ayələri bəyan etmiş, aydın olmayan ayələri açıqlamış və ümumi mənada olan ayələri müfəssəl şəkildə izah etmişdir.

Bu xüsusda Rəsulullah ﷺ belə buyurmuşdur: **"Mənə Quran və onunla yanaşı onun bənzəri** (Sünnə) **verilmişdir."**[1]

İslam əqidəsi bu dinin dirəyi və onun təməlidir, habelə, onun gücünün sirri və digər dinlərin hamısından üstün olmasına səbəbdir. Bütün bunlar bu dinə xas olan xüsusiyyətlərə görədir ki, bu xüsusiyyətlərdən bəziləri bunlardır:

1. Yalnız tək Allaha ibadət etmək və Peyğəmbərə ﷺ tabe olmaq.

2. Hüdudlardan kənara çıxmamaq. Bu əqidə rəbbani mənbə olduğu üçün onu hansısa rəydən və ya qiyasdan deyil, məhz Quran və Sünnədən öyrənmək gərəkdir.

3. Bu əqidə şeytanların insanları azdırmamışdan əvvəl Allahın insanlara bəxş etdiyi sağlam fitrətə müvafiqdir.

4. Bu əqidə şübhələrdən və şəhvani fikirlərdən uzaq olan salamat ağıla müvafiqdir.

5. Bu əqidə əhatəlidir və o, kainata, həyata və insana aid elə bir sahə yoxdur ki, onu bəyan etmiş olmasın.

6. Oxşarlıq. Belə ki, əqidə məsələlərinin biri digərini təsdiqləyir və bu məsələlər arasında heç bir ziddiyyət və fərqlilik yoxdur.

7. Orta yol. Belə ki, bu əqidə, ixtilaflı məsələlərdə ifrat (həddi aşmaq) və təfrit (laqeydlik) arasında orta mövqe tutur.

*Bu xüsusiyyətlərin aşağıda qeyd edilən faydaları vardır:*

1. İbadəti aləmlərin Rəbbinə yönəltmək və yaradılanlara qul olmaqdan azad olmaq.

2. Aləmlərin Rəbbinin elçisinə tabe olmaq və bidət və bidətçilərdən uzaqlaşmaq.

3. Hər şeyi idarə edən və hikmət sahibi olan Xaliqlə əlaqə quraraq can rahatlığı və qəlb arxayınlığı tapmaq.

4. Sağlam fikirləşmək, geniş düşünmək, üstəlik, ziddiyyətdən və xürafatdan uzaq durmaq.

---

[1] Sünən Əbu Davud, 4604. Şeyx Albani bu hədisin səhih olduğunu demişdir.

5. Həm ruhani, həm də cismani ehtiyacları ödəmək, üstəlik, etiqadi və əxlaqi keyfiyyətləri təkmilləşdirmək.

Müsəlman alimləri indiyədək əqidə mövzusunu ən başlıca məqama qoyur, üstəlik, onu insanlara öyrətmək və qəlblərinə yeritmək üçün bacardıqları qədər cəhd göstərirlər. Onlar əqidə mövzusunda həm asan yadda saxlamaq üçün müxtəsər mətnlər, həm də yaxşı başa düşmək üçün geniş şərhlər yazır və bu şərhləri bəzən sələflərimizin etiqadını yığcam şəkildə bəyan etmək üçün, bəzən müəyyən bir məsələni bəyan etmək üçün, bəzən də nəfsinin istəklərinə uyan və zəlalətə düşmüş bidət əhlinin yanlışlarına cavab vermək üçün yazırlar.

Mən əqidə məsələlərini məşhur "Cəbrail hədisində" Peyğəmbərin ﷺ imanın altı əsasını tərtib etdiyi kimi tərtib edib, yalnız Qurani Kərimə və pak Sünnəyə əsaslanaraq şərh etmək qərarına gəldim. İmanın əsaslarına aid fəsillərin hər birində ona aid olan məsələlər zikr edilir, üstəlik, o mövzuya dair yanlış fikirdə olanların zəlalətinə aydınlıq gətirilir və bu yanlış fikirlərə cavab verilir.

Bu kitab nə uzun, nə də müxtəsər yox, orta həcmdə, həm də aydın və sadə dildə yazılmışdır ki, sıravi müsəlmanlar belə ondan səmərəli istifadə edə bilsin, oxucuda, sələflərimizin etiqadı barədə dəqiq və ümumi təsəvvür yaransın. Mən bu kitabı **"Qurani Kərimə və pak Sünnəyə əsasən asanlaşdırılmış əqidə"** adlandırdım.

Allahdan istəyim budur ki, bu əməlimi Onun rizasını qazanmaq üçün yerinə yetirilən və qullarına fayda verən əməllərdən etsin.

Peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə və səhabələrinin hamısına Allahın salavatı və salamı olsun!

*Dr. Əhməd ibn Abdurrəhman əl-Qadi*
*Hicri 17/02/1427, Uneyzə.*

# Qurani Kərimə və pak Sünnəyə əsasən ASANLAŞDIRILMIŞ ƏQİDƏ

Allaha, Onun mələklərinə, kitablarına, peyğəmbərlərinə, Axirət gününə və qədərə – onun xeyrinə və şərinə iman gətirmək İslam əqidəsinin əsası sayılır. Bu xüsusda uca Allah belə buyurur: **"Lakin yaxşı əməl *sahibləri* Allaha, Axirət gününə, mələklərə, *hər bir səmavi* kitaba və peyğəmbərlərə iman gətirənlərdir..."** (əl-Bəqərə, 177).

O, həmçinin buyurur: **"*Allahın* rəsulu öz Rəbbindən ona nazil edilənə iman gətirdi, möminlər də, *iman gətirdilər*. Hamısı Allaha, Onun mələklərinə, kitablarına və elçilərinə iman gətirdilər."** (əl-Bəqərə, 285).

O, həmçinin buyurur: **"Ey iman gətirənlər! Allaha, Onun elçisinə, elçisinə nazil etdiyi Kitaba və ondan əvvəl nazil etdiyi kitablara iman gətirin! Allahı, Onun mələklərini, kitablarını, elçilərini və Axirət gününü inkar edən kəs, şübhəsiz ki, dərin bir azğınlığa düşmüşdür."** (ən-Nisa, 136).

Yenə O, buyurur: **"Biz, həqiqətən, hər şeyi qədərincə yaratdıq."** (əl-Qəmər, 49).

Cəbrail عليه السلام Peyğəmbərdən ﷺ iman barədə soruşduqda, Peyğəmbər ﷺ ona belə demişdir: **"*İman odur ki,* Allaha, Onun mələklərinə, kitablarına, elçilərinə və Axirət gününə iman gətirəsən, habelə qədərə – onun xeyrinə və şərinə iman gətirəsən."**[1]

## ALLAHA İMAN

Allaha iman, Onun mövcud olmasına etiqad etməkdir. Habelə, etiqad etmək lazımdır ki, O hər şeyin Rəbbidir; başqası yox, yalnız O ibadətə layiqdir; ən kamil sifətlər Ona məxsusdur və O naqis sifətlərdən uzaqdır.

[1] Səhih Muslim, 8.

*Allaha iman özündə dörd məsələni cəm edir:*

**Birincisi: Allahın mövcud olmasına iman.**

Allahın mövcud olması heç bir şəkk-şübhə doğurmayan bir həqiqətdir: **“Bu belədir. Çünki Allah Haqdır.”** (əl-Həcc, 62).

Allahın mövcud olmasına şəkk etmək yaramaz və çirkin əməldir: **“Peyğəmbərləri** *onlara* **dedilər: “Göyləri və yeri yaradan Allaha şəkk etməkmi olar?”** (İbrahim, 10).

Onun mövcud olmasını inkar etmək təkəbbürlük və küfr sayılır. Uca Allah buyurur: **“*Musa* dedi: “Sən artıq bilirsən ki, bunları yalnız göylərin və yerin Rəbbi, açıq-aşkar dəlil olaraq endirdi. Mən isə, ey Firon, sənin məhv olacağını yəqin bilirəm.”** (əl-İsra, 102).

O, həmçinin buyurur: **“Firon dedi: “Aləmlərin Rəbbi nədir?” *Musa* dedi: “Əgər yəqinliklə inanırsınızsa, *bilin ki,* O, göylərin, yerin və onların arasında olanların Rəbbidir!” Firon ətrafındakılara dedi: “*Onun nə danışdığını* eşitmirsinizmi?” *Musa* dedi: “O sizin də, ulu babalarınızın da Rəbbidir!” *Firon* dedi: “Sizə göndərilmiş bu elçi, sözsüz ki, dəlidir!” *Musa* dedi: “Əgər anlayırsınızsa, *bilin ki,* O, şərqin, qərbin və bunların arasında olanların Rəbbidir!” *Firon* dedi: “Əgər məndən başqasına sitayiş etsən, səni məhbusların yanına ataram!”** (əş-Şuəra, 23-29).

*Allahın mövcud olmasına aşağıdakılar dəlildir:*

**1. Salamat fitrət.** Bu, Adəm övladının valideynləri tərəfindən tərbiyə edilməmişdən əvvəl yiyələndiyi təbii xislətdir.

Bu xüsusda Uca Allah buyurur: **“Sən bir hənif kimi üzünü dinə tərəf çevir! Allahın insanlara – xəlq etdiyi *şüurlu* məxluq kimi verdiyi fitrət budur. Allahın yaratdığını heç cür dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların çoxu *bunu* bilmir.”** (ər-Rum, 30).

Peyğəmbər ﷺ də belə demişdir: **“Hər bir körpə fitrət üzərində doğulur. Sonradan ata-anası onu ya yəhudi, ya xristian, ya da məcusi edir.”**[1]

---

[1] Səhih əl-Buxari, 1358; Səhih Muslim, 2658. Bu, Buxarinin ləfzidir.

Muslimin rəvayətində deyilir ki: **"Hər bir körpə İslam dininə etiqad etdiyi halda – fitrət üzərində doğulur."**[1]

Muslimin digər rəvayətində deyilir ki: **"Hər bir körpə bu dinə etiqad etdiyi halda doğulur və öz fikrini bəyan edənə qədər fitrəti üzərində qalır."**[2]

Muslimin başqa bir rəvayətində isə belə deyilir: **"Hər bir körpə bu fitrət üzərində doğulur və öz fikrini izah etməyə qadir olana qədər fitrəti üzərində qalır."**[3]

Hər bir məxluq yaradılışındakı fitrəti üzərində qalır və qəlbində Allahın mövcud olduğuna iman gətirir. Yalnız bu fitrəti korlayan bir fikir ona toxunduqda o dəyişir. Qüdsi hədisdə uca Allah belə buyurur: **"Mən qullarımın hamısını hənif olduqları** (Allahın tək ilah olduğuna etiqad etdikləri) **halda yaratdım. Sonra şeytanlar onların yanına gəlib onları özlərinin dinindən uzaqlaşdırdı."**[4]

Bəzən insanın fitrətinə şübhələr və şəhvani hislər qarışır, lakin müsibət və sıxıntı gəldiyi zaman həqiqi fitrət üzə çıxır. Bu xüsusda uca Allah belə buyurur: **"Onlar gəmiyə mindikləri zaman, dini yalnız Allaha məxsus edərək, Ona yalvarırlar. *Allah* onları xilas edib quruya çıxaran kimi, yenə də *Ona* şərik qoşurlar."** (əl-Ənkəbut, 65).

**2. Sağlam ağıl.** Bu, şübhələr və nəfsin istəkləri qarışmamış ağıldır. Belə ağıl sahibi düşünür ki, yaradılanların mütləq Yaradanı olmalıdır. Belə ki, onlar Xaliq olmadan təsadüfən yarana bilməz, habelə, özləri özlərini yarada bilməzlər. Çünki mövcud olmayan bir şey heç bir şey yarada bilməz. Odur ki, yaradan Xaliqin olması labüddür ki, bu da pak və müqəddəs olan Allahdır.

Rəvayət edilir ki, Cubeyr ibn Mutim ﷺ hələ müşrik ikən Bədr döyüşündə əsir düşmüş müşriklərin fidyə müqabilində azad edilməsi xüsusunda danışıqlar aparmaq üçün Peyğəmbərin ﷺ yanına

[1] Səhih Muslim, 2658.

[2] Əvvəlki mənbə.

[3] Əvvəlki mənbə.

[4] Əvvəlki mənbə.

gəldikdə, onun məğrib namazında "ət-Tur" surəsini oxuduğunu eşitdi. Nəhayət, Peyğəmbər ﷺ: **"Yoxsa onlar öz-özünə yaranıblar? Yaxud onlar yaradanlardır? Yoxsa onlar göyləri və yeri yaradıblar? Xeyr, onlar qətiyyən inanmırlar. Yoxsa sənin Rəbbinin xəzinələri onlardadır? Yaxud onlar hökm sahibidirlər?"** ayələrini oxuduqda, Cubeyr: "Qəlbim az qaldı ki, uçsun."– dedi."[1]

Cahiliyyət dövrində ərəblər arasında tanınmış xətib Qas ibn Saidə əl-İyadi sağlam ağılı dəlil gətirərək demişdir: "Dəvə peyini dəvənin mövcud olmasına, ayaq izi də onu qoyan adamın mövcud olmasına dəlalət edir. Məgər ulduzlarla dolu olan göy, dərələrlə dolu olan yer hər şeydən Xəbərdar olan Yaradanın mövcud olmasına dəlalət etmirmi?"[2]

**3. Gözlə görünən dəlillər.** Uca Allah buyurur: **"Biz dəlillərimizi onlara həm kainatda, həm də onların özlərində mütləq göstərəcəyik."** (Fussilət, 53). Bu dəlillər müxtəlif cür olmuşdur – peyğəmbərlərin dəlilləri, əməlisaleh möminlərin kəramətləri və dua edənlərin qəbul edilmiş duaları.

Uca Allah Öz peyğəmbəri Nuh عليه السلام haqqında belə buyurur: **"*Nuh* Rəbbinə dua edib dedi: "Məni üstələdilər! *Mənə* kömək et!" Biz göyün qapılarını leysan yağışı ilə açdıq. Yeri yarıb bulaqlar qaynatdıq. *Göydən tökülən və yerdən çıxan* sular əzəldən yazılmış bir iş üçün bir-birinə qovuşdu. Biz onu taxtalardan pərçimlənib mismarlanmış gəmidə daşıdıq. İnkar edilmiş *peyğəmbərə* mükafat olaraq o *gəmi* Gözlərimiz önündə üzüb gedirdi."** (əl-Qəmər, 10-14).

O, həmçinin buyurur: **"Biz Musaya: "Əsanı dənizə vur!"–** ***deyə*** **vəhy etdik.** ***Dəniz*** **dərhal yarıldı,** ***on iki yol açıldı*** **və hər biri nəhəng bir dağ kimi oldu. O birilərini də ora yaxınlaşdırdıq. Musa və onunla birlikdə olanların hamısını xilas etdik. O birilərini isə suya qərq etdik. Şübhəsiz ki, bu** ***hekayətdə*** **bir ibrət vardır. Lakin onların çoxu iman gətirmədi."** (əş-Şuəra, 63-67).

---

[1] Səhih əl-Buxari, 4854.

[2] Cahizin "əl-Bəyan vət-Təbyin" əsəri, 1/163.

Uca Allah Öz peyğəmbəri İsa ﷺ haqqında da belə buyurur: *"Allah onu* **İsrail oğullarına bir elçi** *edəcəkdir. O deyəcəkdir:* **"Mən sizə Rəbbinizdən bir dəlil gətirmişəm. Sizin üçün palçıqdan quşa bənzər bir şey düzəldib ona üfürərəm, o da Allahın izni ilə quş olar. Allahın izni ilə anadangəlmə koru, cüzam xəstəliyinə tutulanı sağaldar və ölüləri dirildərəm. Evlərinizdə yediyiniz və yığıb saxladığınız şeyləri sizə xəbər verərəm. Əgər möminsinizsə,** ***bilin ki,*** **bunda sizin üçün bir dəlil vardır."** (Ali-İmran, 49).

Həmçinin, Peyğəmbərimiz Muhəmmədə ﷺ də bu cür dəlillər verilmişdir. Ənəs ibn Malik رضي الله عنه rəvayət edir ki, cümə günü Peyğəmbər ﷺ minbərdə xütbə verərkən, bir nəfər minbərin qarşısındakı qapıdan içəri daxil oldu və Peyğəmbərlə ﷺ üzbəüz durub dedi: "Ya Rəsulullah, mallar məhv oldu, yollar bağlandı. Allaha dua et ki, bizə yağmur endirsin". Rəsulullah ﷺ əllərini *göyə* qaldırıb dedi: **"Allahım, bizə yağmur endir! Allahım, bizə yağmur endir! Allahım, bizə yağmur endir!"** Ənəs dedi: "Vallahi, *həmin an* biz göydə nə bir bulud, nə bir bulud parçası, nə də başqa bir şey görmürdük. Bizimlə Səl dağının arasında nə bir ev, nə də bir koma vardı. *Elə bu vaxt* dağın arxasından qalxanabənzər bir bulud göründü. Nəhayət, gəlib göyün ortasına çatdıqdan sonra *ətrafa* yayıldı və yağış yağmağa başladı. Vallahi, altı gün biz günəşi görmədik. Növbəti cümə günü Peyğəmbər ﷺ xütbə verərkən *yenə* bir nəfər həmin qapıdan içəri daxil oldu və Peyğəmbərlə ﷺ üzbəüz durub dedi: "Ya Rəsulullah, mallar zay oldu, yollar bağlandı. Allaha dua et ki, yağışı dayandırsın". Rəsulullah ﷺ əllərini *göyə* qaldırıb dedi: **"Allahım,** ***yağışı*** **üstümüzə yox, ətrafımıza yağdır. Allahım, təpələrə, dağlara, bağlara, yamaclara, vadilərə və ağac bitən yerlərə** ***yağdır*****!"** Yağış kəsdi və biz günəşli havada *gəzişmək üçün* bayıra çıxdıq."[1]

Ümumi olaraq uca Allah buyurur: ***"Bütlər yaxşıdır,*** **yoxsa darda qalan kimsə yalvardığı zaman ona cavab verən, şəri sovuşduran və sizi yer üzünün varisləri edən** ***Allah?!*** **Heç Allahla yanaşı başqa bir məbudmu var? Siz necə də az düşünürsünüz?"** (ən-Nəml, 62).

---

[1] Səhih əl-Buxari, 1013; Səhih Muslim, 897.

Peyğəmbərlərin dəlilləri, dua edənlərin dualarının qəbul edilməsi və sıxıntıya düşmüş insanlara yardım edilməsi, insanlardan bir qisminin öz gözlərilə gördüyü dəlillərdir ki, bu dəlillər peyğəmbərləri göndərən, duaları qəbul edən və sıxıntıda olanlara yardım edən Allahın mövcud olduğuna şahidlik edir.

**4. Səhih şəriət.** Bu, mübarək Quran və səhih Sünnədir.

Uca Allah buyurur: **"Məgər onlar Quran barəsində düşünmürlərmi?! Əgər o, Allahdan başqası tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ixtilaf tapardılar."** (ən-Nisa, 82).

O, həmçinin buyurur: **"Ey insanlar! Rəbbinizdən sizə bir dəlil gəldi və Biz sizə aydın bir nur (Quran) nazil etdik."** (ən-Nisa, 174).

O, həmçinin buyurur: **"Ey insanlar! Rəbbinizdən sizə bir öyüd-nəsihət, kökslərdə olana bir şəfa, möminlərə doğru yol göstəricisi və mərhəmət gəlmişdir."** (Yunus, 57).

Yenə O, buyurur: **"Onlara oxunan Kitabı sənə nazil etməyimiz onlar üçün kifayət deyilmi?! Həqiqətən, bunda iman gətirən adamlar üçün mərhəmət və ibrət var."** (əl-Ənkəbut, 51).

Əzəmətli Quranda zikr edilən və öz təsdiqini tapmış qeybi xəbərlər, səhih əqidə, ədalətli şəriət qanunları və gözəl əxlaqi xislətlər dəlildir ki, bunlar Allah tərəfindən nazil edilmişdir və bunların Allahdan başqa məxluqat tərəfindən nazil olması mümkün deyil. Odur ki, Adəm övladından heç kəs Allahın həqiqətən də mövcud olduğunu inkar etməmişdir. Qədimdə də, hazırki dövrdə də ateistlər sadəcə zahirdə bunu inkar etmişlər. Onlara misal olaraq aşağıdakıları sadalamaq olar:

- *Materialistlər.* Onlar aləmin əzəli və əbədi olduğunu (yəni əvvəldən olub və əbədi olaraq da qalacaqdır) deyən materialist filosoflardır. Bu əsrdə onlara "müasir ateistlər" deyilir.

Materialistlər deyirlər: **"*Həyat* ancaq bizim dünya həyatımızdır. *Kimimiz* ölür, *kimimiz də* doğulur. Bizi öldürən yalnız zamandır." Bu haqda onların heç bir biliyi yoxdur. Onlar ancaq zənnə qapılırlar."** (əl-Casiyə, 24).

Onlar iddia edirlər ki, guya bu aləm öz ixtiyarı ilə hərəkət edir və o, əzəli və əbədidir. Onlar deyirlər ki, bətnlər üzə çıxardır, torpaq isə udur və bizi öldürən yalnız zamandır. Beləliklə, onlar məxluqatı Yaradanın olduğunu inkar edirlər. Allah da onlara belə cavab verir: **"Bu haqda onların heç bir biliyi yoxdur."** Yəni nə əqli, nə nəqli, nə hissi, nə də fitri elmi yoxdur. Bu sadəcə xülya və heç bir əsası olmayan fərziyyədir: **"Onlar ancaq zənnə qapılırlar."**

- *Təbiətin yaradan olduğuna inananlar.* Onlar kainatın təbii olaraq yarandığını deyənlərdir. Yəni hər şey – bitkilər, heyvanlar və digər canlılar, cansız əşyalar və onların xüsusiyyətləri və hərəkətləri öz-özünə yaranmışdır.

Onların cavabı çox sadədir: belə ki, bir şeyin eyni anda həm yaradan, həm də yaradılan olması qeyri-mümkündür. Bu xüsusda uca Allah buyurur: **"Yoxsa onlar öz-özünə yaranıblar? Yaxud onlar yaradanlardır?"** (ət-Tur, 35)

Onların yaradan olduğunu iddia etdikləri təbiət kar, kor və lal olan, heç bir şüuru və hissiyyatı olmayan cansız materiyadır. Elə isə necə ola bilər ki, bu təbiət eşidən, görən, danışan, şüuru olan, ağrı və sıxıntı hiss edən canlı məxluqat yarada bilsin?! Bir şeydən məhrum olan varlıq onu başqasına verə bilməz.

- *Təsadüfə inananlar.* Onlar kainatın təsadüfən yarandığını deyirlər. Yəni zərrəciklərin və atomların birləşməsi nəticəsində təsadüfi olaraq bu həyat yaranmış, əzəldən heç bir tədbir görülmədən və hökm verilmədən cürbəcür məxluqlar əmələ gəlmişdir. Bu nəzəriyyənin tutarsız və əsassız olduğunu başça düşmək üçün, onun yaradılış mexanizmini təsəvvür etmək kifayətdir. Belə ki, məxluqatın olduqca dəqiq yaradılması, nizam-intizamla hərəkət etməsi, qayda-qanunlara tabe olması və müvazinətini saxlaması təsadüfi yaranma nəzəriyyəsini tamamilə inkar edir. Bu xüsusda uca Allah belə buyurur: ***"Bu,* hər şeyi kamil şəkildə edən Allahın işidir."** (ən-Nəml, 88).

O, həmçinin buyurur: **"Yeddi göyü və yerdən də bir o qədərini yaradan Allahdır. Vəhy onların arasında ona görə nazil olur ki,**

**Allahın hər şeyə qadir olduğunu və Allahın elminin hər şeyi əhatə etdiyini biləsiniz.”** (ət-Talaq, 12).

- *Kommunistlər.* Bunlar Karl Marksın davamçılarıdır. Onlar: “Allah yoxdur, həyat isə materiyadır”– deyirlər. Kommunistlər bu çürük bünövrə və batil etiqad üzərində “Sovetlər birliyini” qurdular, lakin çox keçmədən bu birlik dağılıb ayrı-ayrı dövlətlərə bölündü.
- *Müxtəlif əsrlərdə yaşamış anormal fərdlər,* məsələn, Firon. O, Rəbbini inkar edib demişdir: **“Aləmlərin Rəbbi nədir?”** (əş-Şuəra, 23). Sonra özünün rəbb olduğunu iddia edib demişdir: **“Sizin ən uca rəbbiniz mənəm!”** (ən-Naziat, 24). Sonra daha da azğınlaşaraq özünün ilah olduğunu iddia edib demişdir: **“Mən sizin üçün özümdən başqa bir ilah tanımıram.”** (əl-Qəsəs, 38). O, Musanı ﷺ hədələyib demişdir: **“Əgər məndən başqasını ilah qəbul etsən, səni məhbusların yanına ataram!”** (əş-Şuəra, 29).

Həmçinin İbrahimlə onun Rəbbi barəsində höcətləşən Nəmrudu da misal göstərmək olar: **“İbrahim: “Mənim Rəbbim həm diriltdir, həm də öldürür!”– dedikdə, *Nəmrud*: “Mən də, həm diriltdir, həm də öldürürəm!”– demişdi. İbrahim: “Allah günəşi məşriqdən gətirir. Sən də, onu məğribdən gətir!”– dedikdə, o kafir çaşıb qalmışdı. Allah zalım qövmü doğru yola yönəltməz.**” (əl-Bəqərə, 258).

Bu insanların hamısı öz əksinə danışan və öz fitrətlərini inkar edən kimsələrdir. Uca Allah onların əleyhinə şahidlik edərək buyurur: **“Buna yəqinliklə inandıqları halda, haqsızcasına və təşəxxüslə onları inkar etdilər. Gör fəsad törədənlərin aqibəti necə oldu!”** (ən-Nəml, 14). Elə buna görə də o insanlar heç nəyə nail olmamış və heç vaxt da xoş xatirələrlə yad edilməmişlər.

**İkincisi: Allahın rübubiyyətinə iman.**

Bu yalnız uca Allahın Rəbb, Yaradan, Hökmdar və Əmr verən olduğuna qətiyyətlə etiqad etməkdir. Rəbb deyildikdə, Öz nemətləri ilə aləmlərin hamısını saxlayan Seyyid, Hökmdar və İdarə edən

qəsd edilir. Bu xüsusda uca Allah buyurur: **“*Firon* dedi: “Rəbbiniz kimdir, ey Musa?” *Musa* dedi: “Rəbbimiz hər şeyə öz xilqətini verən, sonra da *ona* doğru yolu göstərəndir!”** (Ta ha, 49-50).

*Rübubiyyət tövhidi üç məsələni əhatə edir:*

**1. Yaradılış.** Allah hər şeyin Yaradanıdır – Allahdan başqa nə varsa, hamısı məxluqdur. Bu xüsusda uca Allah buyurur: “**Allah hər şeyin xaliqidir. O, hər şeyi qoruyandır.**” (əz-Zumər, 62).

O, həmçinin buyurur: **“O, hər bir şeyi xəlq etmiş və onlara münasib bir biçim vermişdir.”** (əl-Furqan, 2).

Birisinin yaradan olduğunu demək isə nisbi anlayışdır, yəni onun bir şeyi heçdən yaratması deyil, mövcud olan bir şeyi başqa bir şəklə salması, yaxud bir neçə şeyi kombinə etməsi və ya onları yerbəyer etməsi deməkdir. Bu ayədə zikr edildiyi kimi: **“Yaradanların ən yaxşısı olan Allah *ən Əzəmətli*, xeyiri və bərəkəti bol olandır!”** (əl-Muminun, 14).

**2. Hökmranlıq.** Allah Hökmdardır – Ondan savayı nə varsa, hamısı quldur. Bu xüsusda uca Allah buyurur: **“Məgər bilmirsən ki, göylərin və yerin mülkü təkcə Allaha məxsusdur?! Sizin Allahdan başqa nə bir dostunuz, nə də bir yardımçınız vardır.”** (əl-Bəqərə, 107).

O, həmçinin buyurur: **“Göylərin və yerin mülkü Allaha məxsusdur. Allah hər şeyə qadirdir.”** (Ali-İmran, 189).

O, həmçinin buyurur: **“De: “Ey mülkün sahibi olan Allahım! Sən mülkü istədiyin kəsə verir, istədiyindən də, onu geri alırsan.”** (Ali-İmran, 26). O, həmçinin buyurur: **“...Mülkündə heç bir şəriki olmayan...”** (əl-İsra, 111).

O, həmçinin buyurur: **“Bu, sizin Rəbbiniz olan Allahdır. Mülk Onundur. Sizin Ondan başqa yalvardıqlarınız xurma çəyirdəyinin pərdəsinə belə sahib deyillər.”** (Fatir, 13);

Ondan başqa kiminsə mülk sahibi olması nisbi, müvəqqəti və cüzidir. Necə ki, uca Allah buyurur: **“Ey qövmüm! Bu gün mülk**

**sizə məxsusdur. Yer üzündə qalib gələnlər də sizsiniz."** (Ğafir, 29). O, həmçinin buyurur: **"...və ya sahib olduqlarınızla..."** (ən-Nisa, 3).

Kamil və mütləq mülk sahibi isə yalnız Allahdır. Bu xüsusda O belə buyurur: **"Şübhəsiz ki, yerə və onun üstündə qalanlara təkcə biz sahibik. Onların qayıdışı Bizə olacaqdır."** (Məryəm, 40).

**3. Əmr vermək.** Allah əmr verəndir, Ondan başqaları isə tabeçiliyində olanlardır. Uca Allah buyurur: **"De: "Sözsüz ki, bütün əmrlər Allaha məxsusdur!"** (Ali-İmran, 154).

O, həmçinin buyurur: **"Şübhəsiz ki, yaratmaq da, əmr etmək də Ona məxsusdur. Aləmlərin Rəbbi Allah** ***ən əzəmətli,*** **xeyiri və bərəkəti bol olandır."** (əl-Əraf, 54).

O, həmçinin buyurur: **"...əmrin yerinə yetirilməsini gözləyirlər?!** ***Bütün*** **işlər Allaha qaytarılacaq."** (əl-Bəqərə, 210).

Allah Öz Peyğəmbərinə ﷺ belə buyurmuşdur: **"Bu işin sənə aidiyyəti yoxdur."** (Ali-İmran, 128). Digərləri barədə isə belə buyurur: **"Əvvəl də, sonra da əmr vermək Allaha məxsusdur."** (ər-Rum, 4).

Demək, məxluqata əmri verən yalnız Allahdır. Digərlərinin əmr etməsi isə nisbi əmretmədir, – bu ayədə xəbər verildiyi kimi: **"*Əyanlar isə* Fironun əmrinə tabe oldular. Halbuki Fironun əmri doğru *yol göstərən əmr* deyildi."** (Hud, 97). Bu əmr Allahın istəyinə bağlıdır – istəsə, buna izin verər, istəsə də, onun qarşısını alar.

Pak və müqəddəs Allahın əmri həm kainatda baş verənlərə, həm də şəriət qanunlarına aiddir. Kainatda baş verənlərə dair əmrləri mütləq olaraq yerinə yetir və bu, Onun istəyi ilə baş verir. Bu xüsusda uca Allah buyurur: **"O, bir şeyi *yaratmaq* istədikdə ona təkcə: "Ol!" deyər, o da olar."** (Ya sin, 82).

Şəriət qanunlarına aid əmrləri isə ixtiyaridir və onun sevməyinə bağlıdır – bəzən yerinə yetir, bəzən isə yox. Bunların hamısı da ümumi istəyindən asılıdır. Bu xüsusda uca Allah belə buyurur: **"Sizlərdən doğru *yolda* olmaq istəyənlər üçün. Aləmlərin Rəbbi Allah istəməyincə, siz istəyə bilməzsiniz!"** (ət-Təkvir, 28-29).

Allahın rübubiyyətinə aid olan digər vəsfləri də bu üç xislətə söykənir: yaradılış, hökmranlıq və əmr vermək. Məsələn, ruzi vermək, diriltmək, öldürmək, yağmur endirmək, yerdən bitkilər bitirmək, küləkləri yönəltmək, göy cisimlərini hərəkət etdirmək, gecə ilə gündüzü bir-biri ilə əvəz etmək, canlıların hamilə qalması, sonra bari-həmlini yerə qoyması, insana sağlamlıq və ya xəstəlik üz verməsi, insanı ucaltması və ya alçaltması və başqa bu kimi işlər.

Pak və müqəddəs Allahın rübubiyyətinə iman gətirmək əzəldən insan fitrətinə yerləşdirilmiş xislətdir. Sağlam ağıl bunu dərk edir, kainatda bu hiss edilir və dəlillərdə (Quranda və hədislərdə) bu zikr olunur. Allahın Kitabında olan dəlillərdən bəziləri bunlardır:

Uca Allah buyurur: **"Həqiqətən də, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birilə əvəz olunmasında, insanlara fayda verən şeylərlə *yüklənmiş halda* dənizdə üzən gəmilərdə, Allahın göydən endirdiyi, onunla da ölmüş torpağı diriltdiyi suda, *Onun* növbənöv heyvanları *yer üzünə* yaymasında, küləklərin dəyişdirilməsində və göylə yer arasında ram edilmiş buludlarda, başa düşən insanlar üçün dəlillər vardır."** (əl-Bəqərə, 164).

Uca Allah buyurur: **"Sən gecəni gündüzə qatır, gündüzü də gecəyə qatırsan. Ölüdən diri çıxarır, diridən də ölü çıxarırsan. Sən istədiyin kəsə hesabsız ruzi verirsən."** (Ali-İmran, 27).

Uca Allah buyurur: **"Şübhəsiz ki, toxumu da, çəyirdəyi də *cücərdib* çatladan Allahdır. O, ölüdən diri çıxarır, diridən isə ölü çıxarır. Budur Allah! Siz necə də *haqdan* döndərilirsiniz! Səhəri açan da Odur. O, gecəni dinclik, günəşi və ayı isə *vaxt üçün* hesablama *ölçüsü* etmişdir. Bu, Qüdrətli və Bilən Allahın müəyyən etdiyi hökmdür. Qurunun və dənizin qaranlıqlarında yolu tapa biləsiniz deyə sizin üçün ulduzları yaradan da Odur. Artıq Biz ayələri bilən bir qövmə izah etdik. Sizi tək bir candan (Adəmdən) yaradan da Odur. *Sizin üçün* qərar tutacağınız (ana bətni) və əmanət saxlanılan yer (qəbir) vardır. Artıq Biz ayələri anlayan bir qövmə izah etdik. Göydən su endirən də Odur. Biz onunla hər bir bitkini yetişdirdik, ondan yaşıl otlar bitirdik, onlardan da üst-üstə**

**düzülmüş dənələr çıxartdıq. Biz xurma ağacından, onun tumurcuğundan sallanmış salxımlar yetişir.** ***Biz həmçinin*** **üzüm bağları, bir-birinə bənzəyən və bənzəməyən zeytun və nar** ***ağacları da yetişdirdik.*** **Bar verdiyi və yetişdiyi zaman onların meyvəsinə baxın. Şübhəsiz ki, bunlarda iman gətirən qövm üçün dəlillər vardır.”** (əl-Ənam, 95-99).

Uca Allah buyurur: **“Gördüyünüz göyləri dirəksiz yüksəldən, sonra da Ərşin üzərində ucalan, müəyyən vaxta qədər** ***göydə*** **hərəkət edən günəşi və ayı** ***əmrinə*** **tabe edən Allahdır. O, işləri yoluna qoyur və ayələrini** ***belə*** **izah edir ki, bəlkə Rəbbinizlə qarşılaşacağınıza yəqinliklə inanasınız. Yeri döşəyən, orada möhkəm dağlar, çaylar yaradan və bütün meyvələrdən cüt-cüt yetişdirən də Odur. O, gündüzü gecə ilə örtüb bürüyür. Həqiqətən də, bunda dərin düşünən adamlar üçün dəlillər vardır. Yer üzündə bir-birinə yaxın** ***müxtəlif münbitli*** **torpaq sahələri, üzüm bağları, əkinlər, şaxəli-şaxəsiz xurma ağacları vardır. Onlar eyni su ilə suvarılır.** ***Lakin*** **Biz yeyilməsinə görə onların birini digərindən üstün edirik. Doğrudan da, bunda başa düşən adamlar üçün dəlillər var.”** (ər-Rad, 2-4).

Uca Allah buyurur: **“*Allah* göyləri və yeri gerçək yaratmışdır. O, müşriklərin qoşduqları şəriklərdən ucadır.** ***Allah*** **insanı nütfədən yaratdı. O isə açıq-aşkar mübahisəçiyə çevrildi. Mal-qaranı da O yaratdı. Onlarda sizin üçün** ***bədəninizi*** **isti saxlayan** ***yun geyim*** **və** ***başqa*** **faydalar vardır. Həmçinin onlardan yeyirsiniz.** ***Mal-qaranı*** **axşam tövləyə qaytardıqda, səhər** ***otarmaq üçün*** **çölə buraxdıqda onlara baxıb fərəhlənirsiniz. Onlar sizin yüklərinizi, özünüzün çətinliklə apara biləcəyiniz bir ölkəyə daşıyırlar. Həqiqətən də, Rəbbiniz şəfqətlidir, rəhmlidir. Atı, qatırı və uzunqulağı sizə həm minik, həm də zinət olsun deyə,** ***Allah yaratdı.*** **O, sizin hələ bilmədiyiniz bir çox şeyləri də yaradacaq. Doğru yol göstərmək Allaha aiddir. Əyri yollar da vardır. Əgər** ***Allah*** **istəsəydi, sizin hamınızı doğru yola yönəldərdi. Göydən yağmur endirən Odur. Bu, həm sizin içməyiniz, həm də içində** ***mal-qaranızı*** **otardığınız** ***otların bitməsi*** **üçündür.** ***Allah*** **onunla sizin üçün dənli bitkilər, zeytun, xurma, üzüm və** ***başqa*** **meyvələrin hamısından yetişdirir.**

**Həqiqətən, bunda düşünən adamlar üçün dəlillər vardır. O, gecəni və gündüzü, günəşi və ayı sizə ram etmişdir. Ulduzlar da Onun əmri ilə ram edilmişdir. Sözsüz ki, bunda anlayan adamlar üçün dəlillər vardır. Yer üzündə sizin üçün yaratdığı müxtəlif rəngli şeyləri də** *sizə ram etdi*. **Şübhəsiz ki, bunda düşünüb ibrət alan adamlar üçün dəlillər vardır. Təzə** *balıq* **əti yeməyiniz və taxdığınız bəzək şeylərini (mirvari və s.) çıxartmağınız üçün dənizi sizə ram edən Odur. Sən gəmilərin dənizi yara-yara üzüb getdiyini görürsən.** *Bütün bunlar Allahın* **lütfündən** *sizə nəsib olanları* **axtarıb tapmağınız və şükür etməyiniz üçündür.** *Allah,* **yer sizi yırğalamasın deyə, onun üstündə möhkəm dağlar, habelə, düzgün istiqamət götürəsiniz deyə, çaylar və yollar yaratdı.** *Yollarda* **əlamətlər də** *yaratdı*. *İnsanlar getdikləri* **istiqaməti ulduzlar vasitəsilə də müəyyənləşdirərlər. Heç yaradan** *Allah,* **yarada bilməyən** *məxluqata* **bənzəyərmi?! Məgər düşünmürsünüz? Əgər Allahın nemətlərini sayacaq olsanız, onları sayıb qurtara bilməzsiniz. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir.”** (ən-Nəhl, 3-18).

Uca Allah buyurur: **“O kəslər ki, Firdovs cənnətinə varis olacaqlar; onlar orada əbədi qalacaqlar. Həqiqətən, Biz insanı palçıq cövhərindən yaratdıq. Sonra nütfə halında möhkəm yerdə yerləşdirdik. Sonra nütfədən laxtalanmış qan yaratdıq; sonra o qandan bir parça ət yaratdıq; sonra o bir parça ətdən sümüklər yaratdıq; sonra da sümükləri ət ilə örtdük; sonra da onu başqa bir məxluq olaraq xəlq etdik. Yaradanların ən yaxşısı olan Allah** *ən Əzəmətli*, **xeyiri və bərəkəti bol olandır! Şübhəsiz ki, bundan sonra siz mütləq öləcəksiniz. Sonra da Qiyamət günü dirildiləcəksiniz. Biz sizin üstünüzdə yeddi göyü yaratdıq. Məxluqatımızdan da xəbərsiz olmamışıq. Biz göydən lazımi qədər su endirib onu yerdə saxladıq. Şübhəsiz ki, Biz onu yox edə də bilərik. Sonra həmin su ilə xurma ağaclarını və üzüm bağlarını sizin üçün yetişdirdik. Sizin üçün orada yediyiniz çoxlu meyvələr vardır. Biz Sina dağında bir ağac bitirdik ki,** *barından* **yeyənlərə həm yağ, həm də şirə verir. Həqiqətən, ev heyvanlarında da sizin üçün ibrət var. Biz onların bətnində olandan sizlərə içirdirik. Sizin üçün onlarda** *başqa* **faydalar da var.**

**Üstəlik onlardan yeyirsiniz də. Siz həm o heyvanlarla, həm də gəmilər ilə daşınırsınız."** (əl-Muminun, 11-22).

Uca Allah buyurur: **"Məgər görmürsənmi ki, Allah buludları qovur, sonra onları bir-birinə qovuşdurur, sonra da onları bulud topasına çevirir. Sən onun arasından yağmur çıxdığını görürsən.** ***Allah*** **göydən, oradakı dağlar kimi buludlardan dolu yağdırır. Sonra da onunla istədiyini vurur, istədiyindən də onu uzaq edir. Buludların şimşəyinin parıltısı az qalır ki, gözləri kor etsin. Allah gecə və gündüzü bir-biri ilə əvəz edir. Həqiqətən, bunda bəsirət sahibləri üçün bir ibrət var. Allah hər bir canlını sudan yaratmışdır. Onlardan bəzisi qarnı üstə sürünür, bəzisi iki ayaq üstündə gəzir, bəzisi də dörd ayaq üstündə gəzir. Allah istədiyini yaradır. Şübhəsiz ki, Allah hər şeyə qadirdir."** (ən-Nur, 43-45).

Uca Allah buyurur: **"Məgər Rəbbinin kölgəni necə uzatdığını görmürsənmi? Əgər O istəsəydi, onu hərəkətsiz halda saxlayardı. Sonra Biz günəşi onun bələdçisi etdik. Sonra o kölgəni yavaş-yavaş Özümüzə tərəf çəkib qısaltdıq. Sizin üçün gecəni örtük, yuxunu rahatlıq, gündüzü də canlanma vaxtı edən Odur. Küləkləri Öz mərhəməti önündə** *yağışdan qabaq* **müjdəçi olaraq göndərən Odur. Biz göydən tərtəmiz su endirdik ki, onunla ölü bir diyarı canlandıraq, yaratdığımız neçə-neçə heyvana və neçə-neçə insana ondan içirdək. Biz düşünüb ibrət alsınlar deyə** *o suyu* **onların arasında paylaşdırdıq. Lakin insanların çoxu küfrdən başqa bir şey qəbul etmədi. Əgər istəsəydik, hər kəndə qorxudan** *bir peyğəmbər* **göndərərdik.** *Belə olduqda* **sən kafirlərə baş əymə və onlara qarşı bu** *Quranla* **böyük bir cihad et! Birinin suyu dadlı və şirin, digərininki isə duzlu və acı olan iki dənizi qovuşduraraq aralarında maneə və keçilməz sədd qoyan Odur. Sudan insan yaradan, ona qan qohumları və sonradan qohum olanları bəxş edən Odur. Rəbbin** *hər şeyə* **Qadirdir."** (əl-Furqan, 45-54).

Uca Allah buyurur: **"Odur ki, siz axşama yetişəndə və səhərə çıxanda Allahın şəninə çoxlu tərif söyləyin. Göylərdə və yerdə həmd Ona məxsusdur. Axşam çağında da, günortaya yetişəndə də** ***Onun şəninə təriflər deyin!*** **O, ölüdən diri, diridən də ölü çıxardır;**

**yeri ölümündən sonra dirildir. Siz də** *qəbirlərinizdən* **belə** *dirildilib* **çıxardılacaqsınız.** *Allahın* **sizi torpaqdan xəlq etməsi, Onun dəlillərindəndir. Sonra da siz bir insan kimi** *yer üzünə* **yayıldınız. Ünsiyyətdə rahatlıq tapasınız deyə, sizin üçün özünüzdən zövcələr yaratması, aranıza məhəbbət və mərhəmət salması da Onun dəlillərindəndir. Həqiqətən, bunda düşünənlər üçün ibrətamiz dəlillər vardır. Göylərin və yerin yaradılışı, dillərinizin və rənglərinizin müxtəlifliyi də Onun dəlillərindəndir. Həqiqətən, bunda bilənlər üçün ibrətamiz dəlillər vardır! Gecə və gündüz yatıb dincəlməyiniz, Onun lütfünü axtarmağınız da Onun dəlillərindəndir. Həqiqətən, bunda eşidən kəslər üçün ibrətamiz dəlillər vardır. Həm qorxu, həm də ümid vermək üçün ildırımı sizə göstərməsi, göydən su endirib yeri ölümündən sonra onunla diriltməsi də Onun dəlillərindəndir. Həqiqətən, bunda başa düşən adamlar üçün ibrətamiz dəlillər vardır. Göyün və yerin Onun əmri ilə öz yerlərində** *sabit* **qalması da Onun dəlillərindəndir. Sonra da sizi bir dəfə çağıran kimi dərhal qəbirlərinizdən qalxıb çıxacaqsınız. Göylərdə və yerdə kim varsa, Ona məxsusdur. Hamısı Ona təzim edir. Məxluqatı ilk dəfə** *yoxdan* **yaradan, sonra onu bir daha təkrarlayan Odur. Bu da Onun üçün çox asandır. Göylərdə və yerdə olan ən uca sifətlər Ona məxsusdur. O, Qüdrətlidir, Hikmət sahibidir.”** (ər-Rum, 17-27).

Uca Allah buyurur: **“Mərhəmətli** *Allah* **Quranı öyrətdi. İnsanı yaratdı, ona danışmağı öyrətdi. Günəş və ay müəyyən bir ölçü ilə** *hərəkət edir*. **Otlar** (və ya ulduzlar) **da, ağaclar da** *Allaha* **səcdə edir.** *Allah* **göyü ucaltdı və tərəzini qoydu ki, çəkidə həddi aşmayasınız.** *Əşyaları* **tərəzidə insafla çəkin və çəkini əskiltməyin. O, yeri məxluqat üçün döşədi. Orada meyvələr və salxımlı xurma ağacları var. Həmçinin, saçaqlı dənli bitkilər və xoş ətirli çiçəklər də var. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız? O, insanı saxsı kimi quru gildən yaratdı. İblisi** *və onun nəsilini* **də xalis oddan yaratdı. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?** *Allah* **iki məşriqin və iki məğribin Rəbbidir. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız? O, qarşı-qarşıya gələn iki dənizi bir-birinə qovuşdurdu. Onların arasında maneə var, onu keçə**

**bilməzlər. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız? Onlardan mirvari və mərcan çıxır. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız? Dənizdə dağlar kimi, yelkənləri qaldırılmış halda üzən gəmilər də Onundur. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?”** (ər-Rəhman, 1-25).

Uca Allah buyurur: **“Məgər Biz yeri yataq etmədikmi? Dağları da payalar? Biz sizi cüt yaratdıq. Yuxunuzu da** *sizin üçün* **rahatlıq etdik. Gecəni örtük etdik, gündüzü isə ruzi qazanmaq vaxtı. Üstünüzdə yeddi möhkəm** *göy* **qurduq və çox parlaq bir çıraq yaratdıq. Biz buludlardan şırıl-şırıl tökülən yağmur endirdik ki, onunla toxum və** *digər* **bitkilər yetişdirək, habelə** *ağaclarının qol-budaqları bir-birinə* **sarmaşan bağlar** *salaq***.”** (ən-Nəbə, 6-16).

Uca Allah buyurur: **“Sizin yaradılışınız çətindir, yoxsa göyün?** *Allah* **onu qurdu, onun qübbəsini yüksəltdi və düzəldib kamilləşdirdi, gecəsini qaranlıq edib, səhərini də** *nurlandırdı***. Sonra yeri döşəyib, onda su və otlaq yaratdı, dağları da yerə bərkitdi.** *Bunlar* **sizin və mal-qaranızın faydalanmasından ötrüdür.”** (ən-Naziat, 27-33).

Uca Allah buyurur: **“Qoy insan yediyinə diqqət yetirsin! Həqiqətən, yağışı bol-bol Biz yağdırırıq. Sonra da yeri çat-çat yarıb orada taxıl yetişdiririk.** *Habelə* **üzüm və yonca, zeytun və xurma** *ağacları***, sıx-sıx bağlar, meyvələr və otlar da** *bitiririk***.** *Bu nemətlər* **sizin** *istifadəniz* **və mal-qaranızın faydalanması üçündür.”** (Əbəsə, 24-32).

Ümumən Adəm övladının çoxu uca Allahın rübubiyyətini – Onun Yaradan, Hökmran və Əmr verən olduğunu təsdiqləyir. Hətta ərəblərin müşrikləri bunu etiraf edirdilər. Uca Allah Öz Kitabında onların rübubiyyət tövhidini təsdiqləməsini neçə-neçə ayədə xəbər verir. O, məsələn, buyurur: **“De: “Əgər bilirsinizsə,** *deyin görüm* **yer və onun üstündə olanlar kimindir?” Onlar: “Allahındır!”– deyəcəklər. De: “Bəs düşünüb ibrət almırsınız?” De: “Yeddi göyün Rəbbi və əzəmətli Ərşin Rəbbi kimdir?” Onlar: “Allahdır!”– deyəcəklər. De: “Bəs qorxmursunuz?” De: “Əgər bilirsinizsə,** *deyin görüm* **hər şeyin hökmü əlində olan, himayə edən, Özünün isə himayəyə**

**ehtiyacı olmayan kimdir?" Onlar: "Allahdır!"– deyəcəklər. De: "Bəs necə olur ki, aldanırsınız?"** (əl-Muminun, 84-89).

O, həmçinin buyurur: **"Əgər sən onlardan: "Göyləri və yeri kim yaratmışdır?"– deyə soruşsan, mütləq: "Onları Qüdrətli və Bilən *Allah* yaratmışdır!"– deyəcəklər."** (əz-Zuxruf, 9).

Allahın rübubiyyət tövhidində bir qism insan – müxtəlif firqələr Allaha şərik qoşmuşlar. Məsələn:

- *Atəşpərəstlərdən olan dualistlər və monistlər.* Onlar deyirlər ki, kainatın iki yaradanı var – xeyir yaradan nur ilahı və şər yaradan zülmət ilahı. Onlar nurun zülmətdən daha xeyirli olmasında həmrəydirlər. Zülmətin isə əzəldən, yoxsa sonradan yaranmasında ixtilaf etmişlər.
- *Nəsranilər (xristianlar).* Onlar üç ilah olduğunu deyir və iddia edirlər ki, bir ilah üç ünsürdən ibarətdir – ata, oğul və müqəddəs ruh. Lakin onlar aləmin bir-birindən ayrı üç rəbbi olduğunu qəbul etmirlər, əksinə, aləmin bir Yaradanı olması fikrində həmrəydirlər.
- *Bəzi ərəb müşrikləri.* Onlar öz ilahlarının fayda verməyə, zərər yetirməyə və işləri idarə etməyə qadir olduqlarına etiqad edir, habelə fal oxlarından istifadə edirdilər.
- *Qədərilər.* Onlar deyirlər ki, hər bir qul, Allahın istəyindən asılı olmayaraq, öz taleyini özü yaradır.

Bu zəlalətlərin hamısını dəf edən dəlillər isə fitrət, ağıl, gözlə görünən dəlillər, həmçinin yaratmaq, hökmran olmaq və əmr vermək xüsusunda Allahın tək İlah olduğuna dəlalət edən şəri dəlillərdir. Uca Allah buyurur: **"Allah Özünə heç bir övlad götürməmişdir. Onunla yanaşı *ibadətə layiq olan* heç bir ilah yoxdur. Əks təqdirdə hər bir ilah öz yaratdıqlarını özü idarə etmək istəyər və onların bir qismi digərinə üstün gəlməyə can atardı. Allah onların *Ona* aid etdikləri sifətlərdən uzaqdır."** (əl-Muminun, 91).

Haqq İlahın yaradan olması və istədiyini etməyə qüdrəti çatması labüddür. Əgər Onun şəriki olsaydı, o da yaradar və istədiyini edərdi.

Belə olduğu təqdirdə isə ehtimal olunan iki haldan biri baş verər:

*Birinci hal:* ya bu ilahlardan hər biri öz yaratdıqlarını özü idarə edər və onlara özü hökmranlıq edər. Kainatın nizam-intizamla idarə olunması bu ehtimalı rədd edir.

*İkinci hal:* ya da onların arasında qarşıdurma və mübarizə başlayar. Tutaq ki, onlardan biri əşyanın hərəkət etməsini, digəri isə onun hərəkətsiz qalmasını istəyir, yaxud birisi bir şeyi diriltmək, o birisi isə onu öldürmək istəyir. Belə olduğu təqdirdə, ya onların hər ikisinin istədiyi həyata keçməli, ya ikisindən birinin istədiyi olmalı, ya da heç birinin istədiyi olmamalıdır. Birinci və ikinci halın eyni anda baş verməsi mümkün deyil. Çünki onlar bir-birinə qarşıdırlar – nə birləşə bilərlər, nə də yüksələrlər. Yalnız ikinci hal ola bilər, yəni hansı birinin istədiyi həyata keçirsə, o da hər şeyə qadir olan ilahdır. O birisi isə ilah olmağa layiq deyildir. Bununla da Rəbbin, Xaliqin, Hökmdarın və İdarə edənin tək İlah olduğu isbat edilir. Bu, bir-birinə qarşı olanların heç bir müsbət nəticə əldə edə bilməməsinə əsaslanır.

**Üçüncüsü: Allahın uluhiyyətinə iman.**

Bu, yalnız Allahın haqq İlah olduğuna və başqasının deyil, məhz Onun ibadətə layiq olmasına qətiyyətlə etiqad etməkdir.

Ərəbcə *ilah* sözü *məluh* mənasını verir, yəni qəlblərin məhəbbət bəslədiyi və uca tutduğu məbud.

Həqiqi ibadət kamil itaət, boyun əymək və uca tutmaqla yanaşı, kamil sevgi ilə də sübuta yetirilir ki, bu da yalnız tək olan İlaha yönəldilə bilər. Bu imana ən əzəmətli şahid ən əzəmətli şəhadətlə şahidlik etmişdir. Uca Allah buyurur: **“Allah ədalətli olaraq şahidlik etmişdir ki, Özündən başqa *ibadətə layiq olan* ilah yoxdur. Mələklər və elm sahibləri də, *buna şahidlik etmişlər*. Ondan başqa *ibadətə layiq olan* ilah yoxdur, Qüdrətlidir, Hikmət sahibidir.”** (Ali-İmran, 18).

O, həmçinin buyurur: **“Sizin ilahınız Tək olan İlahdır. Ondan başqa *ibadətə layiq olan* ilah yoxdur, Mərhəmətlidir, Rəhmlidir.”** (əl-Bəqərə, 163).

Uca Allah Öz məxluqatının hamısını – insanları da, cinləri də yalnız Ona ibadət etmək üçün yaratmışdır. Halbuki Onun bunlara ehtiyacı yoxdur. Uca Allah buyurur: **"Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım. Mən onlardan ruzi istəmirəm. Mən onlardan Məni yedirtmələrini də istəmirəm."** (əz-Zariyat, 56-57).

O Öz elçilərinin hamısını insanların yanına göndərmişdir ki, bu imanı onlara təbliğ etsinlər, onları Tək Allaha ibadət etməyə və Ona şərik qoşmaqdan uzaq durmağa dəvət etsinlər. Uca Allah buyurur: **"Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan uzaq olun"–** ***deyə*****, peyğəmbər göndərmişik."** (ən-Nəhl, 36).

Peyğəmbərlər öz qövmlərinə ilk əvvəl belə xitab edərdilər: **"Ey qövmüm! Allaha ibadət edin. Sizin Ondan başqa** ***ibadətə layiq*** **ilahınız yoxdur."** (əl-Əraf, 59, 65, 73 və 85).

Uca Allah həmçinin buyurur: **"Səndən əvvəl elə bir elçi göndərməmişik ki, ona: "Məndən başqa** ***ibadətə layiq*** **ilah yoxdur, Mənə ibadət edin!"– deyə vəhy etməyək."** (əl-Ənbiya, 25).

İmanın bu qismini təsdiqləmək üçün ibadətin bütün növlərini Tək Allaha yönəltmək vacibdir. Kim bu ibadətlərdən hər hansı birini Allahdan qeyrisinə yönəldərsə, müşrik, kafir sayılar.

*İbadətin növləri bunlardır:*

**1. Qəlbə aid olan ibadətlər.**

*Sevgi.* Uca Allah buyurur: **"İnsanlardan elələri də var ki, Allahdan qeyrilərini** ***Ona*** **tay tutur, onları da, Allahı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allaha olan sevgisi daha güclüdür."** (əl-Bəqərə, 165).

*Qorxu.* Uca Allah buyurur: **"Əgər möminsinizsə, onlardan qorxmayın, Məndən qorxun!"** (Ali-İmran, 175)

*Ümid.* Uca Allah buyurur: **"Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, yaxşı işlər görsün və yerinə yetirdiyi ibadətlərində Rəbbinə heç kəsi şərik qoşmasın!"** (əl-Kəhf, 110).

Bu üç xislət – sevgi, qorxu və ümid qəlbə aid ibadətlərin əsasıdır. Uca Allah buyurur: **"Onların yalvardıqları məbudların özləri də**

**Rəbbinə – hansı daha yaxın olacaq deyə vəsilə axtarırlar, Onun rəhmətini umurlar, əzabından qorxurlar. Həqiqətən, Rəbbinin əzabından qorunmaq gərəkdir.”** (əl-İsra, 57).

Bu üç növ ibadətin bəzisini edib, digərini tərk etmək olmaz. Odur ki, kim Allaha həm sevgi, həm qorxu, həm də ümidlə ibadət edərsə, o, şirkdən uzaqlaşıb tək Allaha ibadət edən abid sayılar.

Qəlbin islah edilməsi, bədənin islah olunması üçün əsas sayılır. Hədisdə deyildiyi kimi: **“Diqqət edin! Bədəndə bir ət parçası var. Əgər o islah edilərsə, bütün bədən islah olar, yox, əgər korlanarsa, bütün bədən korlanar. Bilin ki, bu ət parçası qəlbdir.”**[1]

**2. Dilə aid olan ibadətlər.**

*Dua.* Uca Allah buyurur: **“Şübhəsiz ki, məscidlər Allaha məxsusdur. Elə isə Allahla yanaşı heç kəsə dua etməyin!”** (əl-Cinn, 18).

*Sığınmaq.* Uca Allah buyurur: **“De: “Sığınıram sübhün Rəbbinə!”** (əl-Fələq, 1); yaxud belə buyurur: **“De: “Sığınıram insanların Rəbbinə.”** (ən-Nas, 1).

*Kömək diləmək.* Uca Allah buyurur: **“O vaxt siz Rəbbinizdən kömək diləyirdiniz. O da sizin duanızı qəbul etmişdi.”** (əl-Ənfal, 9).

*Zikrin hər növünü etmək.* Uca Allah buyurur: **“Ey iman gətirənlər! Allahı çox zikr edin!”** (əl-Əhzab, 41).

*Quran oxumaq.* Uca Allah buyurur: **“Kitabdan sənə vəhy olunanları oxu...”** (əl-Ənkəbut, 45).

*Gözəl söz danışmaq.* Uca Allah buyurur: **“Gözəl söz Ona tərəf yüksəlir.”** (Fatir, 10) və başqa bu kimi ibadətlər.

**3. Bədənə aid olan ibadətlər.**

Məsələn, *namaz qılmaq və qurban kəsmək.* Uca Allah buyurur: **“De: “Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi olan Allah üçündür!”** (əl-Ənam, 162).

[1] Səhih əl-Buxari, 52; Səhih Muslim, 1599.

O, həmçinin buyurur: **“Sən Rəbbin üçün namaz qıl və qurban kəs!”** (əl-Kovsər, 2).

*Təvaf etmək.* Uca Allah buyurur: **“... qədim Evi** (Kəbəni) **təvaf etsinlər.”** (əl-Həcc, 29).

*Əziyyət verən şeyi yoldan kənar etmək.* Bu xüsusda Rəsulullah ﷺ demişdir: **“... ən aşağı dərəcəsi isə əziyyət verən şeyi yoldan kənarlaşdırmaqdır.”**[1] və başqa bu kimi ibadətlər.

**4. Mal-dövlətə aid olan ibadətlər.**

Məsələn, ibadət məqsədilə *zəkat* və ya *sədəqə vermək*, habelə, mal-dövlətin (üçdə birinin və ya bundan azının kiməsə verilməsini) *vəsiyyət etmək*, yaxud malı *vəqf etmək* və ya onu *hədiyyə etmək*. Uca Allah buyurur: **“Zəkatlar Allah tərəfindən bir fərz olaraq yalnız yoxsullara, kasıblara, onu yığıb paylayanlara, qəlbləri *İslam dininə* isinişdiriləcək kimsələrə, kölələrin azad olunmasına, borclulara, Allah yolunda cihad edənlərə və müsafirlərə məxsusdur. Allah *hər şeyi* biləndir, hikmət sahibidir.”** (ət-Tövbə, 60).

O, həmçinin buyurur: **“Bədəvilər içərisində elələri də vardır ki, Allaha və Axirət gününə inanır, xərclədiyini Allaha yaxınlıq və Peyğəmbərin dualarına nail olmaq üçün vəsilə sayırlar. Bilin ki, bu, onlar üçün *Allaha* yaxınlaşmağa bir vasitədir. Allah onları Öz mərhəmətinə qovuşduracaqdır. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir.”** (ət-Tövbə, 99).

*İnsanlara yemək vermək.* Uca Allah buyurur: **“Özlərinin yeməyə olan istəyinə rəğmən ondan kasıba, yetimə, əsirə yedirdirər *və deyərlər*: “Biz sizi yalnız Allahın Üzü xatirinə (ixlasla, savabını Allahdan umaraq) yedirdirik və sizdən nə əvəzini, nə də minnətdarlıq gözləyirik!”** (əl-İnsan, 8-9).

Allahın rübubiyyətinə və onun özündə cəm etdiklərinə iman gətirmək, Allahın uluhiyyətinə iman gətirməyi tələb edir. Yəni kim

[1] Səhih Muslim, 35. Bu hədisin əvvəli belədir: **“İman yetmiş və bir neçə şöbədən ibarətdir. Bunların ən üstünü *“lə iləhə illəllah”* sözü, ...”.**

Allahın Yaradan, Hökmdar və işləri yönəldən ilah olduğunu təsdiq edibsə, Onun uluhiyyətini də təsdiq etməli və ibadəti yalnız Ona yönəltməlidir. Uca Allah Öz Kitabında neçə-neçə ayədə müşriklərin rübubiyyəti təsdiqlədiklərini onların öz əleyhinə istifadə etmişdir. Məsələn, O, buyurur: **“Ey insanlar! Sizi və sizdən əvvəlkiləri yaratmış Rəbbinizə ibadət edin ki, bəlkə** *Ondan* **qorxasınız. O** *Rəbbinizə ki,* **sizin üçün yer üzünü döşəmə, göyü isə tavan etdi. Göydən su endirib onunla sizin üçün** *növbənöv* **məhsullardan ruzi yetişdirdi. Siz də** *bunu* **bildiyiniz halda** *heç kəsi* **Allaha tay tutmayın.”** (əl-Bəqərə, 21-22).

O, həmçinin buyurur: **“De: “Sizə göydən və yerdən ruzi verən kimdir? Qulaqlara və gözlərə hakim olan kimdir? Ölüdən diri çıxaran, diridən də ölü çıxaran kimdir? İşləri yoluna qoyan kimdir?” Onlar deyəcəklər: “Allah!” De: “Bəs** *belə olduğu halda Allahdan* **qorxmursunuz?” O sizin Haqq Rəbbiniz olan Allahdır. Haqdan sonra zəlalətdən başqa nə ola bilər? Siz necə də** *haqdan* **döndərilirsiniz!”** (Yunus, 31-32).

O, həmçinin buyurur: **“De: “Həmd olsun Allaha, salam olsun Onun seçdiyi qullarına! Allah yaxşıdır, yoxsa Ona şərik qoşduqlarınız?** *Bütlər yaxşıdır,* **yoxsa göyləri və yeri yaradan, sizin üçün göydən yağmur endirən** *Allah?!* **Biz o yağmurla gözəl bağçalar saldıq. Halbuki siz onların ağaclarını da böyüdə bilməzdiniz. Heç Allahla yanaşı başqa bir məbudmu var? Xeyr, onlar** *haqdan* **yayınan qövmdürlər.** *Bütlər yaxşıdır,* **yoxsa yeri məskən edən, arasından çaylar axıdan, üzərində möhkəm duran dağlar yaradan və iki dənizin arasında maneə qoyan** *Allah?!* **Heç Allahla yanaşı başqa bir məbudmu var? Xeyr, onların əksəriyyəti** *bunu* **bilmirlər.** *Bütlər yaxşıdır,* **yoxsa darda qalan kimsə yalvardığı zaman ona cavab verən, şəri sovuşduran və sizi yer üzünün varisləri edən** *Allah?!* **Heç Allahla yanaşı başqa bir məbudmu var? Siz necə də az düşünürsünüz?** *Bütlər yaxşıdır,* **yoxsa qurunun və dənizin qaranlıqlarında sizə doğru yol göstərən, küləkləri Öz mərhəməti önündə** *yağışdan qabaq* **müjdəçi kimi göndərən** *Allah?!* **Heç Allahla yanaşı başqa bir məbudmu var? Allah onların qoşduqları şəriklərdən ucadır.** *Bütlər yaxşıdır,* **yoxsa məxluqatı əvvəldən yaradan, sonra**

**onu yenidən diriləndən, sizə göydən və yerdən ruzi verən** *Allah?!* **Heç Allahla yanaşı başqa bir məbudmu var?" De: "Əgər doğru deyirsinizsə, dəlilinizi gətirin."** (ən-Nəml, 59-64).

Uca Allah bu ayələri onların əleyhinə ona görə dəlil gətirmişdir ki, əgər onlar rübubiyyət tövhidini təsdiqləyirlərsə, uluhiyyə tövhidini də təsdiqləməlidirlər.

O, həmçinin, müşriklərin ilahlarının rübubiyyət tövhidindən heç bir vəsfə malik olmadıqlarına görə də onların batil ilah olduğunu bildirmişdir. Bu xüsusda Uca Allah buyurur: **"Onlar heç bir şey yaratmayan, özləri xəlq edilmiş olan şeylərimi** *Allaha* **şərik qoşurlar?** *Allahdan qeyri ibadət etdikləri* **nə onlara yardım edə bilər, nə də özlərinə kömək edə bilərlər. Onları doğru yola çağırsanız, sizin ardınızca gəlməzlər. Onları çağırsanız da, sussanız da sizin üçün fərqi yoxdur. Allahdan savayı çağırdıqlarınız da sizin kimi qullardır. Əgər doğru deyirsinizsə, çağırın onları, sizə cavab versinlər. Məgər onların ayaqlarımı var, onunla yerisinlər? Yoxsa onların əllərimi var, onunla tutsunlar? Yoxsa onların gözlərimi var, onunla görsünlər? Yoxsa onların qulaqlarımı var, onunla eşitsinlər? De: "Çağırın şəriklərinizi! Sonra mənə qarşı hiylə qurun və mənə heç möhlət də verməyin! Həqiqətən, mənim himayədarım Kitabı nazil edən Allahdır. O, əməlisalehlərə himayəçilik edir. Ondan savayı çağırdıqlarınız nə sizə yardım edə bilər, nə də özlərinə köməkçi ola bilərlər." Siz onları doğru yola çağırsanız, eşitməzlər. Onları sənə baxan görürsən, halbuki onlar görmürlər."** (əl-Əraf, 191-198).

O, həmçinin buyurur: "*Kafirlər* **isə Onun əvəzinə heç nəyə fayda verməyən, həm də özləri yaradılan, özlərinə nə bir zərər, nə də bir xeyir verməyə qadir olmayan, öldürməyə, həyat verməyə və yenidən diriltməyə qüdrəti olmayanları özlərinə ilah götürdülər."** (əl-Furqan, 3).

O, həmçinin buyurur: **"De: "Allahdan başqa məbud saydıqlarınızı çağırın." Onlar göylərdə və yerdə zərrə qədər bir şeyə sahib deyillər. Onların** *göylərin və yerin yaradılışında* **heç bir şərikliyi yoxdur və onlardan Allaha yardımçı olanı da yoxdur. Onun qarşısında,**

**izin verdiyi kəslərdən başqa, heç kimin şəfaəti fayda verməz. Nəhayət,** ***mələklərin*** **qəlbindən qorxu keçib getdikdə onlar: "Rəbbiniz nə buyurdu?"– deyə soruşar, digərləri isə: "Haqqı** ***buyurdu*****! O, Ucadır, Böyükdür!"– deyə cavab verərlər."** (Səba, 22-23).

Elə buna görə də ibadətdə uca Allaha şərik qoşmaq:

- *Ən böyük zülmdür.* Uca Allah buyurur: **"Həqiqətən, Allaha şərik qoşmaq böyük zülmdür!"** (Loğman, 13). Çünki bu, aləmlərin Rəbbini naqis saymaq, Ona məxsus olan haqqı başqasına yönəltmək və başqasını Ona tay tutmaqdır. Necə ki, uca Allah buyurur: **"*Bu dəlillərdən* sonra kafir olanlar hələ də *bütləri* öz Rəbbinə tay tuturlar."** (əl-Ənam, 1).
- *Böyük günahların ən böyüyüdür.* Rəvayət edilir ki, Peyğəmbər ﷺ üç dəfə təkrarən: **"Sizə günahların ən böyüyü barədə xəbər verimmi?"**– deyə soruşmuş, səhabələr də: "Bəli, ya Rəsulallah!"– deyə cavab verdikdə, Peyğəmbər ﷺ demişdir: **"Allaha şərik qoşmaq."**[1]
- *Ən böyük günahdır.* Rəvayət edilir ki, Peyğəmbərdən ﷺ: "Allah yanında ən böyük günah hansıdır?"– deyə soruşdular. O dedi: **"Səni yaradan Allaha (başqa birisini) tay tutmağındır!"**[2]
- *Bu, fitrətin əksinə dəyişmək və zəlalətə uğramaqdır.* Uca Allah buyurur: **"Kim Allaha şərik qoşsa, sanki o, göydən düşər, quşlar onu alıb aparar, yaxud külək onu sovurub uzaq bir yerə atar."** (əl-Həcc, 31).

Allaha şərik qoşmaq çox çirkin əməl olduğu üçün Allah onu edən kimsəyə həm dünyada, həm də axirətdə cəza təyin etmişdir. Bunlar:

- *Bağışlanmamaq.* Uca Allah buyurur: **"Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, *lakin* bundan başqa *olan günahları* isə istədiyi kısə bağışlayar. Allaha şərik qoşan kəs böyük bir günah edərək iftira atmış olur."** (ən-Nisa, 48).

[1] Səhih əl-Buxari, 2654; Səhih Muslim, 87.
[2] Səhih əl-Buxari, 4477; Səhih Muslim, 86.

- ***Cənnətdən məhrum olmaq və əbədi olaraq cəhənnəmlik olmaq.*** Uca Allah buyurur: **"Kim Allaha şərik qoşarsa, heç şübhəsiz, Allah Cənnəti ona haram edər. Onun gedəcəyi yer Cəhənnəmdir. Zalımların heç bir yardımçısı yoxdur."** (əl-Maidə, 72).
- ***Əməllərinin hamısının puç olması.*** Uca Allah buyurur: **"Sənə və səndən əvvəlkilərə belə vəhy olunmuşdur: "Əgər** ***Allaha*** **şərik qoşsan, əməlin puç olacaq və mütləq ziyana uğrayanlardan olacaqsan."** (əz-Zumər, 65).

Bu məsələdə bir çox insanlar zəlalətə düşmüşlər. Onlardan bəzilərini sadalayaq:

- *Bütpərəstlər.* Bunlar şeytanlara uyub ağaclara, daşlara, insanlara, cinlərə, mələklərə, ulduzlara və heyvanlara ibadət edən kimsələrdir.
- *Qəbirə tapınanlar.* O kəslər ki, qəbirdəkilərə yalvarır, onlar üçün nəzir verir və qurban kəsir, onlardan fayda verməsini və zərəri dəf etməsini istəyirlər.
- *Sehrbazlar, şarlatanlar və kahinlər.* Bu adamlar cinlərə ibadət edirlər ki, bunun sayəsində cinlər onlara lazımi məlumatları çatdırsınlar, yaxud lazım olan şeyi gətirsinlər və ya lazım olan işi görsünlər.

Şirkin ibadətə çox böyük təhlükəsi olduğu üçün Peyğəmbər ﷺ şirkə gətirib çıxardan hər bir səbəbdən çəkindirmiş və ona doğru aparan yolların hamısının qarşısını kəsmişdir. Buna dair misallar aşağıdakılardır:

***– Əməlisaleh insanları ifrat dərəcədə uca tutmaqdan çəkindirmək.***

Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Ey insanlar, dində ifrata varmaqdan çəkinin! Həqiqətən də, sizdən əvvəlkiləri dində ifrata varmaqları həlak etmişdir."**[1] Digər bir hədisdə isə o

[1] Sünən ən-Nəsai, 3057; Sünən İbn Macə, 3029; Musnəd İmam Əhməd, 1851. Albani bu hədisin səhih olduğunu demişdir.

belə buyurmuşdur: **"Xristianlar Məryəm oğlunu şişirtdikləri kimi, siz də məni şişirtməyin! Mən sadəcə Allahın quluyam. Elə isə *mənə*: "Allahın qulu və elçisi!"– deyin."**[1]

Əməlisaleh insanlar vasitəsilə Allaha ibadət etmək də ifrata varmaq sayılır. Bu, təvəssül adlanır. Təvəssülün isə bir neçə növü var:

*Birincisi,* şirk sayılan və insanı dindən çıxardan təvəssüldür. Bu, ehtiyacı ödəmək və ya sıxıntını aradan qaldırmaq üçün Allahı qoyub, əməlisaleh insanlara dua etməkdir.

*İkincisi,* şirk dərəcəsinə çatmayan, bidət sayılan təvəssüldür. Bu, Allahın qanuniləşdirmədiyi vasitə ilə Allaha yaxınlaşmaqdır. Məsələn, əməlisaleh insanların zatı, yaxud şəni, yaxud haqqı, yaxud hörməti və ya başqa buna bənzər xisləti vasitəsilə təvəssül etmək.

*Üçüncüsü,* İslam şəriətinin izin verdiyi təvəssüldür. Bu, Allaha iman gətirmək və Ona itaət etməklə, yaxud Ona adlarından və sifətlərindən biri vasitəsilə, yaxud yerinə yetirilmiş saleh bir əməl vasitəsilə, yaxud da həyatda olan əməlisaleh bir insanın hamı üçün etdiyi dua ilə təvəssül etməkdir. Ömərin ﵁: "Allahım, biz Peyğəmbərimiz ﷺ vasitəsilə sənə dua edərdik. İndi isə Peyğəmbərimizin ﷺ əmisi vasitəsilə sənə dua edirik ki, bizə yağmur endirəsən."[2]

Bu təvəssül Peyğəmbərin ﷺ əmisi Abbasın vasitəsilə onun zatına görə deyil, sadəcə Peyğəmbərə ﷺ qohum olduğuna görə idi. Əgər insanların zatı ilə təvəssül etməyə izin verilmiş olsaydı, səhabələr elə Peyğəmbərin ﷺ zatı ilə təvəssül edərdilər.

***– Qəbirlər vasitəsilə azdırmadan çəkindirmək.***

Buna aşağıdakıları misal gətirmək olar:

- *Qəbirləri ibadətgah yerinə çevirmək.* Rəvayət edilir ki, Aişə ﵂ demişdir: "Rəsulullah ﷺ vəfatından əvvəl örtüyünü üzünə atır, *ürəyi* sıxıldıqda isə onu üzündən götürürdü. *Bu halda ikən* o dedi: **"Allah yəhudilərə və xristianlara lənət eləsin! Onlar peyğəmbərlərinin**

[1] Səhih əl-Buxari, 3445.

[2] Səhih əl-Buxari, 1010.

**qəbirlərini ibadətgaha çevirmişlər."** Peyğəmbər ﷺ bu sözü ilə ümmətini onların etdikləindən çəkindirmişdir. Əgər belə deməsəydi, onun qəbri açıq yerdə olardı. O, qəbrinin ibadətgaha çevriləcəyindən ehtiyat edirdi."[1]

Allahın elçisi ﷺ həmçinin demişdir: **"Diqqət edin! Sizdən əvvəlkilər öz peyğəmbərlərinin və əməlisaleh insanlarının qəbirlərini ibadətgaha çevirirdilər. Diqqət edin! Siz qəbirləri ibadətgaha çevirməyin! Mən bunu sizə qadağan edirəm!"[2]**

Hədisdə **"qəbirləri ibadətgaha çevirmək"** deyildikdə, onun yanında namaz qılmaq qəsd edilir, – hətta qəbirin üzərində məscid inşa edilmiş olmasa belə, çünki məscid, namaz qılmaq üçün ayrılan bir yerdir.

- *Qəbirlərin üstündə tikili ucaltmaq; üzərinə sinə daşı və olduqca hündür başdaşı qoymaq.* Rəvayət edilir ki, Əbul-Həyyac əl-Əsədi رحمه الله demişdir: "Əli ibn Əbu Talib رضي الله عنه mənə belə dedi: "Peyğəmbərin ﷺ mənə: **"Gördüyün hər bir heykəli yox et, hər bir hündür qəbri də yerlə bir et."**– deyə buyurduğunun eynisini sənə buyurummu?"[3]

Rəvayət edilir ki, Cabir ibn Abdullah رضي الله عنه demişdir: "Rəsulullah ﷺ qəbri gipsdən hörməyi, qəbrin üzərində oturmağı və onun üzərində tikili ucaltmağı qadağan etmişdir."[4] Qəbrin üzərində türbə və ya məqbərə tikmək, onlara naxışlar vurmaq və onları bəzəmək də buna aiddir.

- *Qəbirləri ziyarət etmək məqsədilə səfərə çıxmaq.* Bu, Peyğəmbərin ﷺ ümumi qadağasına aiddir. Bu xüsusda o demişdir: **"Məscidləri ziyarət etmək məqsədilə səfərə çıxmaq olmaz. Yalnız üç məscid istisnadır: mənim məscidim, Məscidulhəram və bir də Məsciduləqsa."[5]**

---

[1] Səhih əl-Buxari, 435, 436, 1390; Səhih Muslim, 529, 531.

[2] Səhih Muslim, 532.

[3] Səhih Muslim, 969.

[4] Səhih Muslim, 970.

[5] Səhih əl-Buxari, 1189; Səhih Muslim, 1397.

- *Peyğəmbərin ﷺ qəbrini ziyarətgaha çevirmək.* Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"Mənim qəbrimi ziyarətgaha çevirməyin!"**[1] Hədisdə **"ziyarətgah"** deyildikdə, müəyyən zamanı və müəyyən məkanı xüsusiləşdirərək ziyarət etmək nəzərdə tutulur.

***– Müşriklərə və kitab əhlinə bənzəməkdən çəkindirmək.***

Yəni onların etiqadlarından, ibadətlərindən və xüsusi adətlərindən uzaq durmaq. Peyğəmbər ﷺ demişdir: **"Müşriklərə müxalif olun!"**[2] Başqa bir rəvayətdə o demişdir: **"Məcusilərə müxalif olun!"**[3] Yenə bir rəvayətdə o demişdir: **"Yəhudilərə müxalif olun!"**[4]

***– Şəkil çəkməkdən çəkindirmək.***

Aişə رضي الله عنها rəvayət etmişdir ki, Ummu Sələmə رضي الله عنها Həbəşistanda gördüyü "Mariya" adlı kilsə və onun içindəki şəkillər barədə Rəsulullaha ﷺ xəbər verdikdə, Rəsulullah ﷺ demişdir: **"Onlar elə bir qövmdür ki, özlərindən əməlisaleh bir adam öldükdə onun qəbri üstündə məbəd tikir və divarlarına da o rəsmləri çəkirlər. Qiyamət günü onlar Allah yanında yaradılmışların ən pisi olacaqlar."**[5]

***– Şirk sayılan sözlərdən çəkindirmək.***

Buna aşağıdakıları misal göstərmək olar:

- *Allahdan qeyrisinə and içmək.* Peyğəmbər ﷺ demişdir: **"Kim Allahdan qeyrisinə and içsə, kufr etmiş və ya şirk etmiş olar."**[6]
- *Allahın istəyi ilə məxluqun istəyini bir tutmaq*. Rəvayət edilir ki, Peyğəmbərə ﷺ: "Allah və sən istəsən"– deyən adama, Peyğəmbər ﷺ: **"Sən məni Allaha tay tutdun?! De: "Yalnız Allah istəsə!"**– dedi.[7]

---

[1] Sunən Əbu Davud, 2042. Albani bu hədisin səhih olduğunu demişdir.
[2] Səhih əl-Buxari, 5982; Səhih Muslim, 259.
[3] Səhih Muslim, 260.
[4] Sunən Əbu Davud, 652. Albani bu hədisin səhih olduğunu demişdir.
[5] Səhih əl-Buxari, 434; Səhih Muslim, 528.
[6] Sunən Əbu Davud, 3251; Sunən ət-Tirmizi, 528.
[7] Sunən ən-Nəsai, 10759.

- *"Filan ulduz sayəsində bizə yağış yağdı" deməк*. Qüdsi hədisdə uca Allah buyurur: **"Yağış bizə filan və filan ulduza görə nazil olmuşdur"– deyənlərə gəlincə, onlar Mənə küfr etmiş və ulduzlara iman gətirmişlər."** [1] Bu həm də Allahın idarə etdiyi istənilən bir əməli Allahdan qeyrisinə nisbət etməyə aiddir.

***– Şirkə gətirib çıxardan əməllərdən çəkindirmək.***

Buna aşağıdakıları misal göstərmək olar:

- *Bəlanı dəf etmək və ya aradan qaldırmaq məqsədilə qola, yaxud boyuna halqa və ya ip taxmaq.* İmran ibn Huseyn ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ bir kişinin qoluna sari misdən halqa taxdığını görüncə ondan: **"Vay sənin halına, bu nə halqadır?!"**– deyə soruşdu. Adam: "Halsızlığımı aradan qaldırır"– deyə cavab verdi. Peyğəmbər ﷺ də ona belə buyurdu: **"Çıxart onu kənara at! O sənin yalnız halsızlığını artırır. Əgər o sənin qolunda ikən ölsən, heç vaxt uğur qazanmazsan."**[2]

- *Gözdəymədən qorunmaq üçün həmail,*[3] *gözmuncuğu, yay ipi və boyunbağı asmaq.* Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"Kim həmail asarsa, Allah onu sığındığından qorumaz; kim gözmuncuğu taxarsa, Allah onu gözdəymədən qorumaz."**[4] Digər rəvayətdə deyilir ki: **"Kim həmail taxarsa, şirk etmiş olar."**[5] Başqa bir hədisdə də Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Heç bir dəvənin boynunda kirişdən**[6] **düzəldilmiş boyunbağı qalmasın, dərhal kəsilib atılsın."**[7]

- *Şirk sayılan ovsun oxumaq, tilsimləmək və cadu etmək.* Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"Ovsun oxumaq, həmail asmaq və cadu etmək şirkdir."**[8]

---

[1] Səhih əl-Buxari, 846; Səhih Muslim, 71.
[2] Musnəd İmam Əhməd, 2000; Sunən İbn Macə, 3531; Səhih İbn Hibban, 6085.
[3] Həmail: gözdəymədən qorunmaq üçün boyundan asılan dua, tilsim, pitik.
[4] Musnəd İmam Əhməd, 17404; Səhih İbn Hibban, 6986; Mustədrək, 7708.
[5] Musnəd İmam Əhməd, 17422; Mustədrək, 7720.
[6] Kiriş: ox yayının iki ucuna tarım bağlanan ip.
[7] Səhih əl-Buxari, 3005; Səhih Muslim, 2115.
[8] Sunən Əbu Davud, 3883; Sunən İbn Macə, 3530.

- *Allaha şərik qoşulan yerlərdə qurban kəsmək.* Rəvayət edilir ki, Buvanədə dəvə kəsməyi nəzir etmiş bir kişi bu haqda Peyğəmbərə ﷺ sual verdikdə, Peyğəmbər ﷺ soruşdu: **"Cahiliyyə dövründə həmin yerdə ibadət edilən bütlərdən olubmu?"**. Səhabələr: "Xeyr!"– deyə cavab verdilər. O: **"Müşriklər orada mərasim keçiriblərmi?"**– deyə soruşdu. Səhabələr yenə: "Xeyr!"– deyə cavab verdikdə, Peyğəmbər ﷺ buyurdu: **"Elə isə nəzirini yerinə yetir!"**[1]

- *Bir şeyin bəd əlamət olduğuna inanmaq.* Abdullah ibn Məsud ؓ rəvayət edir ki, Peyğəmbər ﷺ belə demişdir: **"Bəd əlamətin olduğuna inanmaq şirkdir; bəd əlamət olduğuna inanmaq şirkdir."**[2]

Ümumiyyətlə, nə təcrübə baxımından, nə də şəriət qanununa görə Allahın səbəb yaratmadığı bir əlaməti səbəb saymaq şirkdir və ya şirkə yaxınlaşdıran günahdır.

**Dördüncüsü: Allahın adlarına və sifətlərinə iman.**

Bu, uca Allahın ən gözəl adları və ən uca sifətləri olduğuna qətiyyətlə etiqad etmək, üstəlik, Allahın Quranda Özünə aid etdiyi, Peyğəmbərinin ﷺ də Sünnədə Ona aid etdiyi hər bir gözəl adı və kamil sifəti heç nəyə bənzətmədən və necəliyini vəsf etmədən, onları təhrif etmədən və inkar etmədən təsdiqləmək, habelə, Onun Quranda, Peyğəmbərinin ﷺ də Sünnədə inkar etdiyi naqis və qüsurlu sifətləri, məxluqata bənzətməni inkar etməkdir.

Bu xüsusda uca Allah buyurur: **"Ən gözəl adlar Allahındır. Ona bu adlar vasitəsilə dua edin və Onun adları barəsində haqdan sapanları tərk edin. Onlar etdikləri əməllərin cəzasını alacaqlar."** (əl-Əraf, 180).

O, həmçinin buyurur: **"Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir."** (əş-Şura, 11).

Allahın isim və sifətləri yalnız dəlillərə (Qurana və hədislərə) söykənir. Yəni Allahın isim və ya sifətini məntiqlə isbat etmək olmaz.

[1] Sunən Əbu Davud, 3313; Sunən İbn Macə, 2130.

[2] Sunən Əbu Davud, 3910; Sunən İbn Macə, 3538.

Allahı yalnız Onun Özünün və ya Rəsulunun ﷺ vəsf etdiyi kimi, Quranda və səhih hədislərdə zikr edildiyi kimi vəsf etmək gərəkdir. Allahın və Rəsulunun ﷺ söyləmədiyi ad və ya sifət barədə danışmamalı, onu nə inkar etməli, nə də təsdiqləməliyik. Allahı vəsf edən adamın nəyi qəsd etdiyini soruşmalıyıq, – əgər doğru məna zikr etsə, onu qəbul etməli, ancaq ləfzi təsdiq etməməliyik. Yox, əgər məna yanlış olarsa, o zaman həm mənasını, həm də ləfzini inkar etməliyik. Uca Allah buyurur: **"Haqqında elmin olmadığı bir şeyin dalınca getmə. Çünki qulaq, göz və qəlb – bunların hamısı** ***sahibinin əməlləri*** **barəsində sorğu-sual olunacaq."** (əl-İsra, 36).

Uca Allahın isimləri son dərəcə gözəldir və onlar Allahın həm zatına, həm də vəsflərinə işarə edir. Allahın sifətləri kamildir və onlarda heç bir naqislik yoxdur. Uca Allah buyurur: **"Göylərdə və yerdə olan ən uca sifətlər Ona məxsusdur. O, Qüdrətlidir, Hikmət sahibidir."** (ər-Rum, 27).

Allahın adları və sifətləri həqiqətən də, haqdır və onların mənasını təhrif etmədən olduğu kimi qəbul etmək vacibdir. Onların mənasını inkar edərək, yaxud onları məxluqata bənzədərək, yaxud Allahın Özünə vermədiyi adları Ona verərək, yaxud da Onun adlarından qondarma adlar düzəldərək – məsələn, Məkkə müşriklərinin İlah adından Lat adını, Aziz adından Üzzə adını, Mənnan adından da Mənat adını düzəltdiyi kimi adlar düzəldib həqiqi mənanı qəbul etməmək haramdır.

Allahdan bir şey istədikdə və ya Ona ibadət etdikdə bu adlarla Ona dua etmək vacibdir. Həmçinin, onları əzbərləmək, mənalarını öyrənmək, onların verdiyi fayda barədə düşünmək və onların tələblərini yerinə yetirmək lazımdır. Bu, elmlərin ən fəzilətlisidir.

Uca Allahın sifətləri, onlara aid edilən məna baxımından aşağıdakı qismlərə bölünür:

**1. Zatı sifətlər.** Bunlar Allahın müqəddəs zatından ayrılmaz sifətlərdir: həyat, eşitmək, görmək, bilmək, qüdrətli olmaq, istəmək, müdriklik, qüvvət və s.

**2. Feli sifətlər.** Bunlar Allahın istəyinə və hikmətinə bağlıdır. O, bunları istədiyi vaxt və istədiyi kimi Öz hikməti ilə edir. Məsələn, Ərşin üzərində yüksəlmək, dünya səmasına enmək, sevmək, nifrət etmək, fərəhlənmək, təəccüblənmək, gülmək, gəlmək və Quranda və səhih hədislərdə zikr edilən başqa bu kimi sifətlər.

Kəlam / danışmaq sifəti kimi bəzi sifətlər isə həm zatı, həm də feli sifət sayılır. Belə ki, sifətin əsli baxımdan zatı sifət, ayrıca fəaliyyətinə görə də feli sifət sayılır.

Bəziləri də xəbərlərə əsaslanan sifətlər adlanır. Yəni ağıl ilə deyil, Quran və hədislərlə sübuta yetirilmiş sifətlər – məsələn, üz, iki əl, iki göz, ayaq və s.

Uca Allahın Quran, hədislər və icma əsasında sübuta yetirilmiş sifətlərindən bəzilərini qeyd edək:

- *Ucalmaq.* Bu sifət üç növdür:

*Birincisi, mövqe ucalığıdır.* Yəni pak və müqəddəs Allahın sifətlərinin hər biri ən kamil, tamamilə nöqsansız və ən uca sifətdir. Bu xüsusda uca Allah buyurur: **“Ən uca sifətlər Allaha məxsusdur.”** (ən-Nəhl, 60).

*İkincisi, qalib gəlmək ucalığıdır.* Yəni uca Allah qüvvət sahibidir, məxluqatın hamısına qalib gəlmək iqtidarındadır və onlardan heç biri Ona mane ola bilməz. Bu xüsusda uca Allah buyurur: **“O, Öz qulları üzərində mütləq hakimiyyət sahibidir.”** (əl-Ənam, 18).

*Üçüncüsü isə zat ucalığıdır.* Yəni uca Allah Öz zatı ilə səmalardan yüksəkdə, Ərşinin üzərində yüksəlmişdir və məxluqatından ayrıdır. Nə Onun zatında məxluqatından bir şey movcuddur, nə də məxluqatda Onun zatından bir şey mövcuddur. O, pak və müqəddəsdir, tərifəlayiqdir. Uca Allah buyurur: **“Göydə olan *Allahın* sizi yerə batırmayacağına əminsinizmi?”** (əl-Mulk, 16).

“Səhih Muslim”də rəvayət edilir ki, Peyğəmbər ﷺ cariyədən: **“Allah haradadır?”**– deyə soruşmuş, cariyə də ona: “Göydədir”– deyə cavab vermişdir. Sonra o: **“Mən kiməm?”**– deyə soruşmuş, cariyə də: “Sən Allahın elçisisən”– deyə cavab vermişdir. Onda

Peyğəmbər ﷺ həmin cariyənin sahibinə: **“Bu cariyəni azad et, çünki o, mömindir”**– deyə buyurmuşdur.[1]

Quran, Sünnə, icma, ağıl və fitrət Allahın zatının uca olmasına dəlildir. Allahın uca olmasına dair olduqca çoxlu dəlillər vardır. Ucalıq zatı sifətdir.

- *İstiva etmək (ucalmaq).* Uca Allah buyurur: **“...sonra Ərşin üzərində ucaldı.”** (əl-Əraf, 54). Eyni cümlə Quranda altı ayədə zikr edilir, yeddincisində də belə deyilir: **“Mərhəmətli *Allah* Ərşin üzərində ucaldı.”** (Ta ha, 5). İstiva etmək, Allahın göyləri və yeri yaratdıqdan sonra Öz ərşi üzərində Öz şəninə və əzəmətinə layiq şəkildə ucalmasıdır. Onun bu ucalmasını, məxluqatın ucalmasına bənzətmək olmaz. İstiva feli sifətlərə aiddir.

- *Danışmaq.* Uca Allah buyurur: **“De: “Əgər Rəbbimin Sözlərini yazmaq üçün dəniz mürəkkəb olsaydı və bir o qədər də ona əlavə etsəydik belə, Rəbbimin Sözləri qurtarmadan öncə dənizin *suyu* qurtarardı.”** (əl-Kəhf, 109). O, həmçinin buyurur: **“Allah Musa ilə sözlə danışdı.”** (ən-Nisa, 164). O, həmçinin buyurur: **“Musa təyin etdiyimiz vaxtda gəldikdə, Rəbbi onunla danışdı.”** (əl-Əraf, 143).

Danışmaq sifəti deyildikdə, uca Allahın həqiqi mənada və eşidilən şəkildə, hərif və səslə danışması qəsd edilir. Onun danışmasını məxluqatın danışmasına bənzətmək olmaz. O, istədiyi vaxt və istədiyi kəlamı, həm doğru, həm də ədalətli şəkildə danışır. Onun kəlmələri tükənməzdir. Onun bu sifəti əzəli və əbədidir.

Bu sifətlərin hamısı həqiqi mənada olan haqdır. Bunları təsdiqləmək, varid olduğu kimi söyləmək, üstəlik, onları təhrif etmədən, inkar etmədən, məxluqata bənzətmədən və onların necəliyini vəsf etmədən qəbul etmək vacibdir. Bu qayda Allahın sifətlərinin hamısına aiddir. Allahın sifətlərindən bəzisi haqda deyilən söz, eynilə qalan sifətlərə də aid edilir. Kim bu sifətlər arasında fərq qoyarsa, dəlilsiz hökm vermiş sayılar.

[1] Səhih Muslim, 537.

Allahın adları və sifətləri mövzusunda qiblə əhlindən olan bəzi insanlar zəlalətə uğramışlar. Onlardan bəzilərini sadalayaq:

- *Allahı məxluqata bənzədənlər.* Onlar Allahın sifətlərini sübuta yetirmək xüsusunda ifrata varmış və Onu məxluqata bənzətmişlər. Onların əsaslandığı şübhə də budur ki, guya Allah insanlara onların başa düşdüyü dildə xitab etmişdir.

Onlara bir neçə yöndən cavab vermək olar:

*Birincisi* budur ki, uca Allah açıq-aydın ayələrdə Özünün heç bir tayı-bənzəri olmadığını bildirmişdir. Uca Allah buyurur: **“Onun heç bir bənzəri yoxdur.”** (əş-Şura, 11). O, həmçinin buyurur: **“Siz *bunu* bildiyiniz halda *heç kəsi* Allaha tay tutmayın.”** (əl-Bəqərə, 22). O, həmçinin buyurur: **“Onun heç bir bənzəri yoxdur.”** (əl-İxlas, 4).

Allahın kəlamı arasında isə heç bir ziddiyyət ola bilməz.

*İkincisi* budur ki, sağlam ağıl kamil Xaliqin naqis və yaradılmış qula bənzəməsini inkar edir. Əgər Xaliqin zatı məxluqatın zatına bənzəmirsə, demək, Onun sifətləri də onların sifətlərinə bənzəmir.

*Üçüncüsü* də budur ki, Allah Öz qullarına onların başa düşdüyü tərzdə – sözün mənasının əsli baxımından xitab edir. Mənanın tamamilə mütləq şəkildə bənzər olması, mahiyyətin və keyfiyyətin də bənzər olması demək deyil. Əgər yaradılanların özlərində olan eyni sifətlərin – məsələn, eşitmək, görmək, qüdrət, əl, üz və s. sifətlərin keyfiyyətinin də bənzər olması vacib deyilsə, Xaliqin sifətləri ilə məxluqun sifətləri arasında bənzərliyin olması ümumiyyətlə vacib deyil.

- *Allahın sifətlərini inkar edənlər.* Onlar Allahın bütün nöqsanlardan uzaq olduğunu ifrat dərəcədə düşünərək Onun sifətlərini tamamilə inkar etmişlər. Əsaslandıqları şübhələri də budur ki, Allahın sifətlərini təsdiqlədikdə, Onu məxluqata bənzətmək qaçılmaz olur. Çünki həmin sifətlər məxluqatda da mövcuddur. Odur ki, bu sifətləri Xaliqə aid etmək olmaz.

  Onlar Allahın varlığını təsdiqləyir, ancaq Onun sifətlərini inkar edirlər. Allahın sifətlərini inkar edənlərin ən azğını *batini* əqidəsində olan *qərmətilərdir* – onlar bir-birinə zidd olanları inkar

edirlər. Sonra *cəhmilərdir* – onlar Allahın adlarını və sifətlərini tamamilə inkar edirlər. Sonra da *motəzililərdir* ki, onlar da Allahın adlarını qəbul edir, lakin bu adlara aid sifətləri inkar edirlər.

Onlara bir neçə yöndən cavab vermək olar:

*Birincisi:* uca Allah *muhkəm*, aydın mənalı və müfəssəl ayələrdə Özünün sifətləri olduğunu təsdiqləmiş və onların məxluqatın sifətlərinə bənzəməsini inkar etmişdir. Necə ki, ayədə deyilir: **"Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir."** (əş-Şura, 11).

Allahın kəlamının bir-birinə zidd olması isə mümkün deyil.

*İkincisi:* bir şeyin mövcud olduğunu təsdiqlədikdən sonra onun heç bir həqiqi sifətinin olmadığını inkar etmək həqiqət sayıla bilməz. Bu sadəcə xəyallarda olan bir fərziyyədir. Bunu təsdiqləmək isə Xaliqi inkar etməyə gətirib çıxardır.

*Üçüncüsü:* birisini ümumi sözlərlə vəsf etmək, başqa birisinin də o vəsflə vəsf edilməsi anlamına gəlmir. Əksinə, onlardan hər birinin vəsfinin özünə məxsus keyfiyyəti ola bilər. Belə ki, sifəti xüsusilə qeyd etdikdə və ya onu birisinə aid etdikdə, zahiri bənzərlik aradan qalxır.

- *Allahın sifətlərini başqa mənaya yozanlar.* Onlar etiqad edirlər ki, Quran və Sünnədə zikr edilən feli və xəbəri sifətlərin həqiqi mənası Allaha aid edilə bilməz. Elə buna görə də onlar ayələrdə və hədislərdə zikr edilən sifətləri başqa mənalara yozmağa çalışır, əllərində heç bir dəlilləri olmadığı halda, bu sifətlərin zahiri mənasını başqa məna ilə dəyişdirir və bu təhriflərini *təvil* (mənaya izah vermək) adlandırırlar.

Onlara bir neçə yöndən cavab vermək olar:

*Birincisi:* uca Allah Özünü daha yaxşı tanıyır və Onun sözü yaradılanların sözündən daha doğru və daha gözəldir. Həmçinin, Onun rəsulu ﷺ öz Rəbbini daha yaxşı tanıyırdı, – ən doğru danışan olmuş və bu məsələni hamıdan yaxşı bəyan etmiş, ümmətinə daha çox nəsihət etmişdir. Necə ola bilər ki, birisi Allahın və Onun rəsulunun ﷺ kəlamına əlavə izah versin və onların kəlamının anlaşılmaz olduğunu və zəlalətə apardığını iddia etsin?!

*İkincisi:* hər bir kəlməni başa düşməyin əsli budur ki, o, həqiqi mənada qəbul edilsin. Onu başqa mənaya yozmaq qadağandır. Yalnız səhih dəlil olduğu təqdirdə onun zahiri mənasını başqa mənaya yozmaq istisnadır. Bu məsələyə aid isə heç bir dəlil yoxdur.

*Üçüncüsü:* Peyğəmbər ﷺ insanların Rəbbi tərəfindən nazil olanı onlara bəyan etmiş və bunu tam şəkildə təbliğ etmişdir. Mümkün deyil ki, Peyğəmbər ﷺ belə böyük və mühüm mövzunun məğzini bilə-bilə onu gizlətsin və bu təhrifçilərin iddia etdikləri uydurma mənaları bəyan etmiş olmasın.

- *Bu sifətlərin mənasının bilinmədiyini deyənlər.* Onlar etiqad edirlər ki, Allahın xəbər verdiyi Özünə aid olan sifətlərin, habelə Rəsulunun ﷺ xəbər verdiyi bu sifətlərin mənası məchuldur, onların mənasını yalnız Allah bilir – heç kəs bu sifətlərin mənasını bilə bilməz. Onlar tutduqları bu yolu *təfvid* adlandırırlar.

Onlara bir neçə yöndən cavab vermək olar:

*Birincisi:* ola bilməz ki, İslam dininin ən şərəfli mövzusu – Allahı tanımaq mövzusunun qapısı bağlı qalsın. Buna dair nə əqli, nə də nəqli dəlil vardır.

*İkincisi:* uca Allah Quranı aydın başa düşülən ərəb dilində nazil etmiş, onu öyrənməyi və ayələrin mənaları barədə düşünməyi Öz qullarına əmr etmiş və heç bir şeyi istisna etməmişdir. Bu isə sifətlərə aid ayələrin mənasının başa düşülməsinin mümkün olduğuna dəlalət edir. Bu sifətlərin keyfiyyətinə və necəliyinə gəlincə, bunlar qeyb elmidir və bu haqda bilgi yalnız Allahdadır.

*Üçüncüsü:* bu batil inanc insanı, başda Peyğəmbər ﷺ və onun səhabələri olmaqla, İslam ümmətinin sələf alimlərinin cahil olduqlarını deməyə və onları Quranı bilməyən, xülyalara dalıb ancaq zənnə qapılan savadsızlara bənzətməyə gətirib çıxardır. Guya Allahın sifətlərinə aid ayələr onlar üçün mənası başa düşülməyən şərti gizli yazılar və həriflərdir.

# MƏLƏKLƏRƏ İMAN

Biz qəti şəkildə etiqad etməliyik ki, Allah mələkləri Ona ibadət etmək və ixlasla Ona itaət etmək üçün yaratmış, onları məxsusi olaraq Özünə yaxın olanlardan etmiş, onları səmalarda sakin etmiş və onlara verdiyi əmrləri yerinə yetirmələri üçün onlara qüvvət vermişdir.

*Mələklərə olan imanın kamil olması üçün aşağıda qeyd edilənlərə etiqad etmək vacibdir:*

**Birincisi: Etiqad etməliyik ki, mələklər möhtərəm, itaətkar, Allaha yaxın olan, Ona boyun əyən və Ondan qorxan qullardır.**

Onların nə rübubiyyət, nə də uluhiyyət kimi xüsusiyyətləri var. Bu xüsusda uca Allah buyurur: **“Əksinə, *o mələklər* möhtərəm qullardır. *Mələklər* Ondan qabaq danışmazlar; onlar ancaq Onun əmrini yerinə yetirərlər. *Allah* onların keçmişini və gələcəyini bilir. Onlar yalnız Onun razı qaldığı şəxslərdən ötrü şəfaət diləyir və Onun qorxusundan tir-tir əsirlər.”** (əl-Ənbiya, 26-28).

O, həmçinin buyurur: **“Onlar özlərinin fövqündə olan Rəbbindən qorxur və özlərinə əmr edilənləri yerinə yetirirlər.”** (ən-Nəhl, 50).

O, həmçinin buyurur: **“*Mələklər* Allahın onlara verdiyi əmrlərə *əsla* asi olmurlar və özlərinə buyurulanları yerinə yetirirlər.”** (ət-Təhrim, 6).

O, həmçinin buyurur: **“Möhtərəm və müti olan *mələklərin*...”** (Əbəsə, 6).

O, həmçinin buyurur: “**O gün *Allah* onların hamısını toplayacaq, sonra da mələklərə buyuracaq: “Bunlar sizə ibadət edirdilər?” *Mələklər* deyəcəklər: “Sən paksan, müqəddəssən! Onlar deyil, Sənsən bizim Hamimiz!**” (Səba, 40-41).

O, həmçinin buyurur: **“*Mələklər* dedilər: “Sən pak və müqəddəssən! Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən Bilənsən, Hikmət sahibisən!”** (əl-Bəqərə, 32).

**İkincisi: Etiqad etməliyik ki, onlara ehtirama layiq adlar verilmişdir.**

Adlarını bildiyimiz mələklərə adları ilə bərabər iman gətirməli, adlarını bilmədiklərimizə də ümumi olaraq iman gətirməliyik. Mələklərin ehtirama layiq adlarından bildiklərimiz bunlardır: Cəbrail, Mikail, İsrafil, Ölüm mələyi, Malik, Ridvan, Harut, Marut, Munkir və Nəkir. Bu adlar Quranda və səhih hədislərdə zikr edilir.

**Üçüncüsü: Etiqad etməliyik ki, onlar nurdan yaranmışlar, onların qanadları var, özləri də əzəmətli və müxtəlif görünüşlüdürlər.**

Uca Allah buyurur: **"Həmd, göyləri və yeri yaradan, mələkləri iki, üç və dördqanadlı elçilər edən Allaha məxsusdur! O, yaratdıqlarından istədiyini artırır. Həqiqətən, Allah hər şeyə qadirdir."** (Fatir, 1).

Peyğəmbər ﷺ isə demişdir: **"Mələklər nurdan yaradılmışlar."**[1]

Başqa bir hədisdə xəbər verilir ki, Rəsulullah ﷺ Cəbraili öz surətində, bədəni də üfüqün qarşısını örtdüyü halda görmüşdür.[2]

Peyğəmbər ﷺ belə də demişdir: **"Mənə Ərşi daşıyan mələklərdən biri haqqında danışmağa izin verildi – onun qulağının mərcəyindən çiyninədək olan məsafə yeddi yüz il yeriyərək gedilən məsafə uzunluğundadır."**[3]

Mələklər, bəzi düşüncəsiz adamların iddia etdikləri kimi, xəyali qüvvələr deyil, gerçək məxluqlardır. Onların sayı olduqca çoxdur və bu sayı yalnız onların Xaliqi bilir. Ənəsin رضي الله عنه rəvayət etdiyi hədisdə [– merac hadisəsində] xəbər verilir ki, yeddinci səmada Peyğəmbərə ﷺ Beytulməmur göstərilmişdir. Hər gün onun içində yetmiş min mələk namaz qılır, sonra oradan çıxır və bir daha oraya qayıtmır.[4]

---

[1] Səhih Muslim, 2996.

[2] Səhih əl-Buxari, 3234; Səhih Muslim, 177.

[3] Sunən Əbu Davud, 4727. Albani bu hədisin səhih olduğunu demişdir.

[4] Səhih əl-Buxari, 3207; Səhih Muslim, 162.

**Dördüncüsü: Etiqad etməliyik ki, onlar səf-səf durub, Allahı həmd-sənalarla tərif edirlər.**

Allah onlara Onu tərif etməyi və Onun əmrlərini yerinə yetirməyi təlqin etmiş və onlara bu əmrləri yerinə yetirmək üçün qüvvət vermişdir. Uca Allah buyurur: *"Mələklər dedi*: **"Bizlərdən hər kəsin müəyyən bir yeri vardır. Həqiqətən, biz səf-səf dururuq."** (əs-Saffat, 164-165).

O, həmçinin buyurur: **"Əgər onlar təkəbbür göstərsələr,** ***bilsinlər ki,*** **sənin Rəbbinin yanında olanlar gecə-gündüz usanmadan Onun şəninə təriflər deyirlər."** (Fussilət, 38).

O, həmçinin buyurur: **"Göylərdə və yerdə kimlər varsa,** ***hamısı Allahındır.*** **Onun yanında olanlar Ona ibadət etməyə təkəbbür göstərmir və** ***ibadət etməkdən*** **yorulmurlar. Onlar gecə-gündüz, usanmadan** ***Onun*** **şəninə təriflər deyirlər."** (əl-Ənbiya, 19-20).

Rəvayət edilir ki, Həkim ibn Hizam ﷺ demişdir: "Bir dəfə Rəsulullah ﷺ səhabələrinin arasında ikən onlara dedi: **"Mənim eşitdiyimi eşidirsinizmi?"** Onlar: "Biz heç nə eşitmirik"– deyə cavab verdilər. Onda Rəsulullah ﷺ dedi: **"Mən səmanın xışıldadığını eşidirəm – belə xışıldaması onun üçün eyib deyil. Belə ki, onun hər qarışında səcdəyə qapanmış və ya qiyamda duran mələk vardır."**[1]

**Beşincisi: Etiqad etməliyik ki, onlar bizim gözümüzə görünmürlər.**

Onlar qeyb aləmindədirlər və bu dünyada insan onları görə bilməz – yalnız Allahın istədiyi kimsələrdən başqa. Necə ki, Peyğəmbərimiz ﷺ Cəbraili عليه السلام Allahın onu yaratdığı surətində görmüşdür. Uca Allah buyurur: **"Məhz mələkləri görəcəkləri gün günahkarlara heç bir müjdə olmayacaq.** *Mələklər* **deyəcəklər: "***Cənnətə girməyiniz* **qadağandır, qadağan!"** (əl-Furqan, 22).

O, həmçinin buyurur: **"Mələklər** ***Cənnətdəki*** **hər bir qapıdan onların yanına daxil olacaqlar."** (ər-Rəd, 23).

[1] Təbərani, əl-Kəbir, 3122; Silsilə əl-Əhadis əs-Səhihə, 852.

Lakin Allah onlara dönüb insan görkəmini almaq qüdrəti verib. Bu xüsusda uca Allah buyurur: **“Biz Öz Ruhumuz *Cəbraili* onun yanına göndərdik. O, Məryəmin qarşısında kamil bir insan surətində peyda oldu.”** (Məryəm, 17).

O, həmçinin buyurur: “**Elçilərimiz (mələklər) İbrahimə *İshaqın doğulacağı barədə* müjdə gətirdilər və: “Salam!”– dedilər. O da: “Salam!”– dedi və dərhal *gedib onlara* qızardılmış bir buzov gətirdi. *İbrahim qonaqların* yeməyə əl vurmadıqlarını gördükdə onların *bu hərəkəti* onun xoşuna gəlmədi və canına qorxu düşdü. Onlar dedilər: “Qorxma! Biz Lut qövmünü *məhv emək üçün* göndərilmişik.”** (Hud, 69-70).

O, həmçinin buyurur: “**Elçilərimiz Lutun yanına gəldikdə, o, *qonaqlara* görə kədərləndi, ürəyi sıxıldı və: “Bu, çox çətin bir gündür”– dedi. Qövmü tələsik onun yanına gəldi. Onlar əvvəllər də yaramaz işlər görürdülər. *Lut* dedi: –Ey qövmüm! Bunlar mənim qızlarımdır (onlarla nikaha girə bilərsiniz). Onlar sizin üçün daha təmizdirlər. Allahdan qorxun və qonaqlarımın yanında məni rüsvay etməyin! Məgər aranızda sizə *nəsihət edə biləcək* ağıllı bir adam yoxdur?”** (Hud, 77-78). Bu mələklər ﻋﻠﻴﻬﻢ ﺍﻟﺴﻼﻡ onun yanına kişi görkəmində gəlmişdilər.

Həmçinin Cəbrail ﻋﻠﻴﻪ ﺍﻟﺴﻼﻡ Peyğəmbərin ﷺ yanına saçları qapqara, əynində də ağappaq libası olan kişi görkəmində gəlmişdir. Bəzən də onun yanına Dihyə ibn Xəlifə əl-Kəlbinin ﺭﺿﻲ ﺍﻟﻠﻪ ﻋﻨﻪ görkəmində gələrdi.

**Altıncısı: Etiqad etməliyik ki, mələklərə, onların davamlı yerinə yetirdikləri əsas vəzifədən, yəni öz Rəbbinə ibadət etmək və onu həmd-sənalarla tərif etməkdən əlavə, müxtəlif işləri yerinə yetirmək də buyurulmuşdur.** Məsələn:

***– Vəhy nazil etmək.***

Bu, Cəbrailin ﻋﻠﻴﻪ ﺍﻟﺴﻼﻡ vəzifəsidir. Uca Allah buyurur: **“De: “Müqəddəs Ruh *Cəbrail* onu sənin Rəbbindən iman gətirənləri sabitqədəm etmək üçün, həm də müsəlmanlara doğru yol göstəricisi və müjdə olsun deyə gerçək olaraq nazil etmişdir.”** (ən-Nəhl, 102).

O, həmçinin buyurur: **“Şübhəsiz ki, bu, aləmlərin Rəbbindən nazil edilmişdir. Onu sadiq ruh *Cəbrail* endirdi – sənin qəlbinə ki, xəbərdar edənlərdən olasan.”** (əş-Şuəra, 192-194).

***– Yağış endirmək və yerdən bitkilər bitirmək.***

Bu, Mikailin عليه السلام vəzifəsidir. Hədisdə rəvayət edilir ki, yəhudilər Rəsulullaha ﷺ: “Əgər sən: – Rəhmət, bitkilər və yağış gətirən Mikail” desəydin, biz bunu qəbul edərdik”– demişlər.[1]

Digər hədisdə isə xəbər verilir ki, Peyğəmbər ﷺ Cəbraildən عليه السلام: **“Mikailin vəzifəsi nədir?”**– deyə soruşmuş, o da: “Bitkilər bitirmək və yağış endirmək”– deyə cavab vermişdir.[2]

***– Sura üfürmək.***

Bu, İsrafilin عليه السلام vəzifəsidir. Sura birinci dəfə üfürüldükdə məxluqat öləcək, sonra ikinci dəfə ona üfürüldükdə, onlar diriləcəklər. Uca Allah buyurur: **“Sur üfürüləcək və Allahın istədiyi kimsələrdən başqa göylərdə və yerdə kim varsa, hamısı öləcək. Sonra bir daha ona üfürülən kimi, onlar qalxıb baxacaqlar.”** (əz-Zumər, 68).

Bu üçü – Cəbrail, Mikail və İsrafil mələklərin ən hörmətli olanlarıdır. Çünki onların vəzifəsi həyatla əlaqəlidir – Cəbrailə عليه السلام qəlblərin həyatı həvalə edilib, Mikailə عليه السلام bitkilərin həyatı həvalə edilb, İsrafilə عليه السلام də bədənlərin həyatı həvalə edilib. Bunların ən şərəflisi isə müqəddəs Ruh sayılan Cəbraildir عليه السلام.

***– İnsanları qorumaq.***

Uca Allah buyurur: **“İnsanı həm önündən, həm də arxasından daim təqib edən mələklər vardır. Onlar Allahın əmri ilə onu qoruyurlar. Sözsüz ki, insanlar nəfslərində olanı dəyişmədikcə, Allah da onlarda olanı dəyişməz. Əgər Allah hər hansı bir qövmə pislik etmək istəsə, heç nə onun qarşısını ala bilməz. Onların Ondan başqa hamisi olmaz.”** (ər-Rəd, 11).

[1] Musnəd İmam Əhməd, 2483.

[2] Təbərani, əl-Kəbir, 12061; Məcməu əz-Zəvaid, 14212.

*– İnsanların əməllərini yazmaq.*

Uca Allah buyurur: **“Sağında və solunda iki** *mələk* **oturub** *onun əməllərini qeydə alır.* **Dediyi elə bir söz yoxdur ki,** *onu yazmaq üçün* **yanında hazır durmuş gözətçi olmasın.”** (Qaf, 17-18).

*– Möminlərə dəstək vermək və onlara yardım etmək.*

Uca Allah buyurur: **“O zaman Rəbbin mələklərə: “Mən sizinləyəm! İman gətirənləri gücləndirin. Mən kafirlərin qəlbinə qorxu salacağam. Onların boyunlarını vurun və barmaqlarının hamısını kəsin!”–** *deyə* **vəhy etmişdi.”** (əl-Ənfal, 12).

*– Can almaq.*

Bu, Ölüm mələyinin عليه السلام vəzifəsidir. Uca Allah buyurur: **“De: “Sizə müvəkkil olan ölüm mələyi canınızı alacaq, sonra da Rəbbinizə qaytarılacaqsınız!”** (əs-Səcdə, 11).

O, həmçinin buyurur: **“Nəhayət, sizlərdən birinə ölüm gəldiyi zaman elçilərimiz** *mələklər* **onun canını alır və** *bu işə* **etinasız yanaşmırlar.”** (əl-Ənam, 61).

*– Qəbirə qoyulan ölüdən onun Rəbbi, dini və peyğəmbəri barədə soruşmaq.*

Qəbirdə bu sualları Munkir və Nəkir verir. Ənəs ibn Malikin رضي الله عنه rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: **“Meyit, onu qəbirə qoyan və dəfn edib gedən yaxınlarının ayaq səslərini eşidir. Elə bu vaxt iki mələk gəlib onu otuzdurur və soruşur: “Bu kişi, yəni Muhəmməd ﷺ haqqında nə deyə bilərsən?” Mömin adam: “Mən şəhadət verirəm ki, o, Allahın qulu və elçisidir”– deyə cavab verir. Mələklər də ona belə buyurur: “Cəhənnəmdəki yerinə bax. Allah o yeri dəyişdirib, sənə Cənnətdə yer verdi.” Beləcə, o, hər iki yeri görür… Münafiqə və kafirə gəlincə, ondan: “Bu kişi haqqında nə deyə bilərsən?”– deyə soruşulduqda, o: “Bilmirəm. İnsanlar nə deyirdilərsə, mən də onu deyirdim”– deyə cavab verəcək. Ona: “Sən bilmirdin və tabe də olmurdun”– deyiləcək. Sonra dəmir**

**çəkiclə onun başına zərbə vurulacaq və o elə bağıracaq ki, cinlərdən və insanlardan başqa hamı onun bağırtısını eşidəcək."**[1]

Əbu Hureyranın ﷺ rəvayətində isə Peyğəmbər ﷺ belə demişdir: **"Meyit** (yaxud sizdən biriniz) **dəfn edildikdən sonra, qaralıgöylü iki mələk gəlir – birinin adı Munkir, digərininki də Nəkirdir. Onlar qəbirə qoyulmuş adamdan: "Bu kişi haqqında nə deyə bilərsən?"– deyə soruşurlar…"**[2]

*– Ana bətnindəki rüşeymin qeydinə qalmaq.*

Mələk ona ruh üfürür, onun ruzisini, əcəlini, əməllərini, xoşbəxt və ya bədbəxt olacağını yazır. Rəvayət edilir ki, Abdullah ibn Məsud ﷺ demişdir: "Doğru danışan və doğruluğu təsdiq edilmiş Rəsulullah ﷺ bizə belə bir hədis danışmışdır: **"Sizdən hər biriniz anasının bətnində xəlq edilərkən ilk qırx gün ərzində nütfə halında, sonrakı qırx gündə qan laxtası, daha sonrakı qırx gündə isə ət parçası olur. Sonra onun yanına bir mələk göndərilir və bu mələk ona ruh üfürür. Mələyə həm də dörd şeyi yazmaq əmr edilir – uşağın ruzisini, əcəlini, əməlini, bədbəxt və ya xoşbəxt olacağını."**[3]

*– Cəhənnəm gözətçiləri.*

Uca Allah buyurur: **"Biz Cəhənnəm gözətçilərini yalnız mələklərdən etdik."** (əl-Muddəssir, 31).

O, həmçinin buyurur: **"Onlar** *Cəhənnəm gözətçisini* **çağırıb deyəcəklər: "Ey Malik! Qoy Rəbbin canımızı alıb qurtarsın!" O isə: "Siz** *burada* **əbədi qalacaqsınız!"– deyəcək."** (əz-Zuxruf, 77).

O, həmçinin buyurur: **"Ey iman gətirənlər! Özünüzü və ailənizi yanacağı insanlar və daşlar olan oddan qoruyun! Onun üstündə Allahın onlara verdiyi əmrlərə** *heç vaxt* **asi olmayan, özlərinə buyurulanları yerinə yetirən amansız və güclü mələklər var."** (ət-Təhrim, 6).

---

[1] Səhih əl-Buxari, 1374; Səhih Muslim, 2870.

[2] Sünən ət-Tirmizi, 1071.

[3] Səhih əl-Buxari, 3208; Səhih Muslim, 2643.

***– Möminlər üçün bağışlanma diləyən, onlar üçün Allaha dua edən, onları müjdələyən və axirətdə onlara ehtiram göstərən mələklər.***

Uca Allah buyurur: **"Ərşi daşıyanlar və onun ətrafındakılar öz Rəbbinə həmd edərək onu tərifləyir, Ona iman gətirir və möminlər üçün bağışlanma diləyirlər: "Ey Rəbbimiz! Sənin rəhmətin və elmin hər şeyi əhatə etmişdir. Tövbə edib Sənin yolunla gedənləri bağışla və onları Cəhənnəm əzabından qoru! Ey Rəbbimiz! Onları da, onların atalarından, zövcələrindən və nəsillərindən olan əməli-saleh kimsələri də, onlara vəd etdiyin Ədn cənnətlərinə daxil et. Həqiqətən, Sən Qüdrətlisən, Hikmət sahibisən. Onları pisliklərdən qoru. O gün Sən kimi pisliklərdən qorusan, ona rəhm etmiş olarsan. Məhz bu, böyük uğurdur."** (Ğafir, 7-9).

O, həmçinin buyurur: "**Həqiqətən də: "Rəbbimiz Allahdır!"– deyib sonra düz yol tutan kəslərə mələklər nazil olub** ***deyirlər:*** **"Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətlə sevinin!**" (Fussilət, 30).

O, həmçinin buyurur: "**Mələklər** *Cənnətdəki* **hər bir qapıdan onların yanına daxil olub** *deyəcəklər*: **"***Dünyadakı çətinliklərə* **səbir etdiyinizə görə sizə salam olsun! Axirət yurdu necə də gözəldir!**" (ər-Rəd, 23-24).

# KİTABLARA İMAN

Biz qəti şəkildə etiqad etməliyik ki, uca Allah Öz peyğəmbərlərinə haqq olan, insanlara doğru yol göstərən, habelə, onlara həm mərhəmət, həm onların əleyhinə dəlil olaraq, həm də hər bir şeyi bəyan etmək üçün kitablar nazil etmişdir.

*Kitablara iman aşağıdakı məsələləri əhatə edir:*

**Birincisi: Biz iman gətirməliyik ki, bu kitabların hamısı Allahdan haqq ilə nazil edilmişdir.**

Uca Allah buyurur: **"O *bu* Kitabı sənə özündən əvvəlkiləri təsdiqləyən, həm də haqq olaraq nazil etdi. Tövratı və İncili də O nazil etdi."** (Ali-İmran, 3).

Bunlar Allahın kitabları və Onun kəlamlarıdır. Bu kitablar nə yaxın olan bir mələyin, nə də göndərilən bir peyğəmbərin sözüdür. Allahın kəlamı nöqsansız və müqəddəsdir.

**İkincisi: Biz adlarını bildiyimiz kitablara adları ilə, adlarını bilmədiklərimizə isə ümumi olaraq iman gətirməliyik.**

Bu kitabların ən əzəmətlisi üçüdür:

***1. Allahın Musaya ﷺ nazil etdiyi Tövrat.***

Uca Allah buyurur: **"*Allah* dedi: "Ey Musa! Mən vəhy etdiklərimlə və *səninlə* danışmağımla səni seçib insanlardan üstün etdim. Elə isə sənə verdiyimi götür və şükür edənlərdən ol!" Biz onun üçün lövhələrdə hər şeydən öyüd-nəsihət və hər şeyin təfsilatını yazdıq *və dedik:* "Bunları möhkəm tut və xalqına da onun ən yaxşısından tutmağı əmr et! Mən sizə fasiqlərin yurdunu göstərəcəyəm."** (əl-Əraf, 144-145).

O, həmçinin buyurur: **"Şübhəsiz ki, Biz, içində hidayət və nur olan Tövratı nazil etdik. Özlərini *Allaha* təslim edən peyğəmbərlər bununla yəhudilər arasında hökm edərdilər. Din xadimləri və elm adamları isə Allahın kitabından qorunub saxlanılanlarla *hökm verərdilər*. Onlar buna şahiddirlər."** (əl-Maidə, 44).

*2. Allahın İsaya ﷺ nazil etdiyi İncil.*

Uca Allah buyurur: **"Sonra onların ardınca dalbadal elçilərimizi yolladıq. Sonra Məryəm oğlu İsanı göndərib ona İncil bəxş etdik."** (əl-Hədid, 27).

O, həmçinin buyurur: **"Biz** *İsaya* **içərisində hidayət və nur olan, özündən əvvəlki Tövratı təsdiqləyən, müttəqilər üçün doğru yol göstərən və öyüd-nəsihət olan İncili verdik."** (əl-Maidə, 46).

*3. Allahın Muhəmmədə ﷺ nazil etdiyi Quran.*

Bu, kitabların hamısının ən əzəmətlisidir. Uca Allah buyurur: **"Biz sənə, özündən əvvəlki kitabı təsdiqləyən və onu qoruyan Kitabı haqq olaraq nazil etdik."** (əl-Maidə, 48).

O, həmçinin buyurur: **"Aləmləri xəbərdar etməsindən ötrü Öz quluna Furqanı nazil edən** *Allah ən Əzəmətli,* **xeyiri və bərəkəti bol olandır!"** (əl-Furqan, 1).

Allahın kitablarından biri də Davuda ﷺ nazil etdiyi Zəburdur. Uca Allah buyurur: **"Davuda Zəbur verdik."** (əl-İsra, 55).

Həmçinin İbrahimə ﷺ nazi etdiyi səhifələr. Bu xüsusda uca Allah buyurur: **"Həqiqətən də, bu, əvvəlki səhifələrdə İbrahimin və Musanın səhifələrində bildirilmişdir."** (əl-Əla, 18-19).

**Üçüncüsü: Biz Qurandan əvvəl nazil edilmiş kitabların təhrif edilməmiş ayələrinə iman gətirməliyik.**

Belə ki, uca Allah İsrail oğullarına nazil edilmiş kitabların həm ləfz, həm də məna baxımından təhrif edildiyini xəbər vermişdir. Uca Allah buyurur: **"***Yəhudilərdən* **bəziləri kəlmələrin yerini dəyişdilər."** (ən-Nisa, 46).

O, həmçinin buyurur: **"Onlardan elə bir dəstə də vardır ki, oxuduqlarını Kitabdan hesab edəsiniz deyə, Kitabı oxuyarkən dillərini əyib bükürlər. Halbuki, bu, Kitabdan deyildir. Onlar: "Bu, Allah tərəfindəndir!"– deyirlər. Halbuki bu, Allah tərəfindən də deyildir. Onlar bilə-bilə Allaha qarşı yalan söyləyirlər."** (Ali-İmran, 78).

Əzəmətli Qurana gəlincə, uca Allah onu qoruyacağını Öz öhdəsinə götürmüşdür. Uca Allah buyurur: **"Şübhəsiz ki, Zikri** (Quranı) **Biz nazil etdik və əlbəttə, Biz də onu qoruyacağıq."** (əl-Hicr, 9).

O, həmçinin buyurur: **"Şübhə yox ki, Zikr onlara gəldiyi zaman onu yalan sayanlar *cəzalandırılacaqlar*. Həqiqətən, bu, əzəmətli bir Kitabdır. Batil ona nə önündən, nə də arxasından girişə bilər. O, Hikmət sahibi, tərifəlayiq *Allah* tərəfindən nazil edilmişdir."** (Fussilət, 41-42).

Buna əsasən demək olar ki, Kitab əhlinin kitablarında zikr edilən, istilahi mənada *israiliyyat* adlanan əhvalatlar və xəbərlər üç qismdir:

*1-ci qism* Qurandakı ayələrə müvafiq olanlardır. Kitabımız bu xəbərləri təsdiqlədiyinə görə, biz onların doğru olduğuna etiqad edirik. Məsələn, Nuhun عليه السلام zamanında baş vermiş tufan, İbrahimin عليه السلام, Yusufun عليه السلام, Musanın عليه السلام əhvalatları, Firon və ordusunun dənizdə qərq edilməsi, İsanın عليه السلام dəlilləri və başqa bu kimi xəbərlər. Yalnız bəzi təfsilatlar istisnadır.

*2-ci qism* Qurana müxalif olanlardır. Biz etiqad edirik ki, bunlar yəhudilərin uydurduğu, öz əlləri ilə yazdıqları və dillərini əyərək oxuduqları batil xəbərlərdir. Məsələn, onlar iddia edirlər ki, Lut عليه السلام şərab içmiş və öz qızları ilə zina etmişdir. Allah onu ehtirama layiq peyğəmbər etmiş və hər cür günahdan qorumuşdur. Həmçinin, iddia edirlər ki, İsa عليه السلام Allahdır, yaxud Allahın oğludur və ya üçlüyün (üç ilahın) üçüncüsüdür. Allah onların dediklərindən uzaqdır və ucadır.

*3-cü qism* xəbərlər isə nə Qurana müvafiq, nə də müxalif olanlardır. Belə xəbərləri biz nə təsdiq edir, nə də təkzib edirik. Buna dəlil Peyğəmbərin ﷺ bu hədisidir: **"Kitab əhli sizə hekayət danışsa, onu nə təsdiqləyin, nə də təkzib edin! Sadəcə deyin: "Biz Allaha, Onun kitablarına və peyğəmbərlərinə iman gətirdik." Əgər o rəvayət doğru olmuş olsa, onu təkzib etmiş olmayacaqsınız, yox əgər batil olmuş olsa, onu təsdiqləmiş olmayacaqsınız."**[1]

[1] Musnəd İmam Əhməd, 17225; Sunən Əbu Davud, 3644.

Lakin qeyd etmək lazımdır ki, belə hekayətləri danışmaq icazəlidir. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: **"İsrail oğulları adından hekayətlər danışın** ***və bilin ki,*** **bunda heç bir qəbahət yoxdur."**[1] Bu hekayətlərin çoxunda nə bir fayda var, nə də onlara ehtiyac.

**Dördüncüsü: Quranın qanunları ilə hökm vermək vacibdir.**

Uca Allah əzəmətli Quranı əvvəlki kitabları qoruyan, yəni barəsində hökm verən, mühafizə edən və onlara şahid olan olaraq nazil etmişdir. Quran o kitablarda olan faydaların hamısını özündə cəm etmişdir. Bundan başqa o, əvvəlki kitablardakı bəzi əhkamları ləğv etmiş, bəzilərini təsdiqləmiş, üstəlik, onlara əlavələr də etmişdir. Qurandakı qanunlardan başqa qanunlara tabe olmaq olmaz. Uca Allah Tövrat və İncili zikr etdikdən sonra belə buyurur: **"Biz sənə, özündən əvvəlki kitabı təsdiqləyən və onu qoruyan Kitabı haqq olaraq nazil etdik. Sən onların arasında, Allahın nazil etdiyi ilə hökm ver. Sənə gələn haqqı buraxıb onların istəklərinə tabe olma. Sizin hər biriniz üçün bir şəriət və bir yol təyin etdik. Allah istəsəydi, sizi tək bir ümmət edərdi. Fəqət** *fərqli şəriətlər,* **sizə verdikləri ilə sizi imtahan etməsi üçündür. Elə isə yaxşı işlər görməkdə bir-birinizlə yarışın. Hamınızın dönüşü Allahadır. O, ixtilaf etdiyiniz şeylər barəsində sizə xəbər verəcəkdir. Onların arasında Allahın nazil etdiyi ilə hökm ver və onların istəklərinə uyma. Onlardan ehtiyat et ki, Allahın sənə nazil etdiyi** *hökmlərin* **bəzisindən səni sapdırmasınlar. Əgər onlar üz döndərsələr, bil ki, Allah onları bəzi günahlarına görə müsibətə düçar etmək istəyir. Həqiqətən, insanların çoxu fasiqlərdir. Yoxsa onlar cahiliyyət** *dövrünün* **hökmünü istəyirlər?** *Nəyin haqq olduğunu* **yəqin bilən bir camaat üçün Allahdan daha yaxşı hökm verən kim ola bilər?!"** (əl-Maidə, 48-50).

O, həmçinin buyurur: "(Ey Muhəmməd!) **Allahın sənə öyrətdiyi ilə insanlar arasında hökm verəsən deyə, Biz sənə Kitabı haqq olaraq nazil etdik. Odur ki, xainlərin tərəfini tutma."** (ən-Nisa, 105).

[1] Səhih əl-Buxari, 3461.

**Beşincisi: Kitabların bir qisminə deyil, hamısına iman gətirməliyik.**

Uca Allah buyurur: **"Yoxsa siz Kitabın bir qisminə inanıb, digər qisminə küfr edirsiniz?! Sizlərdən bunu edənin cəzası dünya həyatında ancaq rüsvay olmaq, Qiyamət günü isə ən şiddətli əzaba düçar olmaqdır. Allah sizin etdiklərinizdən qafil deyildir."** (əl-Bəqərə, 85).

O, həmçinin buyurur: **"Bax, siz o kəslərsiniz ki, onlar sizi sevmədiyi halda siz onları sevirsiniz. Siz *nazil olmuş* kitabların hamısına inanırsınız."** (Ali-İmran, 119).

**Altıncısı. Ayələri gizlətmək, təhrif etmək, barəsində ixtilaf etmək və Allahın kəlamını bir-birinə qarşı qoymaq haram sayılır.**

Uca Allah buyurur: **"Bir zaman Allah Kitab verilənlərdən: "Siz o *kitabı* mütləq insanlara açıqlayacaqsınız və onu gizlətməyəcəksiniz!"– deyə əhd almışdı. Onlar isə bu əhdi qulaqardına vurub onu ucuz qiymətə satdılar. Onların bu alış-verişi necə də pisdir!"** (Ali-İmran, 187).

O, həmçinin buyurur: **"Şübhəsiz ki, Allahın nazil etdiyi kitabdan *bir şey* gizlədib onun müqabilində cüzi miqdarda *pul* əldə edənlər öz qarınlarına oddan başqa bir şey doldurmurlar. Qiyamət günü Allah onları danışdırmayacaq və onları təmizə çıxarmayacaqdır. Onlar üçün ağrılı-acılı bir əzab vardır. Onlar doğru yol qarşılığında azğınlığı, bağışlanma qarşılığında da əzabı satın alan kimsələrdir. Onlar *Cəhənnəm* oduna necə də səbirlidirlər! Bu ona görədir ki, Allah kitabı haqq olaraq nazil etmişdir. Kitab barəsində ixtilaf edənlər isə, əlbəttə, *haqdan* uzaq bir ziddiyyət içindədirlər."** (əl-Bəqərə, 174-176).

O, həmçinin buyurur: **"Vay o şəxslərin halına ki, onlar öz əlləri ilə kitab yazır, sonra da: "Bu, Allah tərəfindəndir!"– deyirlər ki, bunun sayəsində bir az pul əldə etsinlər. Öz əlləri ilə yazdıqlarına görə vay onların halına! Qazandıqları şeyə görə də vay onların halına!"** (əl-Bəqərə, 79).

Hədisdə isə deyilir ki, bir dəfə Peyğəmbər ﷺ bir dəstə adamın Allahın ayələri barədə fikir mübadiləsi etdiyini görüb dedi: **"Sizdən əvvəlkiləri də elə bu əməl həlak etmişdir – onlar Allahın ayələrini bir-birinə qarşı qoyurdular. Halbuki, Allahın ayələrinin biri digərini təsdiqləyir. Elə isə hər hansı bir ayəyə əsaslanıb digərini təkzib etməyin. Bildiyiniz ayə barədə danışın, bilmədiyinizi isə bilənlərə həvalə edin."**[1]

[1] Musnəd İmam Əhməd, 6741.

# PEYĞƏMBƏRLƏRƏ İMAN

Biz qəti şəkildə etiqad etməliyik ki, uca Allah insanlar arasından dilədiyi kişiləri seçib onlara vəhy nazil etmiş, onları müjdə verən və əzabla qorxudan peyğəmbərlər olaraq göndərmiş, onlar da Allahın risalətini Onun yaratdıqlarına təbliğ etmişlər. O risalət ki, onları tək Allaha ibadət etmək və heç nəyi Ona şərik qoşmamaq üşün, üstəlik, onlara həm mərhəmət, həm də onların əleyhinə dəlil olaraq nazil olmuşdur.

Uca Allah buyurur: **“Allah mələklərdən də elçilər seçir, insanlardan da. Həqiqətən, Allah Eşidəndir, Görəndir!”** (əl-Həcc, 75).

O, həmçinin buyurur: **“*Ey Peyğəmbər!* Biz səndən əvvəl də, özlərinə vəhy etdiyimiz yalnız kişiləri *peyğəmbər* göndərmişdik. Əgər bilmirsinizsə, zikr əhlindən soruşun.”** (ən-Nəhl, 43).

O, həmçinin buyurur: **“*Biz* müjdə verən və qorxudan elçilər *göndərdik* ki, insanların elçilərdən sonra Allaha qarşı bir bəhanəsi olmasın. Allah qüdrətlidir, hikmət sahibidir.”** (ən-Nisa, 165).

Yenə O buyurur: **“Biz hər ümmətə: “Allaha ibadət edin, tağutdan uzaq olun!”– *deyə* peyğəmbər göndərmişik.”** (ən-Nəhl, 36).

*Peyğəmbərlərə iman gətirmək mövzusuna aşağıdakılar aiddir:*

**Birincisi: İman gətirməliyik ki, onların təbliğ etdiyi risalət yalnız Allahın istəyi və hikməti ilə nazil olmuşdur.**

Uca Allah buyurur: **“Onlara bir ayə gəldikdə: “Allahın peyğəmbərlərinə verilənin bənzəri bizə də verilməyincə iman gətirməyəcəyik”– dedilər. Allah peyğəmbərliyi kimə verəcəyini daha yaxşı bilir.”** (əl-Ənam, 124).

O, həmçinin buyurur: **“Onlar dedilər: “Nə üçün bu Quran iki şəhərdən** (Məkkədən və ya Taifdən) **olan böyük bir adama nazil edilmədi?” Sənin Rəbbinin mərhəmətini onlarmı bölüşdürürlər? Biz dünya həyatında onların dolanışıqlarını aralarında bölüşdürdük. Biri digərini öz yanına işçi götürsün deyə, bəzilərinin dərəcələrini**

**digərlərindən üstün etdik. Sənin Rəbbinin mərhəməti onların yığdıqlarından daha xeyirlidir."** (əz-Zuxruf, 31-32).

Qeyd edək ki, bəzi azğın sufilərin iddia etdiyi kimi, peyğəmbərlik və elçilik məqamına təcrübə ilə və ya səy göstərməklə yetişmək mümkün deyil. Eləcə də, filosofların iddia etdiyi kimi, fövqəladə, yaxud xəyali və gerçək qüvvənin təsiri nəticəsində bu məqama yetişmək mümkün deyil. Əksinə, bu, yalnız Allahın seçimi və Onun lütfü sayəsində, Onun məxluqatı arasında buna layiq bildiyi möhtərəm insanlara verilmişdir.

**İkincisi: Allahın peyğəmbərlərinin hamısına iman gətirməliyik.**

Adlarını bildiyimiz peyğəmbərlərə adları ilə, adlarını bilmədiklərimizə isə ümumi olaraq iman gətirməliyik. Onlardan bəzilərinin adları uca Allahın bu ayəsində – İbrahim عليه السلام zikr edildikdən sonra zikr edilir: **"Biz ona İshaqı və Yəqubu bəxş etdik. Onların hər ikisini doğru yola yönəltdik. *Bundan* əvvəl Nuhu da, onun zürriyyətindən olan Davudu, Süleymanı, Əyyubu, Yusufu, Musanı və Harunu da doğru yola yönəltmişdik. Biz yaxşı əməl sahiblərini belə mükafatlandırırıq. Zəkəriyyanı, Yəhyanı, İsanı və İlyası da *doğru yola yönəltmişdik.* Hamısı əməlisalehlərdən idilər. İsmaili, Əlyəsəni, Yunusu və Lutu da *doğru yola yönəltmişdik.* Hamısını aləmlərdən üstün etdik."** (Əl-Ənam, 84-86).

O, həmçinin buyurur: **"Biz səndən əvvəl də elçilər göndərmişdik. Onlardan bəziləri haqqında sənə danışmışıq, bəziləri haqqında isə danışmamışıq."** (Ğafir, 78).

Onların hamısına iman gətirmək vacibdir, çünki onların hamısının dəvəti eyni olmuşdur. Uca Allah buyurur: **"*Allah* Nuha tövsiyə etdiyini, sənə vəhy etdiyimizi, İbrahimə, Musaya və İsaya tövsiyə etdiyimizi sizin üçün də dində qanun etdi: "Dinə doğru-düzgün etiqad edin və onda bölünüb firqə-firqə olmayın!"** (əş-Şura, 13).

Onlardan birinə küfr etmək hamısına küfr etmək deməkdir. Uca Allah buyurur: **"Nuh qövmü də elçiləri yalançı saydı."** (əş-Şuəra, 105). Halbuki Nuh عليه السلام elçilərin birincisi idi. Odur ki, elçilər arasında

fərq qoymaq, bəzilərinə iman gətirib, bəzilərini inkar etmək olmaz – kim belə edərsə, küfr etmiş olar. Uca Allah buyurur: **“Allaha və Onun elçilərinə küfr edənlər, Allahla elçilərini bir-birindən ayırmaq istəyib: “Biz *o elçilərin* bəzisinə inanır, bəzilərinə isə inanmırıq!”– deyənlər və bunun arasında bir yol tutmaq istəyənlər – məhz onlar əsl kafirlərdir. Biz kafirlər üçün alçaldıcı bir əzab hazırlamışıq. Allaha və Onun elçilərinə iman gətirən və onlardan heç birini digərindən ayırmayanlara *gəlincə*, Allah onlara öz mükafatlarını verəcəkdir. Allah bağışlayandır, rəhmlidir.”** (ən-Nisa, 150-152).

**Üçüncüsü: Onların dediklərinin doğru olduğunu təsdiqləmək və Allahdan xəbər verdiklərini qəbul etmək.**

Uca Allah buyurur: **“Ey insanlar! Peyğəmbər sizə Rəbbinizdən haqqı gətirdi. Elə isə *ona* iman gətirin! *Bu* sizin üçün xeyirli olar. Əgər küfr etsəniz, şübhəsiz ki, göylərdə və yerdə nə varsa, Allaha məxsusdur. Allah *hər şeyi* biləndir, hikmət sahibidir.”** (ən-Nisa, 170).

O, həmçinin buyurur: **“Haqqı gətirən və onu təsdiq edənlər isə əsl müttəqilərdir.”** (əz-Zumər, 33).

O, həmçinin buyurur: **“And olsun batmaqda olan ulduza! Sizin yoldaşınız nə *haqdan* azmış, nə də *yoldan* çıxmışdır. O öz istəyi ilə danışmır. Bu, ona təlqin edilən bir vəhydir. Bunu ona çox qüvvətli olan öyrətdi”** (ən-Nəcm, 1-5).

Əvvəlki peyğəmbərlərin xəbərlərindən səhih mənbələrdə varid olmuş, yəni Allahın kitabında və ya Peyğəmbərinin ﷺ səhih sünnəsində zikr edilən hər bir xəbəri təsdiqləmək vacibdir. Kitab əhlindən *israiliyyatda* zikr edilənlərə gəlincə, onlarla bu kitabın “Kitablara iman” bölümündə izah etdiyimiz şəkildə davranmalıyıq. Peyğəmbərimiz Muhəmmədə ﷺ istinadən rəvayət edilmiş hədislərə gəldikdə isə, biz onları mühəddislərin qoyduğu qaydalara əsasən, səhih olanını zəif olanından ayırmalı və yalnız səhih olanlarını qəbul etməli və ona iman gətirməliyik.

**Dördüncüsü: Onlara itaət etməli, onların yolunu tutub getməli və hökm vermək üçün onlara müraciət etməliyik.**

Uca Allah buyurur: **"Biz hər bir elçini, – Allahın izni ilə, – məhz itaət edilsin deyə göndərdik."** (ən-Nisa, 64).

Hər bir ümmətə özlərinə göndərilmiş peyğəmbərə itaət etmək vacib buyurulmuşdur. Peyğəmbərlərin ﷺ sonuncusu Muhəmməd ﷺ peyğəmbər göndərildikdə isə, onun şəriəti əvvəlki şəriətlərin hamısını ləğv etmişdir. Odur ki, onun barəsində eşidən hər kəsə ona itaət etmək və onun yolunu tutub getmək vacibdir. Uca Allah buyurur: "**O kəslər ki, yanlarındakı Tövrat və İncildə, barəsində yazılmış olduğunu gördükləri elçinin – yazıb-oxumaq bilməyən peyğəmbərin ardınca gedərlər. O *peyğəmbər* onlara yaxşı işlər görməyi buyurar, pis əməlləri isə qadağan edər, onlara pak şeyləri halal, murdar şeyləri isə haram edər. Onların ağır yüklərini yüngülləşdirər və onları buxovlardan xilas edər. Ona iman gətirən, onu dəstəkləyən, ona kömək edən və onunla göndərilmiş nurun ardınca gedənlər isə nicat tapanlardır." De: "Ey insanlar! Şübhəsiz ki, mən sizin hamınız üçün Allahın elçisiyəm. Göylərin və yerin mülkü Ona məxsusdur, Ondan başqa *ibadətə layiq olan* məbud yoxdur. O həm dirildir, həm də öldürür. Elə isə Allaha və Onun Elçisinə – yazıb-oxumaq bilməyən, həm də Allaha və Onun kəlmələrinə inanan peyğəmbərə iman gətirin. Onun ardınca gedin ki, bəlkə doğru yola yönələsiniz.**" (əl-Əraf, 157-158).

O, həmçinin buyurur: **"De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da, sizi sevsin və günahlarınızı bağışlasın. Allah çox bağışlayandır, rəhmlidir." De: "Allaha və *Onun göndərdiyi* Rəsula itaət edin!" Əgər üz döndərsələr, *bilsinlər ki,* Allah, həqiqətən də, kafirləri sevməz."** (Ali-İmran, 31-32).

O, həmçinin buyurur: **"Xeyr, sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim təyin etməyincə, sonra da verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam şəkildə təslim olmayınca iman gətirmiş olmazlar."** (ən-Nisa, 65).

**Beşincisi: Onları dost qəbul etmək, onları sevmək, onlara ehtiram göstərmək və onlara salam vermək.**

Uca Allah buyurur: **"Sizin dostunuz yalnız Allah, Onun rəsulu və** ***Allahın*** **əmrlərinə boyun əyərək namaz qılan və zəkat verən möminlərdir. Kim Allahı, Onun rəsulunu və iman gətirənləri** ***özünə*** **dost tutarsa,** ***bilsin ki,*** **qələbə çalanlar məhz Allahın firqəsidir."** (əl-Maidə, 55-56).

O, həmçinin buyurur: **"İsa onlardakı küfrü hiss etdikdə, dedi: "Allah yolunda kimlər mənə yardımçı olacaq?" Həvarilər dedilər: "Bizik Allahın** ***dininin*** **yardımçıları! Biz Allaha iman gətirdik. Sən də şahid ol ki, biz müsəlmanıq!"** (Ali-İmran, 52).

O, həmçinin buyurur: **"De: "Əgər atalarınız, oğullarınız, qardaşlarınız, zövcələriniz, yaxın qohumlarınız, qazandığınız mallar, iflasa uğramasından qorxduğunuz alış-verişiniz və bəyəndiyiniz məskənlər sizə Allahdan, Onun Elçisindən və Onun yolunda cihaddan daha əzizdirsə, Allah Öz əmrini verincəyə qədər gözləyin. Allah günahkar qövmü doğru yola yönəltməz."** (ət-Tövbə, 24).

Yenə O buyurur: **"Elçilərə salam olsun!"** (əs-Saffat, 181).

O Öz peyğəmbəri Muhəmməd ﷺ barədə belə buyurur: ***"Biz belə etdik*** **ki, siz Allaha və Onun rəsuluna iman gətirəsiniz, ona kömək edəsiniz, onun hörmətini saxlayasınız və səhər-axşam** ***Allahı*** **tərifləyəsiniz."** (əl-Fəth, 9).

O, həmçinin buyurur: **"Həqiqətən də, Allah və Onun mələkləri Peyğəmbərə xeyir-dua verirlər. Ey iman gətirənlər! Siz də ona xeyir-dua verib kamil ədəb-ərkanla** ***onu*** **salamlayın."** (əl-Əhzab, 56).

Peyğəmbər ﷺ isə belə demişdir: **"Sizdən biriniz məni valideynindən, övladından və bütün insanlardan çox istəməyincə, iman gətirmiş olmaz."**[1]

[1] Səhih əl-Buxari, 15; Səhih Muslim, 44.

# AXİRƏT GÜNÜNƏ İMAN

Biz qəti şəkildə etiqad etməliyik ki, dünya həyatı bitdikdən sonra uca Allah qullarını dirildib qəbirlərindən çıxardacaq ki, onları əməllərinə görə haqq-hesaba çəksin və əməllərinin əvəzi olaraq onları ya cənnətlik, ya da cəhənnəmlik etsin.

Uca Allah buyurur: **“*Allah* sadəcə onları *cəzalandırmağı* gözlərin bərələ qalacağı günə saxlayır.”** (İbrahim, 42).

O, həmçinin buyurur: **“Kafir olanlar heç vaxt dirildilməyəcəklərini iddia edirlər. De: “Xeyr, Rəbbimə and olsun ki, siz mütləq dirildiləcəksiniz. Sonra isə etdiyiniz əməllər sizə xəbər veriləcək. Bu, Allah üçün çox asandır!”** (ət-Təğabun, 7).

O, həmçinin buyurur: **“Məhz *Qiyamət* saatının gələcəyi gün *möminlərlə kafirlər* ayrılacaqlar. İman gətirib yaxşı işlər görənlərə gəlincə isə, onlar Cənnət bağçalarında şadlıq içində olacaqlar. Kafir olub ayələrimizi və axirətə qovuşacaqlarını yalan sayanlar isə əzaba giriftar ediləcəklər.”** (ər-Rum, 14-16).

*Axirət gününə iman gətirmək mövzusuna aşağıdakılar aiddir:*

**Birincisi: Ölümdən sonra baş verənlərə – insanın ölüm anında mələkləri öz gözlərilə görəcəyinə, qəbirdə iki mələyin ondan Rəbbi, dini və peyğəmbəri barədə soruşacağına, qəbirdə kafirə əzab, möminə isə nemət veriləcəyinə və s. bərzəx həyatında baş verənlərə iman gətirməkdir.**

Uca Allah buyurur: **“Kaş sən kafirləri mələklər onların canını alarkən görəydin. *Mələklər* onların üzünə və yanlarına vura-vura *deyirdilər:* “Dadın yandırıcı odun əzabını!”** (əl-Ənfal, 50).

O, həmçinin buyurur: **“Həqiqətən də: “Rəbbimiz Allahdır!”– deyib sonra düz yol tutan kəslərə mələklər nazil olub *deyirlər:* “Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətlə sevinin!”** (Fussilət, 30).

O, həmçinin buyurur: **"Zalımları ölüm girdabında olduqları zaman, mələklərin də əllərini uzadıb onlara: "Canınızı çıxarın! Allaha qarşı nahaq sözlər söylədiyinizə və Onun ayələrinə təkəbbür göstərdiyinizə görə bu gün siz alçaldıcı bir əzabla cəzalandırılacaqsınız!"–** ***dediklərini*** **bircə görəydin."** (əl-Ənam, 93).

O, həmçinin buyurur: **"Firon nəslini isə dəhşətli əzab bürüdü. Onları səhər-axşam oda salırlar.** ***Qiyamət*** **saatı gələcəyi gün isə; Firon nəslini ən şiddətli əzaba salın!"** (Ğafir, 46).

Ənəs ibn Malikin ﵁ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: **"Meyit qəbirə qoyulub, sonra da yaxınları onu dəfn edib getdikdə, onların ayaq səslərini eşidir. Elə bu vaxt iki mələk gəlib onu otuzdurur və soruşur: "Bu kişi, yəni Muhəmməd ﷺ haqqında nə deyə bilərsən?" Mömin adam: "Mən şəhadət verirəm ki, o, Allahın qulu və rəsuludur"– deyə cavab verir. Mələklər də ona belə buyurur: "Cəhənnəmdəki yerinə bax. Allah o yeri dəyişdirib, Cənnətdə sənə yer verdi." Beləcə, o, hər iki yeri görür… Münafiqə və kafirə gəlincə, ondan: "Bu kişi haqqında nə deyə bilərsən?"– deyə soruşulduqda, o: "Bilmirəm. İnsanlar nə deyirdilərsə, mən də onu deyirdim"– deyə cavab verəcək. Ona: "Sən bilmirdin və tabe də olmurdun"– deyiləcək. Sonra dəmir çəkiclə onun başına zərbə vurulacaq və o elə bağıracaq ki, cinlərdən və insanlardan başqa hamı onun bağırtısını eşidəcək."**[1]

Rəvayət edilir ki, İbn Abbas ﵄ demişdir: "Bir dəfə Peyğəmbər ﷺ iki qəbrin yanından keçərkən dedi: **"Bu ikisi** ***qəbirdə*** **əzab çəkir, amma elə də böyük bir şeyə görə əzab çəkmirlər. Bunlardan biri sidikdən qorunmazdı, digəri isə söz gəzdirərdi."** Sonra o, bir xurma budağı gətirməyi əmr etdi. Budağı iki böldü və hər birinin qəbrinin üstünə budağın bir yarısını sancdı. Ondan: "Ya Rəsulullah! Nə üçün belə etdin?"– deyə soruşdular. O dedi: **"Ola bilsin ki, bunlar quruyanadək onların əzabı yüngülləşsin."**[2]

---

[1] Səhih əl-Buxari, 1374; Səhih Muslim, 2870.

[2] Səhih əl-Buxari, 218; Səhih Muslim, 292.

**İkincisi: Qiyamət gününə və onun əlamətlərinə iman gətirmək.**

Uca Allah buyurur: **"Kitabı və tərəzini gerçək həqiqət kimi nazil edən Allahdır. Nə bilirsən, bəlkə də *Qiyamət* saatı yaxındır. *Qiyamətə* inanmayanlar onun tez gəlib çatmasını istəyirlər. Möminlər isə ondan qorxur və onun həqiqət olduğunu bilirlər. Şübhəsiz ki, *Qiyamət* saatı barəsində mübahisə edənlər dərin bir azğınlıq içindədirlər."** (əş-Şura, 17).

O, həmçinin buyurur: **"Yoxsa *kafirlər Qiyamət* saatının qəfildən onlara gəlməsindən başqa bir şeymi gözləyirlər?! Artıq onun əlamətləri gəlmişdir. O *saat* onlara gəlib yetişdiyi zaman ibrət almaları nəyə yarayar?!"** (Muhəmməd, 18).

Qiyamətin böyük əlamətlərinə dəlil, Peyğəmbərin ﷺ bu sözüdür: **"Doğrusu, on əlamət baş verməyincə Qiyamət qopmayacaq: tüstünün gəlməsi, Dəccalın peyda olması, heyvanın zühur etməsi, günəşin məğribdən çıxması, Məryəm oğlu İsanın yerə enməsi, Yəcuc və Məcucun axışıb gəlməsi, üç yerdə – məşriqdə, məğribdə və bir də Ərəb yarımadasında yerə batma və son olaraq Yəməndən alovun çıxıb insanları məhşərə qovması."**[1]

Qiyamət saatı ani olaraq qəfil gələcək. Uca Allah buyurur: **"Səndən *Qiyamət* saatı barəsində soruşurlar ki, nə vaxt qopacaq? De: "Bu haqda bilgi ancaq Rəbbimə aiddir. *Qopacağı* vaxtı yalnız O, aşkara çıxara bilər. *Bu bilgi* göylərə və yerə də ağır gəlir. O sizə qəflətən gələcəkdir." Sanki onu bilirmişsən kimi səndən soruşurlar. De: "Bu haqda bilgi ancaq Allaha aiddir. Lakin insanların çoxu *bunu* bilmir."** (əl-Əraf, 187).

O, həmçinin buyurur: **"Göylərin və yerin qeybini *bilmək* Allaha aiddir. *Qiyamət* saatının gəlməsi bir göz qırpımı kimidir və ya daha tezdir. Həqiqətən, Allah hər şeyə qadirdir."** (ən-Nəhl, 77).

Qiyamət, sura üfürüldükdə başlayacaq. Uca Allah buyurur: **"Sur üfürüləcək və Allahın istədiyi kimsələrdən başqa göylərdə və yerdə kim varsa, hamısı öləcək."** (əz-Zumər, 68).

[1] Səhih Muslim, 2901.

**Üçüncüsü: Dirilməyə iman gətirməkdir.**

Bu, uca Allahın Öz bəndələrini qəbirlərindən ayaqyalın, çılpaq, sünnət olunmamış və yanlarında da heç bir şey olmadığı halda dirildib çıxartmasıdır. Bu, ikinci dəfə sura üfürüldükdən sonra baş verəcək. Uca Allah buyurur: **"Sonra bir daha ona üfürülən kimi onlar qalxıb baxacaqlar."** (əz-Zumər, 68).

O, həmçinin buyurur: **"Sur *ikinci dəfə* üfürülən kimi onlar dərhal qəbirlərdən çıxıb Rəbbinə tərəf axışacaqlar."** (Ya sin, 51).

Peyğəmbər ﷺ demişdir: **"Qiyamət günü siz ayaqyalın, lüt-üryan və sünnət olunmamış halda məhşərə toplanacaqsınız."**[1]

**Dördüncüsü: Böyük Qiyamətdə baş verəcək hadisələrə iman gətirməkdir.**

Uca Allah buyurur: **"O gün insanlar qalxıb aləmlərin Rəbbinin qarşısında duracaqlar."** (əl-Mutaffifin, 6).

Bu, Qiyamət günü insanların haqq-hesaba çəkilmək üçün *Ərəsatda*[2] öz Rəbbi hüzurunda durmasıdır. Həmin gün onlar carçının səsini eşidəcək və məhşərdə baş verənləri öz gözləri ilə görəcəklər, üstəlik, günəş onlara yaxınlaşacaq və onların tər suyu ağızlarına qədər qalxacaq. Habelə, hovuz onlara yaxınlaşdırılacaq, onlara əməlləri yazılmış kitablar veriləcək, tərəzilər qoyulacaq və Cəhənnəmin üzərinə körpü salınacaq. Bütün bu hadisələr dəhşətli və qorxulu olacaq.

**Beşincisi: Haqq-hesaba çəkilməyə iman gətirməkdir.**

Uca Allah buyurur: **"Şübhəsiz ki, onların dönüşü Bizədir. Sonra onları sorğu-suala çəkmək də Bizə aiddir."** (əl-Ğaşiyə, 25-26).

O, həmçinin buyurur: **"Kimin kitabı sağ əlinə veriləcəksə, o, yüngül haqq-hesaba çəkiləcək."** (əl-İnşiqaq, 7-8).

[1] Səhih əl-Buxari, 6527; Səhih Muslim, 2859.

[2] *Ərəsat* – məhşər günü insanların dirilib öz əməllərinə görə haqq-hesaba çəkilmək üçün toplaşacaqları yer.

O, həmçinin buyurur: **"Zərrə qədər yaxşılıq edən *əvəzini* alacaqdır. Zərrə qədər pislik edən də *əvəzini* alacaqdır."** (əz-Zəlzələ, 7-8).

O, həmçinin buyurur: **"Biz Qiyamət günü ədalət tərəziləri ilə haqq-hesab çəkəcəyik. Heç kimə hər hansı bir şeydə ədalətsizlik edilməyəcəkdir. *Görülmüş iş* bir xardal dənəsi mislində olsa belə, onu gətirib *tərəziyə* qoyacağıq. Biz haqqı araşdırmağa bəs edərik."** (əl-Ənbiya, 47).

*Məxluqatın haqq-hesaba çəkilməsi iki növdür:*

***1. Möminlərin haqq-hesaba çəkilməsi.*** Bu haqq-hesab ya ərz edilərək, ya da münaqişə edilərək baş verəcək.

Ərz edilərək imtahana çəkilənlər, Allahın əzəldən xoşbəxt olacağını yazdığı kimsələrdir. Buna dəlalət edən hədisdə İbn Ömər ﵄ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: **"Allah mömini Özünə tərəf yaxınlaşdıracaq, ona mərhəmət göstərəcək, insanlarla onun arasına örtü çəkəcək və ona: "Filan günahı *etdiyini* bilirsənmi? Filan günahı *etdiyini* bilirsənmi?"– deyə soruşacaq. *Mömin*: "Bəli, ey Rəbbim!"– deyə cavab verəcək. Nəhayət, Allah ona günahlarını etiraf etdirdikdə və o, özü-özlüyündə həlak olduğunu güman etdikdə, Allah buyuracaq: "Dünyada sənin günahlarını ört-basdır etdim, bu gün də Mən sənin günahlarını bağışlayıram." Sonra ona *içində* yaxşı əməlləri yazılmış kitabı veriləcək."**[1]

Münaqişə ilə aparılan haqq-hesab isə tövhid əhlindən olan böyük günah sahibləri üçün olacaq. O kəslər ki, Allah onların Cəhənnəmdə əzab çəkməsinə hökm verəcək, lakin onlar günahlardan təmizləndikdən sonra Cənnətə gedəcəklər. Buna dəlalət edən hədisdə Aişə ﵂ rəvayət edir ki, bir gün Peyğəmbər ﷺ dedi: **"Kim haqq-hesaba çəkilsə, həlak olacaq."** Mən dedim: "Ya Rəsulullah! Məgər uca Allah buyurmur ki: **"Kimin kitabı sağ əlinə veriləcəksə, o, yüngül sorğu-suala çəkiləcək"?**[2] Onda Peyğəmbər ﷺ dedi: **"Bu yalnız *əməllərin***

[1] Səhih əl-Buxari, 2441; Səhih Muslim, 2768.

[2] "əl-İnşiqaq" surəsi, 7-8-ci ayələr.

**ərz edilməsinə aiddir. Qiyamət günü əməlləri bircə-bircə haqq-hesaba çəkilən kimsə isə həlak olacaqdır.”**[1]

***2. Kafirlərin haqq-hesaba çəkilməsi.***

Kafirlər haqq-hesaba çəkildikdə savab əməlləri ilə günah əməlləri müqayisə üçün tərəzidə çəkilməyəcək, çünki onların əsla savabı olmayacaq. Uca Allah buyurur: **“Biz onların etdikləri əməllərə baxdıqdan sonra onları sovrulmuş toz dənəciklərinə çevirərik.”** (əl-Furqan, 23).

Kafirlərin əməlləri onlara göstəriləcək və onlar bu əməlləri etiraf edəcəklər. İbn Ömərin ﵄ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: **“Kafirə və münafiqlərə gəlincə, carçı səslənərək onların barəsində: “Bunlar Rəbbinə iftira yaxanlardır! Allahın lənəti olsun zalımlara!”– deyəcək.”**[2]

**Altıncısı: Əməllərin əvəzinin veriləcəyinə iman gətirmək.**

Bu, Cənnətin və Cəhənnəmin haqq olduğuna iman gətirməkdir.

Cənnət, Allahın Öz qullarından müttəqi olanlar üçün mükafat olaraq hazırladığı yurddur. Onun içində heç bir gözün görmədiyi, heç bir qulağın eşitmədiyi və heç bir qəlbin düşünmədiyi həm hissi, həm də mənəvi nemətlər vardır.

Cəhənnəm isə, Allahın kafirlər üçün cəza olaraq hazırladığı yurddur. Onun içində həm hissi, həm də mənəvi əzab vardır. Bu xüsusda uca Allah belə buyurur: **“Sonra, Kitabı qullarımız içərisindən seçdiklərimizə miras etdik. Onlardan kimisi özünə zülm edər, kimisi orta yol tutar, kimisi də Allahın izni ilə yaxşı işlərdə öndə gedər. Böyük lütf də budur. Onlar Ədn cənnətlərinə daxil olacaq, orada qızıl bilərziklərlə və incilərlə bəzədiləcəklər. Libasları da ipəkdən olacaqdır. Onlar deyəcəklər: “Həmd, qəm-qüssəni bizdən uzaq edən Allaha məxsusdur! Həqiqətən, Rəbbimiz bağışlayandır,**

---

[1] Səhih əl-Buxari, 6537; Səhih Muslim, 2876.

[2] Səhih əl-Buxari, 2441; Səhih Muslim, 2768.

**şükürün əvəzini verəndir. Öz lütfü ilə bizi əbədi iqamətgahda yerləşdirən Odur. Orada bizə nə bir yorğunluq üz verəcək, nə də bir üzgünlük toxunacaqdır!" Kafirləri isə Cəhənnəm odu gözləyir. Orada nə öldürülməzlər ki, ölüb canları qurtarsın, nə də bu odun əzabı** ***onlar üçün*** **yüngülləşdirilər. Biz hər bir kafiri belə cəzalandırırıq. Onlar orada fəryad qoparıb yalvaracaqlar: "Ey Rəbbimiz! Bizi** ***buradan*** **çıxart ki,** ***əvvəllər*** **etdiyimiz əməlləri deyil, yaxşı əməllər edək."** ***Onlara deyiləcək:*** **"Məgər orada sizə düşünəcək kimsənin düşünə biləcəyi qədər uzun ömür vermədikmi?! Sizə qorxudub xəbərdar edən** ***Peyğəmbər*** **də gəlmişdi. Elə isə dadın** ***əzabı!*** **Zalımlara kömək edən olmaz.""** (Fatir, 32-37).

# QƏDƏRƏ İMAN

Biz qəti şəkildə etiqad etməliyik ki, Allah məxluqatın hamısının qədərini Öz əzəli elmi sayəsində müəyyən etmiş və onu Lövhi-məhfuza yazmışdır. O, qədərə yazılanları Öz istəyi ilə edir və Öz qüdrəti ilə onları həyata keçirir. Uca Allah buyurur: **"Biz, həqiqətən, hər şeyi qədərincə yaratdıq."** (əl-Qəmər, 49).

O, həmçinin buyurur: **"O, hər bir şeyi xəlq etmiş və onun qədərini yazmışdır."** (əl-Furqan, 2).

*Qədərə iman gətirmək mövzusuna aşağıdakılar aiddir:*

**Birincisi: Allahın elminin əzəli və əbədi olduğuna, hər şeyi həm ümumi, həm də təfsilatlı şəkildə əhatə etdiyinə iman gətirməliyik.**

Allahın hər kəsin əcəlini müəyyən etməsi və onun ruzisini verməsi, habelə, qullarının Ona itaət etməsi və ya asi olması buna aiddir. Uca Allah buyurur: **"O, hər şeyi bilir."** (əl-Bəqərə, 29).

O, həmçinin buyurur: **"Bu, Qüdrətli və Bilən Allahın müəyyən etdiyi hökmdür."** (əl-Ənam, 96).

Uca Allah kimin itaət edəcəyini, kimin də asi olacağını, habelə, kimin uzun ömür, kimin də qısa ömür yaşayacağını bilir.

**İkincisi: İman gətirməliyik ki, Allah əzəldən müəyyən etdiyi qədəri Lövhi-məhfuza yazmışdır.**

Uca Allah buyurur: **"Yer üzündə baş verən və sizin başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, Yazıda *müəyyən edilmiş* olmasın. Şübhəsiz ki, bu, Allah üçün çox asandır."** (əl-Hədid, 22).

O, həmçinin buyurur: **"Qeybi bilən Rəbbimə and olsun ki, o, mütləq sizi haqlayacaqdır. Göylərdə və yerdə zərrə qədər bir şey də Ondan gizli qalmaz. Bundan daha kiçik və daha böyük elə bir şey yoxdur ki, açıq-aydın kitabda** (lövhi-məhfuzda) **olmasın."** (Səba, 3).

Rəvayət edilir ki, Abdullah ibn Amr ibn əl-As ﵄ demişdir: "Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Allah məxluqatın qədərini göyləri və yeri yaratmamışdan əlli min il əvvəl yazmışdır. Həmin vaxt Onun ərşi suyun üzərində idi."**[1]

Həmçinin rəvayət edilir ki, Ubadə ibn əs-Samit ﵁ demişdir: "Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Allah ilk əvvəl qələmi yaratmış və ona: "Yaz!"– deyə əmr etmişdir. O: "Nə yazım, ey Rəbbim?"– deyə soruşduqda, Allah ona belə buyurmuşdur: "Qiyamətədək olacaq hər bir şeyin qədərini yaz!"**[2]

Uca Allah hər şeyi bildiyini və hər şeyin qədərini əzəldən yazdığını bu ayədə zikr etmişdir: **"Məgər bilmirsən ki, Allah göydə və yerdə olanları bilir? Həqiqətən, bu, kitabda** (lövhi-məhfuzda) **mövcuddur. Şübhəsiz ki, bu, Allah üçün asandır."** (əl-Həcc, 70).

**Üçüncüsü: Allahın istəyinin mütləq yerinə yetməsinə iman gətirməliyik.**

Belə ki, Allah istədiyi olur, istəmədiyi də olmur; birisinə nemət verdikdə, onun qarşısını kimsə ala bilməz, vermədiyinə də kimsə onu verə bilməz; əzəldən yazdığı qəzavü-qədəri dəf edən tapılmaz və Onun mülkündə istəmədiyi bir şey ola bilməz; Öz lütfü ilə istədiyini doğru yola yönəldir, Öz hikməti ilə də istədiyini haqq yoldan sapdırır və heç kəs Onun hökmünü dəyişdirə bilməz.

Uca Allah buyurur: **"Əgər Allah istəsəydi, onlardan sonra gələnlər özlərinə açıq-aydın dəlillər gəldikdən sonra bir-biriləri ilə vuruşmazdılar. Lakin onlar ixtilaf etdilər. Onlardan kimisi iman gətirdi, kimisi də, kafir oldu. Əgər Allah istəsəydi, onlar bir-biriləri ilə vuruşmazdılar. Lakin Allah istədiyini edər."** (əl-Bəqərə, 253).

O, həmçinin buyurur: **"Sizlərdən doğru** *yolda* **olmaq istəyənlər üçün. Aləmlərin Rəbbi Allah istəməyincə, siz istəyə bilməzsiniz!"** (ət-Təkvir, 28-29).

---

[1] Səhih Muslim, 2653.

[2] Sunən Əbu Davud, 4700; Sunən ət-Tirmizi, 2155.

**Dördüncüsü: Allahın bütün kainatı xəlq edib icad etdiyinə iman gətirməliyik.**

Allah Xaliqdir. Allahdan savayı nə varsa, hamısı məxluqdur. Yaradılanların hamısının zatları da, sifətləri də, hərəkətləri də Allah yaratdığı məxluqdur. Uca Allah buyurur: **“Allah hər şeyin xaliqidir. O, hər şeyi qoruyandır.”** (əz-Zumər, 62).

O, həmçinin buyurur: **“Halbuki sizi də, sizin etdiyiniz əməlləri də Allah yaratmışdır.”** (əs-Saffat, 96).

Qulların etdiyi əməllər və onların qazandıqları – bunların hamısı məxluqdur. Uca Allah buyurur: **“Hər kəsin qazandığı *xeyir yalnız* onun özünə, qazandığı *şər də, yalnız* öz əleyhinədir.”** (əl-Bəqərə, 286).

**Beşincisi: Allahın istəməsi ilə sevməsi arasında bağlılığın olmadığına iman gətirməliyik.**

Belə ki, Allah Öz kamil hikməti və dəqiq qərarı ilə həyata keçirmək istədiyini sevməyə bilər, habelə, həyata keçirmək istəmədiyini sevə bilər. Bu xüsusda uca Allah belə buyurur: **“Əgər Biz istəsəydik, hər kəsi doğru yola yönəldərdik. Lakin Mənim: “Cəhənnəmi mütləq bütün *günahkar* cin və insanlarla dolduracağam!” sözüm yerinə yetəcək.”** (əs-Səcdə, 13).

O, həmçinin buyurur: **“Küfr etsəniz, *bilin ki,* Allah sizə möhtac deyil. O, qullarının kafirlik etməsinə razı olmaz. Əgər şükür etsəniz, buna görə sizdən razı qalar.”** (əz-Zumər, 7).

**Altıncısı: Şəriət qanunları ilə qədərin arasında ziddiyyət olmadığına iman gətirməliyik.**

Uca Allah buyurur: “**Sizin can atdıqlarınız başqa-başqadır. Kim *haqqını* verir və *Allahdan* qorxursa və ən gözəl olan *“lə ilahə illəllah” kəlməsini* təsdiq edirsə, Biz onu ən asan olana nail edəcəyik. Kim də xəsislik edərək *Rəbbinə* ehtiyacı olmadığını güman edirsə və ən gözəl olan *“lə ilahə illəllah” kəlməsini* yalan hesab edirsə, Biz onun üstünə ən çətin olanı yükləyəcəyik.**” (əl-Leyl, 4-10).

Belə ki, şəriət qanunları açıq-aydın Quranda yazılıb, qədər isə qeyb aləmində gizlin qalır. Allah məxluqatın qədərini əzəldən müəyyən etmiş və onlardan gizlətmişdir. Onlara bəzi əməlləri əmr etmiş, bəzilərini də qadağan etmişdir, habelə, onlara bu əmrləri və qadağaları yerinə yetirmək üçün şərait və zaman vermişdir və onlardan bunları yerinə yetirməyə gücü yetməyənlərin üzürlərini qəbul etmişdir. Asilik edən və itaətdən boyun qaçıran kimsələrdən isə heç kəs qədəri bəhanə gətirə bilməz. Uca Allah buyurur: **"Müşriklər deyəcəklər: "Allah istəsəydi, nə biz *Ona* şərik qoşardıq, nə də atalarımız; heç bir şeyi də haram etməzdik." Onlardan əvvəlkilər də *öz peyğəmbərlərini* beləcə yalançı hesab etmişdilər. Sonda əzabımızı daddılar. De: "Bizə göstərə biləcəyiniz bir elminiz varmı? Siz ancaq zənnə qapılır və ancaq yalan danışırsınız." De: "Tutarlı dəlillər Allaha məxsusdur. Əgər O istəsəydi, əlbıttə sizin hamınızı doğru yola yönəldərdi."** (əl-Ənam, 148-149).

*Qədər mövzusunda iki firqə zəlalətə düşmüşdür:*

***Birinci firqə,*** qədəri inkar edən qədərilərdir. Bunlar iki qismdir:

- *İfrata varmış qədərilər.* Onlar səhabələrin ﷺ yaşadığı dövrün sonlarında meydana gəlmiş və qədərin əzəldən yazıldığını inkar etmiş ilk qədərilərdir. İbn Ömər ﷺ, İbn Abbas ﷺ və başqa bir çox səhabələr onların bu batil əqidəsinə cavab vermişlər. Bu qədərilər Allahın hər şeyi bildiyini, qədərin əzəldən yazıldığını, hər bir işin Allahın istəyi ilə baş verdiyini və hər bir əməlin Allahın istəyi ilə yarandığını inkar edirlər.

- *Onlardan aşağı dərəcədə olan mötəzililər.* Onlar Allahın hər şeyi bildiyini və qədərin əzəldən yazıldığını qəbul edir, lakin hər bir işin Allahın istəyi ilə baş verdiyini və hər bir əməlin Allahın istəyi ilə yarandığını inkar edirlər. Onlar iddia edirlər ki, insan öz əməlini özü yaradır.

***İkinci firqə*** isə cəbərilərdir. Bunlar da Allahın etdiyi əməllər xüsusunda ifrata varmış və hətta bəndənin istəyi və qüdrəti olmadığını iddia etmişlər. Onlar iddia edirlər ki, insan hər bir əməli

məcburiyyət altında edir. Bununla da Allahın işlərindəki hikməti və səbəbləri inkar edirlər.

Bunlar da iki qismdir:

- *İfrata varmış cəbərilər.* Bunlar dindən uzaq olan sufilərin bir qoludur. Onlar iddia edirlər ki, kainatdakı haqqı görürlər və qədəri bəhanə gətirərək hər bir günah işi görürlər. Onlardan bəzisi deyir ki: *– Mən yalnız Sənin mənim qədərimə yazdığını edirəm və mənim etdiklərim Sənə olan itaətimdir.*
- *Onlardan aşağı dərəcədə olanlar.* Bunlar qazanmaq nəzəriyyəsini iddia edən *əşarilərdir*. Hərçənd onlar bəndənin qüdrətinin olduğunu isbat edir, lakin bu qüdrətin heç bir təsiri olmadığını deyirlər.

*İslam şəriəti və gerçəkdə baş verənlər bu iki firqənin etiqadını inkar edir:*

- Allahın hər şeyi bildiyini, qədərin əzəldən yazıldığını, hər bir işin Allahın istəyi ilə baş verdiyini və hər bir əməlin Allahın istəyi ilə yarandığını inkar edən qədərilərin batil etiqadını Quran və Sünnədə olan dəlillər inkar edir və onların inkar etdiyinin əksini isbat edir. Həmçinin gerçəkdə baş verənlər də bunu isbat edir – belə ki, adam bir iş görmək istədikdə, onun qarşısına maneələr çıxır və o işi görə bilmir.
- Qədərin əzəldən yazıldığını qəbul etmək xüsusunda ifrata varmış cəbərilərə gəlincə, onların da iddiasını Quran və Sünnədə zikr edilən dəlillər rədd edir – bəndənin iradəsi, əməli və istəyi olduğunu isbat edir. Həmçinin gerçəkdə baş verənlər də göstərir ki, hər bir insan öz ixtiyarı ilə istədiyi əməli edir və heç bir qüvvə onu hər hansı bir əməli etməyə məcbur etmir.

Allahın gördüyü işlərdə hikmət və səbəblər olduğunu isbat edən kifayət qədər ayə və hədislər vardır.

# QURAN

Quran Allahın kəlamıdır. Uca Allah buyurur: **"Əgər müşriklərdən biri səndən aman diləsə, ona aman ver ki, Allahın kəlamını eşitsin. Sonra onu özünün xatircəm olduğu yerə çatdır. Çünki onlar *haqqı* bilməyən bir qövmdür."** (ət-Tövbə, 6).

Peyğəmbər ﷺ həcc mövsümü yaxınlaşdıqda qəbilələrin yanına gedib onlardan dəstək istəyərkən onlara belə deyərdi: **"Aranızda məni öz qövmünün yanına apara biləcək bir kişi varmı? Belə ki, qureyşlilər mənə Allahın kəlamını təbliğ etməyə mane olurlar."**[1]

Quran uca Allahın həqiqi kəlamıdır. Onun hərfləri və mənası həqiqidir və məxluqatın heç birinin kəlamına bənzəmir.

Quran göydən yerə nazil edilmiş və xəlq edilməmişdir. Allah onu ilk olaraq tələffüz etmiş və etibarlı Ruh Cəbrailə عليه السلام vəhy etmişdir. Cəbrail عليه السلام də onu hissə-hissə Muhəmmədin ﷺ qəlbinə endirmişdir. Muhəmməd ﷺ də onu insanlara oxumuşdur. Uca Allah buyurur: **"Quranı insanlara aramla oxuyasan deyə, Biz onu hissələrə ayırıb tədricən nazil etdik."** (əl-İsra, 106).

İnsanların Quranı oxuması, yaxud vərəqlərə yazması və ya əzbərləyib hafizələrdə saxlaması onun Allahın həqiqi kəlamı olduğunu inkar etmir. Kəlam, onu təbliğ edən kimsəyə deyil, ilk əvvəl onu deyən kimsəyə mənsub edilir. Oxumaq və oxunan kəlam, yazmaq və yazılan kəlam, əzbərləmək və əzbərlənən kəlam ayrı-ayrı məfhumlardır. Əməl o kəlamı oxuyanın, yaxud onu yazanın və ya əzbərləyənin əməlidir, kəlam isə Yaradanın kəlamıdır. Uca Allah buyurur: **"De: "Müqəddəs Ruh *Cəbrail* onu sənin Rəbbindən iman gətirənləri sabitqədəm etmək üçün, həm də müsəlmanlara doğru yol göstəricisi və müjdə olsun deyə gerçək olaraq nazil etmişdir." Biz onların: "*Quranı* ona bir insan öyrədir!"– dediklərini bilirik. Onların istinad etdikləri şəxsin dili əcnəbi dildir. Bu isə açıq-aydın ərəb dilidir."** (ən-Nəhl, 102-103).

[1] Musnəd İmam Əhməd, 15192; Sunən Əbu Davud, 4734; Sunən ət-Tirmizi, 2925; Sunən ən-Nəsai, 7680; Sunən İbn Macə, 201.

Allah Quranın bəşər sözü olduğunu deyən kimsənin kafir olduğunu bildirir və onu Səqərlə (Cəhənnəmlə) təhdid edir. Uca Allah buyurur: **“Mən onu Səqərə salacağam.”** (əl-Muddəssir, 26).

*Bu mövzu barəsində iki firqə zəlalətə düşmüşdür:*

***1. Cəhmilər* və *motəzililər.*** Onlar Allahın həm sifətlərini, həm də Allahın kəlamını inkar edirlər. İddia edirlər ki, Allahın kəlamı olduğunu demək, məxluqu Xaliqə mənsub etmək deməkdir. Necə ki Allahın qulu, Allahın evi, Allahın dəvəsi deyilir. Onlar sifəti vəsf edilənə nisbət etmirlər.

Allaha izafə edilənlər (nisbət edilənlər) ya ayrıca mövcud olanlardır ki, bu da məxluqun Xaliqə izafə edilməsidir, ya da müstəqil mövcud olması təsəvvür edilməyən *həyat, eşitmək, görmək, bilmək, danışmaq və s.* kimi vəsflərdir ki, bu da sifətin vəsf edilənə izafə edilməsidir. Üstəlik, bunların iddiası Qurana, Sünnəyə və icmaya (İslam alimlərinin yekdil rəyinə) müxalifdir.

***2. Kulləbilərdən, əşarilərdən və maturidilərdən olan sifatilər.*** Onlar Allahın kəlamının özü-özlüyündə qədim mənanı bildirdiyini təsdiqləyir, hərflərin və səsin isə yenilənməyən və Allahın istəyi ilə əlaqəsi olmayan bu qədim mənanı ifadə etmək və ya tələffüz etmək üçün yaradıldığını iddia edirlər. Onlar Allahın kəlamının sadəcə məna olduğunu, hərflər və səsdən ibarət olmadığına etiqad edirlər. Onlar hesab edirlər ki, Adəm və Həvva عليهما السلام Cənnətdə ikən, həmçinin Musa عليه السلام da ağacın yanında ikən Allahın həqiqi danışığını deyil, yaradılmış kəlamı eşitmişlər.

Bunlara belə rədd cavabı vermək olar ki, yalnız ifadə edilən məna, hərif və səsin məcmusuna kəlam deyilir; səs və həriflə ifadə edilməyən mənaya isə həqiqi kəlam deyilmir. Üstəlik, bunların iddiası Qurana, Sünnəyə və icmaya da müxalifdir.

# ALLAHI GÖRMƏK

Qiyamət günü möminlərin öz Rəbbini görməsi də Allaha və Axirət gününə iman gətirməyə aiddir. Onlar Allahı tam əhatəli deyil, sadəcə əyani olaraq öz gözləri ilə iki yerdə görəcəklər:

- *Birincisi,* Qiyamət günü ərəsatda, yəni haqq-hesab çəkilmək üçün toplanma yerində;
- *İkincisi,* Cənnətə daxil olduqdan sonra.

Bu xüsusda uca Allah belə buyurur: **"O gün *bir çox* üzlər parlayacaq və öz Rəbbinə baxacaqdır."** (əl-Qiyamət, 22-23).

O, həmçinin buyurur: **"Onlar taxtlar üstündə seyr edəcəklər."** (əl-Mutaffifin, 23).

Yenə O buyurur: **"Yaxşı iş görənlər üçün ən yaxşısı və bundan da üstünü vardır."** (Yunus, 26).

Peyğəmbər ﷺ bu ayədə zikr edilən **"bundan da üstünü"** sözünü izah edərək bunun Allahı görmək olduğunu bildirmişdir.[1]

Digər bir hədisdə Peyğəmbər ﷺ demişdir: **"Siz bu ayı gördüyünüz kimi, Rəbbinizi də *öz gözlərinizlə* görəcək və Ona baxmaq üçün bir-birinizə mane olmayacaqsınız."**[2]

*Bu məsələdə iki firqə haqq yoldan azmışdır:*

***1. Allahın sifətlərini inkar edən cəhmilər və mötəzililər.*** Rafizilər və ibadilər də onların bu fikrini dəstəkləyir.

Onlar Allahı görməyi inkar edir və uca Allahın Musaya عليه السلام buyurduğu: **"Sən Məni görə bilməzsən"** (əl-Əraf, 143) sözünə, habelə, **"Gözlər Onu dərk edə bilməz"** (əl-Ənam, 103) ayəsinə əsaslanırlar.

Onların bu iddiasını rədd edib deyirik ki, **"Sən Məni görə bilməzsən"** (əl-Əraf, 143) ayəsində qəsd edilən, dünya həyatında Allahı

[1] Səhih Muslim, 181.

[2] Səhih əl-Buxari, 554; Səhih Muslim, 633.

görməyin mümkün olmamasıdır. Bu ayədə ərəbcə zikr edilən “ لَنْ ” [*lən*] inkar ədatı Allahı əbədi olaraq görməyi inkar etmir.

Allahı dərk etməyin mümkün olmaması məsələsinə gəlincə, bu, Allahı görməyə deyil, Onu tamamilə dərk etməyə aiddir. Adam bir şeyi görüb onu dərk etməyə bilər. Məsələn, adam günəşi, ayı və dağları görür, lakin onları dərk edə bilmir. Üstəlik, Quran ayələri və olduqca çox sayda səhih hədislər də Qiyamət günü möminlərin Allahı görəcəyinə dəlalət edir.

***2. Sufilərdən və bidətçilərdən olan xürafatçılar.***

Bunlar Allahı görmək məsələsində ifrata varmış və hətta bu dünyada belə Allahı görməyin mümkün olduğunu, məsələn, öz övliyalarının Allahı gördüyünü iddia etmiş və bu xüsusda uydurma hədislər də rəvayət etmişlər. Onlar iddia edirlər ki, guya Peyğəmbər ﷺ demişdir: **“Bilin ki, siz ölməmişdən əvvəl Rəbbinizi görəcəksiniz.”**[1]

[1] Sunən İbn Macə, 4077.

# İMANIN HƏQİQİ MƏNASI

**1.** İman söz və əməldən ibarətdir – qəlbin təsdiqi və dilin tələffüz etməsi, habelə, qəlbin əməli, dilin əməli və bədən əzalarının əməli.

*Qəlbin təsdiqi* onun etiqad etməsi, təsdiqləməsi və qəbul etməsidir.

*Dilin təsdiqi (tələffüz etdiyi söz)* elan etdiyi iki şəhadət kəlməsidir.

*Qəlbin əməli* sevgi, qorxu, ümid və təvəkkül kimi qəlbdən keçən niyyətlər və istəklərdir.

*Dilin əməli* zikr etmək, dua etmək, Quran oxumaq və başqa bu kimi əməllərdir.

*Bədən əzalarının əməli* bədən əzaları ilə yerinə yetirilən ibadətlərdir.

Uca Allah buyurur: **"Möminlər ancaq o kəslərdir ki, Allah anıldığı zaman onların qəlbləri qorxuya düşər, Onun ayələri onlara oxunduqda imanları artar, yalnız öz Rəbbinə təvəkkül edər, namaz qılar və Bizim onlara verdiyimiz ruzidən *Allah yolunda* xərcləyərlər. Məhz onlar həqiqi möminlərdir. Onlar üçün Rəbbi yanında dərəcələr, bağışlanma və bolluca ruzi vardır."** (əl-Ənfal, 2-4).

O, həmçinin buyurur: **"Möminlər ancaq Allaha və Onun rəsuluna iman gətirən, sonra heç bir şəkk-şübhəyə düşməyən, Allah yolunda malları və canları ilə cihad edənlərdir! *İmanlarında* sadiq olanlar da məhz onlardır."** (əl-Hucurat, 15).

Peyğəmbər ﷺ də belə buyurmuşdur: **"İman yetmiş və bir neçə şöbədən ibarətdir. Bunların ən üstünü "Lə iləhə illəllah" sözü, ən aşağı dərəcəsi isə əziyyət verən şeyi yoldan kənarlaşdırmaqdır. Həya da imanın şöbələrindən biridir."**[1]

Deməli, iman həqiqi mənada söz və əməldən ibarətdir, yəni söz və əməl ilə təsdiqlənməlidir. Əks təqdirdə iman təsdiqlənmiş sayılmır.

[1] Səhih əl-Buxari, 9; Səhih Muslim, 35.

**2.** İman kəlməsi ayrıca zikr edildikdə, həm iman, həm də İslam mənasını ifadə edir. Belə ki, onların hər ikisi bütün dini əhatə edir. Bu iki kəlmə bir cümlədə zikr edildikdə isə, iman batində olan etiqada, İslam isə sadəcə zahirdə olan əməlin dinə aid olduğuna dəlalət edir. Buna əsasən demək olar ki, hər bir mömin müsəlmandır, hər müsəlman isə mömin sayılmır. Uca Allah buyurur: **"Bədəvilər: "Biz iman gətirdik!"– dedilər. De: "Siz *qəlbən* iman gətirmədiniz! Ancaq: "Biz müsəlman olduq!"– deyin. İman sizin qəlbinizə hələ daxil olmamışdır. Əgər Allaha və Onun rəsuluna itaət etsəniz, O sizin əməllərinizdən heç bir şey əskiltməz. Şübhəsiz ki, Allah bağışlayandır, rəhmlidir!"** (əl-Hucurat, 14).

**3.** İman artır və azalır – Allahı tanımaqla, Onun kainatdakı dəlilləri barədə fikirləşməklə, Quran ayələri və hədislər barədə düşünməklə, itaət etməklə və günahları tərk etməklə artır, Allahı tanımadıqda, kainatdakı dəlillərdən bixəbər olduqda, Quran ayələrindən və hədislərdən üz döndərdikdə, itaətdən boyun qaçırdıqda və günah işlər gördükdə azalır. Uca Allah buyurur: **"Möminlər ancaq o kəslərdir ki, Allah anıldığı zaman onların qəlbləri qorxuya düşər, Onun ayələri onlara oxunduqda imanları artar."** (əl-Ənfal, 2).

O, həmçinin buyurur: **"İman gətirənlərə gəldikdə isə, *o surə* onların imanını artırır və onlar bir-birlərini müjdələyirlər."** (ət-Tövbə, 124).

O, həmçinin buyurur: **"Möminlərin imanı üstünə iman artırmaq üçün onların qəlbinə rahatlıq göndərən Odur."** (əl-Fəth, 4).

**4.** İmanın şöbələrinin biri digərindən üstündür. Yuxarıda zikr edilən hədisdə xəbər verildiyi kimi: **"İman yetmiş və bir neçə şöbədən ibarətdir. Bunların ən üstünü "Lə iləhə illəllah" sözü, ən aşağı dərəcəsi isə əziyyət verən şeyi yoldan kənarlaşdırmaqdır. Həya da imanın şöbələrindən biridir."**[1]

[1] Səhih əl-Buxari, 9; Səhih Muslim, 35.

**5.** İman əhlinin də həmçinin, bəziləri digərlərindən fəzilətlidir, imanın kamil olması xüsusunda bəziləri digərlərindən daha üstündür. Bu xüsusda uca Allah belə buyurur: **"Sonra, Kitabı qullarımız içərisindən seçdiklərimizə miras etdik. Onlardan kimisi özünə zülm edər, kimisi orta yol tutar, kimisi də Allahın izni ilə yaxşı işlərdə öndə gedər. Böyük lütf də budur."** (Fatir, 32).

Peyğəmbər ﷺ də belə buyurmuşdur: **"Möminlərin iman baxımından ən kamil olanları, əxlaqı ən gözəl olanlarıdır."**[1]

Hər kim iki şəhadət kəlməsini tələffüz edib mənasına qəlbən etiqad etsə və onların tələblərini qəbul etsə, imanın əslinə yiyələnər. Kim vacib əməlləri yerinə yetirib haramlardan çəkinərsə, imanın vacib hissəsinə yiyələnər. Kim də vacib və müstəhəb əməlləri yerinə yetirib məkruhlar və haram əməllərdən çəkinərsə, kamil imana yiyələnər.

**6.** Mömin olduğunu etiraf edən adamın: *"Mən mömінəm, inşaAllah (Allah istəsə)"*– deməsi. Bunun üç halı var:

*Birincisi,* əgər adam bu sözü öz imanına şəkk edərək deyirsə, bu halda istisna etmək ("inşaAllah" demək) haramdır, hətta küfrdür. Belə ki, iman gətirən adam bunu şəkk-şübhə ilə etməməlidir.

*İkincisi,* əgər adam özünü təmizə çıxarmaqdan ehtiyat edərək, vacib və ya kamil iman sahibi olduğunu demək istəyirsə, o halda istisna etmək ("inşaAllah" demək) vacibdir.

*Üçüncüsü,* əgər adam bu sözü ilə Allahın istəyi sayəsində Onun verdiyi xeyir-bərəkətə nail olmaq istəyirsə, bu halda istisna etmək ("inşaAllah") icazəlidir.

**7.** Adam ümumən asiliklər və böyük günahlar edərsə, mömin vəsfi onun üstündən götürülmür, sadəcə imanın əsli qaldığı halda azalmış olur. Demək, böyük günah etmiş mömin adamın imanı naqisləşir və belə olduğu halda, o adam imanına görə mömin,

[1] Musnəd imam Əhməd, 7402; Sunən Əbu Davud, 4682; Sunən ət-Tirmizi, 1162.

asiliyinə görə də fasiq sayılır. O, bu dünyada İslam dairəsindən kənara çıxmır – mürtəd olmur, axirətdə də əbədi olaraq Cəhənnəm əhlindən olmur. Əksinə, Allahın istəyi altında qalır – Allah istəsə onu bağışlayar və Cənnətə daxil edər, istəsə də ona günahı qədər əzab verər, lakin sonra Cənnətə daxil edər; yaxud onu günahının bir qisminə görə cəzalandırar, sonra da şəfaət edənlərin şəfaətçiliyi sayəsində və ya rəhmlilərin ən Rəhmlisinin mərhəməti sayəsində onu Cənnətə daxil edər. Uca Allah buyurur: **"Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, *lakin* bundan başqa *olan günahları* isə istədiyi kısə bağışlayar. Allaha şərik qoşan kəs böyük bir günah edərək iftira atmış olur."** (ən-Nisa, 48).

Peyğəmbər ﷺ isə belə demişdir: **"Cənnət əhli Cənnətə, Cəhənnəm əhli də Cəhənnəmə daxil olduqdan sonra Uca Allah belə buyuracaq: "Qəlbində xardal dənəsi ağırlığında iman olan hər kəsi *Cəhənnəmdən* çıxarın!" Beləcə, onlar oradan qapqara qaralmış halda çıxarılıb Həyat çayına atılacaqlar."**[1]

Digər rəvayətdə Peyğəmbər ﷺ demişdir: **«*"Lə iləhə illəllah"*– deyən və qəlbində arpa dənəsi ağırlığında iman olan kimsələr Cəhənnəmdən çıxacaqlar. Daha sonra, *"lə iləhə illəllah"*– deyən və qəlbində buğda dənəsi ağırlığında iman olan kimsələr Cəhənnəmdən çıxacaqlar. Sonra da *"lə iləhə illəllah"*– deyən və qəlbində zərrə qədər iman olan kimsələr Cəhənnəmdən çıxacaqlar.»**[2]

*Bu məsələdə iki firqə zəlalətə düşmüşdür:*

**1. Vaidilər (hədələyənlər).** Onlar etiqad edirlər ki, uca Allah tövhid əhlindən böyük günah işləyən kimsələri əbədi olaraq cəhənnəmlik edəcək və onlar üçün ediləcək şəfaətçilik qəbul olunmayacaq. Bu etiqadda olanlar iki qismə bölünür:

- *Xəvariclər.* Onlar deyirlər ki, mömin adam böyük günah etdikdə kafir olur. Beləsi bu dünyada kafir sayılır, axirətdə də əbədi olaraq Cəhənnəmdə qalacaq.

---

[1] Səhih əl-Buxari, 22.

[2] Səhih əl-Buxari, 44; Səhih Muslim, 193.

- *Mötəzililər.* Onlar deyirlər ki, mömin adam böyük günah etdikdə imandan çıxır, lakin kafir olmur, bu ikisinin arasındakı məqamda durur – dünyada ikən nə mömin, nə də kafir sayılır, axirətdə isə əbədi olaraq Cəhənnəm sakini olur.

Bu vaidilərə bir neçə yöndən cavab vermək olar:

*Birincisi,* biz deyirik ki, uca Allah imanın sabit olduğunu və bu dünyada böyük günah edən möminlər arasında iman qardaşlığının qaldığını bildirərək buyurur: **“Ey iman gətirənlər! Öldürülən şəxsə görə qisas almaq sizə vacib edildi.** ***Odur ki,*** **azad kəsə görə azad olandan, köləyə görə kölədən, qadına görə qadından** ***qisas alın!*** **Əgər qatil,** ***öldürdüyü*** **qardaşının** ***varisləri*** **tərəfindən** ***qanbahası müqabilində*** **bir şeylə əfv edilsə, onda** ***varislər onunla*** **insafla davranmalı,** ***qatil də, qanbahasını*** **gözəl tərzdə ödəməlidir.”** (əl-Bəqərə, 178).

Uca Allah bu ayədə qatilin, öldürdüyü adamın mömin qardaşı olduğunu bildirir. Həmçinin, başqa bir ayədə O belə buyurur: **“Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları barışdırın. Əgər onlardan biri digərinə qarşı təcavüz etsə, təcavüzkar dəstə ilə, o, Allahın əmrini** ***yerinə yetirməyə*** **qayıdanadək, vuruşun. Əgər o qayıtsa, hər iki dəstəni ədalətlə barışdırın və insaflı olun. Sözsüz ki, Allah insaflıları sevir. Möminlər, həqiqətən də qardaşdırlar. Elə isə qardaşlarınızın arasını düzəldin və Allahdan qorxun ki, sizə rəhm edilsin.”** (əl-Hucurat, 9-10).

Bu ayədə də uca Allah bir-birinə qarşı vuruşan iki dəstənin mömin qardaşlar olduğunu bildirir.

*İkincisi,* biz deyirik ki, uca Allah şirkdən başqa edilən günahı istədiyi kimsələrə bağışlayacaq və çox sayda rəvayət edilmiş şəfaət hədislərində də xəbər verildiyi kimi, qəlbində xardal dənəsi ağırlığında iman olan hər kəsi Cəhənnəmdən çıxardacaq.[1]

**2. Murciələr.** Onlar əməli imandan saymırlar, yəni əməli imandan sonrakı mərhələyə atırlar. Onların etiqadına görə əməl imanın

[1] Səhih əl-Buxari, 22.

tərifinə və həqiqi mənasına daxil edilmir. Bu etiqadda olanlar da bir neçə qismə bölünür:

- *Cəhmilər.* Onlar etiqad edirlər ki, imanın qəlb ilə təsdiq edilməsi və ya qəlbdə olması kifayətdir. Belə olduğu halda günah işlər görməyin heç bir zərəri yoxdur. Həmçinin, adamın küfr etməklə yanaşı Allaha itaət etməsinin də ona heç bir faydası yoxdur.
- *Kərramilər.* Onlar etiqad edirlər ki, iman [şəhadət kəlməsini] sadəcə dil ilə tələffüz etməkdir.
- *Fəqih murciələr.* Onlar etiqad edirlər ki, iman [şəhadət kəlməsini] qəlb ilə təsdiqləmək və dil ilə tələffüz etməkdir. Əməllər isə imanın tərkib hissəsinə aid deyil – əməllər sadəcə imanın səmərəsidir.

Bu murciələrə bir neçə yöndən cavab vermək olar:

*Birincisi,* biz deyirik ki, uca Allah əməlləri iman adlandırır. Necə ki, Beytulməqdisə tərəf namaz qılmış və qiblə Məscidulhərama tərəf dəyişilməmişdən əvvəl vəfat etmiş səhabələr barədə belə buyurur: **“Allah sizin imanınızı puç etməz.”** (əl-Bəqərə, 143). Bu ayədə iman deyildikdə, namaz qəsd edilir.

*İkincisi,* Peyğəmbər ﷺ böyük günah işlətmiş kimsənin imanının kamil olmadığını bildirib belə demişdir: **“Zina edən adam zina etdiyi vaxt mömin sayıla bilməz. Şərab içən adam şərab içdiyi vaxt mömin sayıla bilməz. Oğurluq edən adam oğurluq etdiyi vaxt mömin sayıla bilməz. İnsanların gözü önündə *birisinin* dəyərli bir şeyini zor gücünə götürən adam onu götürdüyü vaxt mömin sayıla bilməz.”**[1]

Hər iki firqənin – vaidilərin də, murciələrin də haqq yoldan azmasının əsas səbəbi budur ki, onlar imanın bütöv bir şey olduğuna, yəni imanın bir adamda ya bütövlükdə olduğuna, ya da tamamilə olmadığına etiqad edirlər.

[1] Səhih əl-Buxari, 2745; Səhih Muslim, 57.

Murciələrə gəlincə, onlar şəhadət kəlməsini qəlb ilə, yaxud dillə və ya hər ikisi ilə təsdiq edən kimsənin heç vaxt ibadət etməsə belə, mömin sayıldığına etiqad edirlər. Bunlar *təfrit* (laqeydlik) edənlərdir.

Vaidilər isə, əksinə, etiqad edirlər ki, adam böyük günah etdikdə dindən çıxır, mömin sayılmır. Bunlar da ifrata varanlardır. Bu iki firqənin etiqadının başlanğıcı eyni olsa da, nəticəsi bir-birinə ziddir.

# İDARƏETMƏ VƏ CƏMİYYƏT

Müsəlmanlar vahid bir ümmətdir. Onların rifah içində yaşaması, işlərinin qaydasında olması və dini öhdəliklərini yerinə yetirməsi üçün aşağıdakı şərtlərə riayət edilməlidir:

**1. Beyət etmək.** Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"Hər kim beyət etmədiyi halda ölərsə, cahiliyyət dövründə ölənlər kimi ölər."**[1]

**2. Allahın qanunlarına zidd olmayan işlərdə ixtiyar sahiblərinin buyruqlarını eşidib itaət etmək.** Onlar itaətkar olsalar da, fasiq olsalar da, həcc ziyarətini, cümə və bayram namazlarını onlarla birlikdə yerinə yetirmək və onlara nəsihət etmək gərəkdir. İxtilaflı məsələdə isə Quran və Sünnəyə müraciət etmək vacibdir. Bu xüsusda uca Allah buyurur: **"Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin. Əgər bir şey haqqında mübahisə etsəniz, Allaha və Axirət gününə iman gətirmisinizsə, Allaha və Peyğəmbərə müraciət edin. Bu, *sizin üçün* daha xeyirli və nəticə etibarilə daha yaxşıdır."** (ən-Nisa, 59).

Peyğəmbər ﷺ də belə buyurmuşdur: **"Müsəlman olan hər bir kəs ixtiyar sahibinin buyuruğunu bəyənsə də, bəyənməsə də, onu eşidib itaət etməlidir. Yalnız Allaha qarşı buyurulan asiliklər müstəsnadır – əgər o, asilik etməyi əmr edərsə, o zaman eşidib itaət etmək olmaz."**[2]

O ﷺ, həmçinin demişdir: **"Hər kim əlini itaətdən çəkərsə, Qiyamət günü Allahın hüzurunda öz lehinə heç bir dəlili olmaz."**[3]

**3. Əmirlər zalım olsa belə, onlara qarşı çıxmağın və onları devirməyin haram sayılması.** Yalnız açıq-aydın küfr əməl etmələri və buna dair əlimizdə Quran və Sünnədən dəlilin olması istisnadır.

---

[1] Səhih Muslim, 1851.

[2] Səhih əl-Buxari, 7144; Səhih Muslim, 1839.

[3] Səhih əl-Buxari, 7144; Səhih Muslim, 1851.

Rəvayət edilir ki, Ubadə ibn əs-Samit ﷺ demişdir: “*Bir dəfə Peyğəmbər ﷺ bizi öz yanına çağırdı və biz ona beyət etdik. Biz xoş günümüzdə və sıxıntı anlarımızda, düşdüyümüz çətin və asan hallarda, habelə, haqqımızı ödəməsələr belə, əmirləri dinləyib onlara itaət edəcəyimizə dair ona beyət etdik. Biz əmirə qarşı çıxmayacağımıza da söz verdik. Yalnız əmirin açıq-aşkar küfr etməsini görməyimiz və buna dair Allah tərəfindən dəlil-sübutun olması istisnadır.*”[1]

Yenə rəvayət edilir ki, bir dəfə Peyğəmbər ﷺ səhabələrinə dedi: **“Məndən sonra elə bir zaman gələcək ki, o vaxt başqalarını sizdən üstün tutacaqlar və sizə qarşı haqsızlıq edəcəklər.”** Səhabələr dedilər: “Bizə nə əmr edirsən, ya Rəsulullah?” Peyğəmbər ﷺ buyurdu: **“İxtiyar sahiblərinin haqlarını ödəyin, öz haqlarınızı isə Allahdan istəyin!”**[2]

Aşağıdakı ciddi şərtlərdən hər hansı biri olmadığı təqdirdə ixtiyar sahiblərinə qarşı çıxmaq halal deyil:

*1. Dəlil-sübut əsasında və ya gözlə görməklə onların kufr etdiyini isbat etmək.* Buna Peyğəmbərin ﷺ **“görməyiniz”** sözü dəlildir. Demək, bu məsələdə şaiyələrə və dedi-qodulara əsaslanmaq olmaz.

*2. Onların etdiyi küfr əməl olmalıdır,* əks halda onların fasiqliyinə və zalımlığına görə onlara qarşı çıxmaq olmaz.

*3. Onların etdiyi küfr açıq-aşkar olmalıdır.* Yəni gizlin küfr etdiklərinə görə onlara qarşı çıxmaq olmaz.

*4. Onları kafir saymaq üçün tutarlı dəlillər olmalıdır.* Peyğəmbərin ﷺ: **“... əlinizdə buna dair Allah tərəfindən dəlil-sübutun olması istisnadır”** sözü dəlildir. Demək, ehtimala görə, zənnə əsaslanaraq, yaxud ixtilaflı məsələyə görə onlara qarşı çıxmaq olmaz.

---

[1] Səhih əl-Buxari, 7056; Səhih Muslim, 1709.

[2] Səhih əl-Buxari, 7052; Səhih Muslim, 1843.

*5. Qadir olmaq.* Əgər onlara qarşı çıxmağa güc yoxdursa, hətta yuxarıdakı dörd şərtin hamısı olsa belə, onlara qarşı çıxmaq olmaz. Belə etmək ona görə lazımdır ki, dinin və din əhlinin kökü kəsilməsin. Uca Allah buyurur: **"Məgər sən, özlərinə: "*Döyüşdən* əl çəkin, namaz qılın və zəkat verin!"– deyilən kəsləri görmədinmi? Onlara vuruşmaq fərz buyurulduqda, içərilərindən bir dəstəsi Allahdan qorxduqları kimi, hətta daha artıq qorxu ilə insanlardan qorxdular."** (ən-Nisa, 77).

Diqqət edin, bu ayədə onlara zəif olduqda döyüşdən əl çəkmək, vuruşmağa qadir olduqda isə vuruşmaq əmr olundu.

# SƏHABƏLƏR

Səhabə, Peyğəmbəri ﷺ həyatda ikən görüb ona iman gətirmiş və mömin olduğu halda dünyadan köçmüş kimsəyə deyilir.

Səhabələr رضي الله عنهم, peyğəmbərlərdən عليهم السلام sonra ən xeyirli insanlar, habelə, İslam ümmətinin ən xeyirli nəsli sayılırlar. Bu xüsusda Allahın Elçisi ﷺ demişdir: **"Ən xeyirli insanlar mənim dövrümdə yaşayan səhabələrimdir."**[1]

O ﷺ, həmçinin demişdir: **"Ümmətimin ən xeyirliləri mənim dövrümdə yaşayan səhabələrimdir."**[2]

Səhabələrin hamısı ədalətlidir. Çünki uca Allah onları Peyğəmbərə ﷺ səhabə olmaq üçün seçmiş, onların səmimi olduğunu bildirmiş, onlardan razı qalmış, onların tövbəsini qəbul etmiş, onları ən gözəl vəsflərlə vəsf etmiş və onlara ən üstün nemətlər vəd etmişdir. Uca Allah buyurur: **"Muhəmməd Allahın rəsuludur. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər. Sən onları rüku edən, səcdəyə qapanan, Allahdan lütf və razılıq diləyən görərsən. Əlamətləri isə üzlərində olan səcdə izidir. Bu onların Tövratdakı vəsfidir. İncildə isə onlar elə bir əkin kimi vəsf olunurlar ki, bu *əkin* cücərtisini üzə çıxarıb onu qüvvətləndirmiş, o da getdikcə qalınlaşıb gövdəsi üstündə şax duraraq əkinçiləri heyran etmişdir.** *Allah möminlərin sayını artırır, özlərini də qüvvətləndirir* **ki, kafirləri qəzəbləndirsin. Allah onlardan iman gətirib yaxşı işlər görənlərə bağışlanma və böyük bir mükafat vəd etmişdir."** (əl-Fəth, 29).

Bunununla belə, onlar öz aralarında həm ümumi, həm də xüsusi üstünlüklərlə bir-birindən fərqlənirlər.

*Ümumi üstünlüyün ardıcıllığı belədir:*

***1. Mühacirlər, həm hicrət etdiklərinə, həm də Peyğəmbərə ﷺ yardım etdiklərinə görə ənsardan üstün sayılırlar.*** Üstəlik, uca Allah

[1] Səhih əl-Buxari, 2652; Səhih Muslim, 2533.

[2] Səhih əl-Buxari, 3650; Səhih Muslim, 2535.

Quranda mühacirləri ənsardan əvvəl zikr edir. Uca Allah buyurur: **"*Qənimət həmçinin* yurdlarından qovulmuş və mallarından məhrum olunmuş yoxsul mühacirlərə məxsusdur. Onlar Allahın mərhəmətini və razılığını qazanmağa can atır, Allaha və Onun rəsuluna kömək edirlər. Doğru olanlar da məhz onlardır. *Mühacirlərdən* əvvəl *Mədinədə* yurd salmış, *sonra da* iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır."** (əl-Həşr, 8-9).

O, həmçinin buyurur: **"Dində hamını ötüb keçən ilk mühacirlərə və ənsara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır, onlar da *Allahdan* razıdırlar. *Allah* onlar üçün *ağacları və qəsrləri* altından çaylar axan, içində əbədi qalacaqları cənnətlər hazırlamışdır. Bu, böyük uğurdur."** (ət-Tövbə, 100).

O, həmçinin buyurur: **"Allah, *müsəlmanlardan* bəzilərinin qəlbi *cihaddan* yayınmaq üzrə olduqdan sonra, Peyğəmbərin də, çətin vaxtda onun ardınca gedən mühacirlərin və ənsarın da *əvvəlcə* tövbəsini qəbul etdi, sonra da onları bağışladı. Çünki *Allah* onlara qarşı çox şəfqətlidir, rəhmlidir."** (ət-Tövbə, 117).

***2. Hudeybiyyə sülhündən əvvəl malından Allah yolunda xərcləyən və Onun yolunda vuruşan kimsələr Hudeybiyyə sülhündən sonra malından Allah yolunda xərcləyən və Onun yolunda vuruşan kimsələrdən üstündürlər.***

Uca Allah buyurur: **"Sizlərdən *mallarını Məkkənin* fəthindən əvvəl xərcləyib döyüşənlər *başqaları ilə* eyni deyillər. Onların dərəcəsi *mallarını fəthdən* sonra xərcləyib döyüşənlərdən daha üstündür. Amma Allah onların hamısına ən gözəl olanı vəd etmişdir. Allah sizin nə etdiklərinizdən xəbərdardır."** (əl-Hədid, 10).

***3. Bədr əhli.*** Hatib ibn Əbu Bəltənin رضي الله عنه hadisəsində Peyğəmbər ﷺ Ömərə رضي الله عنه belə demişdir: **"Hatib Bədr döyüşündə iştirak**

**edib. Məlumun olsun ki, qüdrətli və əzəmətli Allah Bədrdə döyüşənlərə baxıb demişdir: "İstədiyinizi edin, artıq Mən sizi bağışlamışam!"**[1]

***4. Ridvan beyətində iştirak edən səhabələr.*** Uca Allah buyurur: **"Möminlər *Hüdeybiyyədə* ağac altında sənə beyət edərkən Allah onlardan razı qaldı. *Allah* onların qəlbində olanı bildi, onlara *mənəvi* rahatlıq nazil etdi və onları yaxın bir zəfərlə mükafatlandırdı."** (əl-Fəth, 18).

Peyğəmbər ﷺ isə belə demişdir: **"Ağac altında beyət edən səhabələrdən heç biri Cəhənnəm oduna girməyəcək."**[2]

*Xüsusi üstünlüyün ardıcıllığı isə belədir:*

***1. Dörd raşidi xəlifə.***

Sünnə və camaat əhlinin yekdil rəyinə görə, Peyğəmbərdən ﷺ sonra bu ümmətin ən fəzilətlisi Əbu Bəkr رضي الله عنه, sonra da Ömər ibn əl-Xəttabdır رضي الله عنه. Bu barədə səksəndən çox rəvayət nəql edilmişdir. Əli ibn Əbu Talib رضي الله عنه Kufədə minbərdən xütbə verərkən belə demişdir: "Sizə Peyğəmbərdən ﷺ sonra bu ümmətin ən fəzilətlisi barədə xəbər verimmi? Bu, Əbu Bəkr, sonra Ömərdir."[3]

Əli ibn Əbu Talib رضي الله عنه bunu bildiyi üçün əminliklə belə deyir.

Bu iki səhabədən sonra fəzilət baxımından səhabələrin ən fəzilətlisi Osman ibn Affandır رضي الله عنه. İmam Buxarinin رحمه الله rəvayət etdiyi hədisdə Abdullah ibn Ömər رضي الله عنهما demişdir: "Biz Peyğəmbərin ﷺ zamanında səhabələrin birinin digərindən fəzilətli olduğunu, Əbu Bəkrin, sonra Ömərin, sonra da Osmanın isə hamıdan fəzilətli olduğunu hesab edərdik."[4] Digər rəvayətdə isə: "Bu mövqe Peyğəmbərə ﷺ bildirildikdə, o bunu inkar etməzdi"– deyilir.[5]

---

[1] Səhih əl-Buxari, 3007; Səhih Muslim, 2494.

[2] Səhih Muslim, 2496.

[3] Musnəd imam Əhməd, 836; İbn Əbu Asim, Sunnə, 1201.

[4] Səhih əl-Buxari, 3655.

[5] İbn Əbu Asim, Sunnə, 1193.

Sufyan əs-Sovri رحمه الله demişdir: "Əlini رضي الله عنه Əbu Bəkr رضي الله عنه və Ömərdən رضي الله عنه üstün tutanlar, əslində səhabələri təhqir edirlər. Belə ki, məhz səhabələr bu iki səhabəni digərlərindən üstün hesab etmişlər."[1]

Bu üç səhabədən sonra fəzilət baxımından səhabələrin ən fəzilətlisi Əli ibn Əbu Talibdir رضي الله عنه. Bu dörd səhabənin fəzilət baxımından tərtibi, xilafətin tərtibi kimidir.

***2. Cənnətlə müjdələnmişlər*** – dörd raşidi xəlifə, Abdurrəhman ibn Auf, Səd ibn Əbu Vəqqas, Talhə ibn Ubeydullah, Zubeyr ibn əl-Əvvam, Əbu Ubeydə Amir ibn əl-Cərrah və Səid ibn Zeyd رضي الله عنهم.

Peyğəmbər ﷺ bu on nəfəri sağ ikən Cənnətlə müjdələmişdir.[2]

Peyğəmbər ﷺ həmçinin Bilalı[3], Sabit ibn Qeysi[4] və Abdullah ibn Səlamı[5] da رضي الله عنهم Cənnətlə müjdələmişdir.

***3. Peyğəmbərin ﷺ əhli beyti رضي الله عنهم***

Buna beş nəsil aid edilir və onlara sədəqə yemək haram sayılır – Əli ibn Əbu Talibin رضي الله عنه nəsli, Cəfər ibn Əbu Talibin رضي الله عنه nəsli, Əqil ibn Əbu Talibin رضي الله عنه nəsli, Abbas ibn Abdulmuttəlibin رضي الله عنه nəsli və Haris ibn Abdulmuttəlibin رضي الله عنه nəsli. Peyğəmbər ﷺ belə demişdir: **"Allah kinanəliləri İsmail övladından, qureyşliləri kinanəlilərdən, Haşim oğullarını qureyşlilərdən, məni də Haşim oğullarından seçmişdir."[6]**

Digər hədisdə o ﷺ demişdir: **"Sizə, əhli-beytimin qeydinə qalmaq xüsusunda Allahdan qorxmağı xatırladıram. Sizə, əhli-beytimin qeydinə qalmaq xüsusunda Allahdan qorxmağı xatırladıram."[7]**

---

[1] Tarix İbn Məin, 1/159; Bidayə vən-Nihayə, 8/13; Fətava əl-Kubra, 4/444.

[2] Musnəd imam Əhməd, 1675; Sunən Əbu Davud, 4649; Sunən ət-Tirmizi, 3747; Sunən ən-Nəsai, 8138; Sunən İbn Macə, 133.

[3] Səhih əl-Buxari, 1149; Səhih Muslim, 2547.

[4] Səhih əl-Buxari, 3613; Səhih Muslim, 119.

[5] Səhih əl-Buxari, 3812; Səhih Muslim, 2483.

[6] Səhih Muslim, 2276.

[7] Səhih Muslim, 2408.

Rəvayət edilir ki, Abbas ibn Abdulmuttəlib رضي الله عنه qureyşlilərdən bəzilərinin Haşim oğulları ilə kobud rəftar etməsindən Peyğəmbərə ﷺ şikayət etdikdə, Peyğəmbər ﷺ belə buyurmuşdur: **“Allaha and olsun ki, adam sizi Allah xatirinə və mənim qohumum olduğunuza görə sevməyincə, onun qəlbinə iman daxil olmaz.”**[1]

Peyğəmbərin ﷺ əməlisaleh pak zövcələri də əhli-beytdən sayılır. Bu xüsusda uca Allah belə buyurur: **“Ey ev əhli! Allah sizdən günahınızı silib aparmaq və sizi tərtəmiz etmək istəyir.”** (əl-Əhzab, 33).

Allah onları Öz Peyğəmbəri ﷺ üçün seçmiş və onları həm bu dünyada, həm də Axirətdə ona həyat yoldaşı etmiş və onları möminlərin anaları adlandırmışdır.[2]

Bu qadınların ən fəzilətlisi Xədicə رضي الله عنها və Əbu Bəkrin رضي الله عنه qızı Aişədir رضي الله عنها. Digərləri isə bunlardır: Sevda bint Zəma, Həfsa bint Ömər, Ummu Sələmə, Ummu Həbibə bint Əbu Sufyan, Səfiyyə bint Huyey, Zeynəb bint Cəhş, Cuveyriyə, Meymunə və Zeynəb bint Xuzeymə (Allah onların hamısından razı qalsın!).

***Səhabələrin fəzilətindən asılı olmayaraq, onlara olan münasibətdə öhdəmizə düşən vaciblər bunlardır:***

*1. Onları sevmək, onları dost qəbul etmək, onlardan razı qalmaq, onlar üçün məğfirət diləmək və onları istər fərdi, istərsə də toplum şəklində tərifləmək.* Uca Allah buyurur: **“Mömin kişilərlə mömin qadınlar bir-birinin dostlarıdır.”** (ət-Tövbə, 71).

O, həmçinin buyurur: **“*Səhabələrdən* sonra gələnlər deyirlər: “Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən, Sən olduqca şəfqətlisən, rəhmlisən!”** (əl-Həşr, 10).

---

[1] Musnəd imam Əhməd, 1777.

[2] **“Peyğəmbər möminlərə onların özlərindən daha yaxındır. Zövcələri isə möminlərin analarıdır.”** (əl-Əhzab, 6).

Peyğəmbər ﷺ də belə demişdir: **"İmanın əlaməti ənsarı sevmək, münafiqliyin əlaməti isə ənsara nifrət etməkdir."**[1]

Əli ibn Əbu Talib رضي الله عنه demişdir: **"Toxumu çatladıb cücərdən və insanı yaradan *Allaha* and olsun ki, yazıb-oxumağı bacarmayan Peyğəmbər ﷺ mənə söz vermişdir ki: "Məni yalnız mömin sevər və mənə yalnız münafiq nifrət edər."**[2]

*2. Onlar barədə yaxşı düşünmək və yaxşı danışmaq – barələrində pis zənn etməmək, onları söyməmək və lənətləməmək.* Uca Allah buyurur: **"Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən, Sən olduqca şəfqətlisən, rəhmlisən!"** (əl-Həşr, 10).

Peyğəmbər ﷺ də belə buyurmuşdur: **"Mənim səhabələrimi söyməyin! Əgər sizdən biriniz Uhud dağı boyda qızıl sədəqə versə, onlardan birinin verdiyi bir ovuc sədəqəyə, hətta yarısına belə çata bilməz."**[3]

*3. Onlardan bəzilərinin arasında baş vermis qarşıdurmalar barədə söhbət açmamaq, barələrində gözəl zənn etmək və onların müctəhid olduğunu əsas gətirərək onları üzürlü hesab etmək.* Belə ki, ictihadına görə doğru qərar verənlər iki savab, yanlış qərar verənlər isə bir savab qazanmışlar. Onlar İslam dininə xidmətlər göstərmiş və hər birinin fəziləti və böyük savabı olmuşdur. Odur ki, onların xətası olmuş olsa belə, onlara Allahdan məğfirət diləmək vacibdir.

*4. Rafizilərin tutduğu yoldan, yəni Rəsulullahın ﷺ əhli-beytini ifrat dərəcədə şişirtməkdən, habelə, səhabələrə nifrət etməkdən və onları söyməkdən uzaq durmaq. Həmçinin nasibilərin tutduğu yoldan, yəni Rəsulullahın ﷺ əhli-beytinə qarşı kobudluq etməkdən və onlara əziyyət verməkdən də uzaq durmaq.*

---

[1] Səhih əl-Buxari, 17; Səhih Muslim, 74.

[2] Səhih Muslim, 78.

[3] Səhih əl-Buxari, 3673; Səhih Muslim, 2540.

# ALLAHIN DOSTLARI

Möminlərin hamısı Allahın dostlarıdır. Uca Allah buyurur: **“Allah iman gətirənlərin dostudur.”** (əl-Bəqərə, 257).

O, həmçinin buyurur: **“Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız *Ondan* ən çox qorxanınızdır.”** (əl-Hucurat, 13).

Kim Allahdan qorxarsa, Allah onu Özünə dost qəbul edər. Allaha dost olmaq Ona itaət etmək və Onu sevməkdir. Allahın möminləri Özünə dost qəbul etməsi isə onları sevməsi və onlara yaxşılıq etməsidir.

**1. Allahın dostu.** Bu, Allahdan qorxan hər bir mömindir. Uca Allah buyurur: **“Bilin ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar kədərlənməzlər. O kəslər ki, iman gətirmiş və *Allahdan* qorxmuşlar.”** (Yunus, 62-63).

Onların bu dostluq xüsusunda məqamları nəsəbə görə və şəxsi münasibətə görə deyil, məhz onların imanına və təqvasına görə fərqlənir. Uca Allah buyurur: **“Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız *Ondan* ən çox qorxanınızdır. Həqiqətən, Allah *hər şeyi* biləndir, *hər şeydən* xəbərdardır.”** (əl-Hucurat, 13).

**2. Kəramət.** Bu, fövqəladə baş verən hadisədir. Allah bunu Öz dostlarından hər hansı birinin əli ilə – onun üçün kəramət olması və tabe olduğu peyğəmbəri təsdiq etməsi üçün həyata keçirir. Bu kəramətlər iki qismdir:

*Birincisi* elmə, kəşflərə, döyüşlərə və ilham yolu ilə təlqin edilən işlərə aiddir.

*İkincisi* isə qüdrətə və təsir göstərməyə aiddir.

Kəramətlər, əvvəlki ümmətlərdə məxsusi olaraq Allahın dostlarına, bu ümmətdən isə səhabələr və tabiinlərə bəxş edilmiş və Qiyamətədək bu ümmətdən olan digər Allah dostlarına da bəxş ediləcəkdir.

# ŞƏRİƏT QAYDALARINI QOYMAĞIN VƏ DƏLİLLƏR GƏTİRMƏYİN YOLLARI

**1.** Əqidəni, şəriət qanunlarını və əxlaqı öyrənəcəyimiz üç əsas mənbə bunlardır: Quran, səhih Sünnə və təsdiqlənmiş icma (islam alimlərinin yekdil rəyi). Bu üç əsasa qarşı hər hansı bir rəyi, yaxud qiyası, yaxud nəfsi istəyi, yaxud kəşfi və ya kiminsə fikrini qoymaq olmaz.

**2.** Quran və Sünnəni anlamağın yolu mühacirlərin və ənsarın, habelə, onların yolunu doğru-düzgün tutub gedən alimlərin açıqlamalarına söykənməkdir. Bu yoldan üz döndərmək isə kəlam əhlinin və sufilərin uydurduqları bidətdir. Uca Allah buyurur: **"Hər kim özünə doğru yol bəlli olduqdan sonra Peyğəmbərə qarşı çıxıb möminlərin yolundan başqa bir yolla gedərsə, onu üz tutduğu yola yönəldər və Cəhənnəmə giriftar edərik. Ora nə pis dönüş yeridir."** (ən-Nisa, 115).

**3.** Quran və Sünnənin ziddinə düşünməyən, şübhələrdən və mərəzlərdən xali olan sağlam və salamat ağıl. Hərçənd Quran və Sünnədə ağılı heyrətə gətirən dəlillər ola bilər, lakin ağılın qəbul etmədiyi dəlillərin olması mümkün deyil. Hər kim Quran və Sünnədə olan hər hansı bir dəlilin ağıla sığmadığını düşünərsə, demək onun ağlında naqislik var. Belə olduğu halda o, dəlili ağıldan üstün tutmalıdır.

**4. Bidət.** Bu, dinə yenilik əlavə etməkdir. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"Kim bizim bu dinimizə aid olmayan bir yeniliyi ona əlavə edərsə, o yenilik rədd edilər."**[1]

Digər hədisdə o ﷺ demişdir: **"Hər kim bizim dinimizdə olmayan bir əməl edərsə, bu əməl rədd edilər."**[1]

[1] Səhih əl-Buxari, 2697; Səhih Muslim, 1718.

Bidətlərin növləri bunlardır:

- *Əqidəyə aid bidətlər* – şiəlik, xəvariclik, qədərilik və murciəlik;
- *Əmələ aid bidətlər* – rahiblik və təriqətçilik;
- *Təmələ aid bidətlər* – mövlud (doğum günü) keçirmək və sünnəyə zidd olan tərzdə zikrlər etmək;
- *Sünnəyə əlavə edilmiş bidətlər* – sünnənin keyfiyyətinə, sayına, cinsinə, səbəbinə, zamanına və ya məkanına aid əlavələr;
- *Günahı ağır olan bidətlər* – Allaha şərik qoşmaq;
- *Günahı yüngül olan bidətlər;*
- *İnsanı İslam dinindən çıxardan bidətlər* – Allahın sifətlərini inkar etmək;
- *Fasiqliyə sürükləyən bidətlər* – haramları dinləmək.

[1] Səhih Muslim, 1718.

# ƏQİDƏNİ TAMAMLAYAN ƏMƏLLƏR

**1. Yaxşı işləri əmr etmək və pis əməlləri qadağan etmək.** Uca Allah buyurur: **"Qoy içinizdən xeyrə çağıran, yaxşı işləri əmr edib, pis əməlləri qadağan edən bir camaat olsun. Məhz onlar nicat tapanlardır."** (Ali-İmran, 104).

Rəvayət edilir ki, Əbu Səid əl-Xudri ﷺ demişdir: "Mən Rəsulullahın ﷺ belə buyurduğunu eşitmişəm: **"Sizdən biriniz bir münkər görərsə, onu əli ilə düzəltsin, bacarmazsa, dili ilə *düzəltsin*, bunu da bacarmasa, qəlbi ilə *ona nifrət etsin*, bu da imanın ən zəifidir."**[1]

**2. Birlik və mehribançılığa həris olmaq, firqələrə bölünməkdən və ixtilafa düşməkdən çəkinmək.** Uca Allah buyurur: **"Hamınız Allahın ipindən möhkəm yapışın və parçalanmayın! Allahın sizə olan nemətini xatırlayın ki, siz *bir-birinizə* düşmən idiniz, O, sizin qəlblərinizi birləşdirdi və Onun neməti sayəsində *bir-birinizlə* qardaş oldunuz. Siz odlu bir uçurumun lap kənarında ikən O, sizi oradan xilas etdi. Allah Öz ayələrini sizə beləcə bəyan edir ki, bəlkə doğru yola yönələsiniz. Qoy içinizdən xeyrə çağıran, yaxşı işləri əmr edib, pis əməlləri qadağan edən bir camaat olsun. Məhz onlar nicat tapanlardır. Özlərinə aydın dəlillər gəldikdən sonra firqələrə ayrılıb ixtilaf edənlər kimi olmayın. Məhz onlar üçün böyük bir əzab vardır."** (Ali-İmran, 103-105).

O, həmçinin buyurur: **"Dinə doğru-düzgün etiqad edin və onda bölünüb firqə-firqə olmayın!"** (əş-Şura, 13).

Peyğəmbər ﷺ belə demişdir: **"Möminlər bir bina kimidirlər, bir-birini dəstəkləyirlər"– dedi, sonra da barmaqlarını bir-birinə keçirtdi."**[2]

Yenə o ﷺ demişdir: **"Sən möminlərin bir-birinə mərhəmət göstərməkdə, bir-birini sevməkdə və bir-birinə can yandırmaqda**

---

[1] Səhih Muslim, 49.

[2] Səhih əl-Buxari, 481; Səhih Muslim, 2585.

**bir bədən kimi olduğunu görərsən. Belə ki,** ***bədənin*** **bir əzasına xəstəlik üz verdikdə, bütün bədən yuxusuzluqdan və qızdırmadan əziyyət çəkir."**[1]

**3. Gözəl əxlaqlı olmaq və saleh əməllər etmək:** səbirli, səxavətli, şücaətli, həlim, əfv edən, təvazökar olmaq və bunların əksindən uzaq durmaq, habelə, valideynlərin qayğısına qalmaq, qohumlarla əlaqələri möhkəmləndirmək, qonşulara yaxşılıq etmək, yetimlərə, kasıblara və Allah yolunda vuruşanlara əl tutmaq. Uca Allah buyurur: **"Sən bağışlama** ***yolunu*** **tut, yaxşı iş görməyi əmr et və cahillərdən üz döndər."** (əl-Əraf, 199).

Əbu Dərda ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: ***"Qiyamət günü qoyulacaq*** **tərəzidə gözəl əxlaqdan daha ağır gələn bir şey yoxdur."**[2]

Əbu Hureyra ﵁ isə rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: **"Kim bir mömini dünya sıxıntılarından birindən qurtararsa, Allah onu Qiyamət gününün sıxıntılarından birindən qurtarar. Kim borcunu qaytara bilməyən bir kimsənin işini asanlaşdırarsa, Allah onun dünya və axirətdəki işlərini asanlaşdırar. Kim bir müsəlmanın eyiblərini örtərsə, Allah həm bu dünyada, həm də axirətdə onun eyiblərini örtər. Adam mömin qardaşının köməyində durduqca, Allah da ona kömək edər. Kim elm öyrənmək üçün yola düşərsə, Allah onun sayəsində onun Cənnətə gedən yolunu asanlaşdırar.** ***Hər hansı*** **bir camaat Allahın evlərindən birində yığışıb Allahın Kitabını oxusa və onu bir-birinə öyrətsə, onların üzərinə sükunət nazil olar, rəhmət onları bürüyər, mələklər öz qanadları ilə onları əhatəyə alar və Allah onları Öz yanındakıların arasında yad edər. Kimin də əməli onu alçaldarsa, nəsəbi onu ucalda bilməz."**[3]

---

[1] Səhih əl-Buxari, 6011; Səhih Muslim, 2586.

[2] Sunən Əbu Davud, 4799.

[3] Sunən Əbu Davud, 2699.

# DİN VƏ YOL

Allahın dini birdir – bu da İslam dinidir. Uca Allah buyurur: **“Həqiqətən, Allah yanında *haqq* din, İslamdır!”** (Ali-İmran, 19).

Bu, Allahın həm əvvəlki, həm də sonrakı ümmətlərə göndərdiyi dinidir. Uca Allah buyurur: **“Şübhəsiz ki, Biz, içində hidayət və nur olan Tövratı nazil etdik. Özlərini *Allaha* təslim edən peyğəmbərlər bununla yəhudilər arasında hökm edərdilər.”** (əl-Maidə, 44).

Bu, ümumi mənada İslam dinini qəbul etmək, müsəlman olmaq deməkdir. Yəni Allahın tək İlah olduğunu qəbul etməklə, Ona itaət etməklə və şirkdən uzaq durmaqla Ona təslim olmaq.

Xüsusi olaraq İslam dini deyildikdə isə, bu, Allahın Muhəmməd peyğəmbər ﷺ vasitəsilə göndərdiyi, özündə səhih əqidəni, ədalətli qanunları, saleh əməlləri və gözəl əxlaqı cəm edən hidayət yolu və haqq dindir. Allah bu din sayəsində əvvəlki dinlərin hamısını nəsx (ləğv) etmişdir. Odur ki, Allah bu dindən başqa bir din qəbul etmir. Uca Allah buyurur: **“Kim İslamdan başqa bir din arayarsa, *bilsin ki, o din* ondan əsla qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar.”** (Ali-İmran, 85).

Peyğəmbər ﷺ demişdir: **“Muhəmmədin canı Əlində olan *Allaha* and olsun ki, hər hansı bir yəhudi və ya xristian mənim barəmdə eşidib, sonra da mənimlə göndəriləna iman gətirmədiyi halda ölərsə, mütləq Cəhənnəm əhlindən olar.”**[1]

Allah əvvəlki ümmətlərdən nemət bəxş etdiyi bəndələrini müsəlman adlandırmışdır. O buyurur: **“Allah həm əvvəl *nazil etdiyi kitablarda*, həm də bu *Kitabda* sizi müsəlman adlandırdı.”** (əl-Həcc, 78).

Allahın əzəldən yazdığı qədərə görə, insanlar ixtilafa düşmüş və firqələrə bölünmüşlər. Bu xüsusda Peyğəmbər ﷺ belə demişdir: **“Diqqət edin! Sizdən əvvəlkilər yetmiş iki firqəyə bölünmüşlər. Bu ümmət də yetmiş üç firqəyə bölünəcəkdir. Onlardan yetmiş ikisi cəhənnəmlik olacaq, biri isə cənnətlik. O da camaatdır.”**[2]

---

[1] Səhih Muslim, 153.

[2] Musnəd imam Əhməd, 16937; Sunən Əbu Davud, 4597; Sunən ət-Tirmizi, 2640; Sunən İbn Macə, 3991.

Bu nicat tapacaq firqə Allahın Kitabına sarılan, şübhələrdən, nəfsin istəklərindən və bidətlərdən uzaq duraraq Peyğəmbərin ﷺ sünnəsinə tabe olan Sünnə və camaat əhlidir (yəni Peyğəmbərin ﷺ yolunu camaat olaraq gedənlər). Bunlar həmişə qalib gələcək dəstədir. Bu xüsusda Peyğəmbər ﷺ belə demişdir: **"Allahın əmri gələnədək** (Qiyamət gününədək)**, ümmətimdən bir dəstə insan haqq üzərində mübarizə apararaq qələbə çalmaqda davam edəcəkdir. Onlara müxalif olanlar onlara heç bir zərər yetirə bilməyəcəklər. Onlar beləcə daim qalib gələcəklər."**[1]

Bunlar iki tərəf arasında orta yol tutan, iki əyrilik arasında ədalətli olan və iki zəlalət arasında doğru yol tutan dəstədir:

- Allahın sifətləri xüsusunda – sifətləri məxluqata bənzədən müşəbbihələrlə onları tamamilə inkar edən mötəzililər arasında.
- Allahın əzəldən yazdığı qədər xüsusunda – cəbərilərlə qədərilər arasında.
- Allahın təhdid etməsi, habelə, imanın və dinin şöbələri xüsusunda – murciələrlə vaidilər arasında.
- Rəsulullahın ﷺ səhabələrinə münasibət xüsusunda – xəvariclərlə rafizilər arasında.

Allahın lütfü sayəsində bu haqq yolda olan firqə, qəbul edilməyən məzhəblərdən və əyri yolda olan təriqətlərdən uzaqdır. Allah onlara imanı sevdirmiş, onu qəlblərində gözəl göstərmiş, onlarda küfrə, günaha və asi olmağa qarşı nifrət oyatmışdır. **"Bunlar Allah tərəfindən olan lütf və nemət sayəsindədir. Allah *hər şeyi* billəndir, hikmət sahibidir."** (əl-Hucurat. 8).

*Peyğəmbəri Muhəmmədə, onun ailəsinə və səhabələrinin hamısına Allahın salavatı və salamı olsun!*

***Dr. Əhməd ibn Abdurrəhman ibn Osman əl-Qadi.***
*Bu kitab hicri tarixlə 15/02/1427-ci ildə tamamlandı.*
*Uneyzə.*

---

[1] Səhih əl-Buxari, 7312; Səhih Muslim, 1037.

# MÜNDƏRICAT

**Müqəddimə** ........................................................................................3
**Qurani Kərimə və pak Sünnəyə əsasən asanlaşdırılmış əqidə** ..........6
**Allaha iman** ......................................................................................6
**Mələklərə iman** ...............................................................................42
**Kitablara iman** ................................................................................50
**Peyğəmbərlərə iman** ......................................................................56
**Axirət gününə iman** .......................................................................61
**Qədərə iman** ....................................................................................68
**Quran** ...............................................................................................73
**Allahı görmək** .................................................................................75
**İmanın həqiqi mənası** ....................................................................77
**İdarəetmə və cəmiyyət** ..................................................................84
**Səhabələr** ........................................................................................87
**Allahın dostları** .............................................................................93
**Şəriət qaydalarını qoymağın və dəlillər gətirməyin yolları** .............94
**Əqidəni tamamlayan əməllər** .......................................................96
**Din və yol** .......................................................................................98